RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 118 (9285) 6 İYUN 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# 3,3 milyard manatlıq əlavə dəstək



## Qarabağ və Şərqi Zəngəzurun bərpası, ordumuzun hərbi gücünün artırılması dövlət büdcəsinin prioritetləridir

**"Bütövlükdə hesab edirəm ki, büdcəyə əlavələr ən azı 3 milyard manat səviyyəsində olacaq, ondan da çox ola bilər. Bunun əsas hissəsi Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında istifadə ediləcək. İkinci yerdə bizim hərbi xərclərimiz olacaq. Çünki buna da böyük ehtiyac var".**

Aprelin 18-də Salyan şəhərində Azərbaycan Televiziyasına müsahibə verdiyi zaman bu il büdcəyə əlavələrin əsas hissəsinin məhz hansı sahələrə yönəldiləcəyi ilə bağlı məlumat verən Prezident İlham Əliyev həm də bu sözləri ilə dövlətimizin birnömrəli prioritetinin Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdışı gerçəkləşdirmək, eləcə də zəfər ordumuzun gücünə güc qatmaq olduğunun, büdcə siyasətimizin qarşısındakı iki əsas çağırışın mesajını vermişdi.

### Quruculuq əzmi və müdafiə qüdrəti

Artıq Milli Məclisdə 2023-cü ilin dövlət və icmal büdcəsinə dəyişikliklərin edilməsi ilə bağlı qanun layihəsi birinci oxunuşda müzakirə olunub.

İyunun 2-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, Əmək və sosial siyasət komitələrinin birgə iclası zamanı gündəliyə daxil edilən məsələlərdən biri də "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş) haqqında olub. Bildirilib ki, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi üçün əlavə 1 milyard 105 milyon manat vəsait tələb olunur.

→ 5

# "Heydər Əliyevin səyləri daim minnətdarlıq hissi ilə xatırlanacaq"



## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ölkənizlə bağlı əmin-amanlıq və firavanlıq arzularımı, həmçinin atanız, zati-aliləri cənab Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə səmimi təbriklərimi çatdırıram.

Azərbaycanın inkişafı, Müqəddəs Taxt-Tac ilə diplomatik münasibətlərin qurulması istiqamətində dahi Heydər Əliyevin səyləri daim minnətdarlıq hissi ilə xatırlanacaq. Uca Tanrıdan diləyirəm ki, Azərbaycana və onun xalqına bundan sonra da tərəqqi, rifah, cansağlığı və əmin-amanlıq nəsib etsin.

Möhtərəm Prezident, Sizə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, bütün həmvətənlərinizə Allahdan ruzi-bərəkət diləyirəm.

*Dərin hörmətlə,*

***FRANSİSK,***
***Roma Papası***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və ölkənizin vətəndaşlarını bütün kanadalılar adından təbrik edirəm.

Kanada ötən il diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd etdiyimiz Azərbaycanla əlaqələri möhkəmləndirməkdən məmnundur. Bizim tərəfdaşlığımız ortaq dəyərlərə, o cümlədən Cənubi Qafqazda uzunmüddətli sülhə və sabitliyə, eləcə də fəal Azərbaycan-Kanada icması tərəfindən qurulan xalqlararası əlaqələrə əsaslanır.

Müsbət ikitərəfli əlaqələrimiz qadınların səlahiyyətlərinin artırılması, qlobal təhlükəsizlik və ətraf mühitin mühafizəsi kimi mühüm məsələlərin həlli istiqamətində birgə səylərimizlə daha da möhkəmlənir. Kanada Azərbaycanla münasibətlərini daha da inkişaf etdirməyə, həmçinin vətəndaşlarımız üçün daha yaxşı gələcək naminə birgə səy göstərməyə hazırdır.

Bu bayram münasibətilə Sizə və Azərbaycan xalqına əmin-amanlıq, rifah arzulayıram.

*Hörmətlə,*

***Meri SAYMON,***
***Kanadanın General-Qubernatoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Sizə və dost Azərbaycan xalqına davamlı tərəqqi və rifah arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz arasında səmimi dostluq əlaqələrinin möhkəmləndirilməsi üçün Sizinlə birgə işləməyə hazır olduğumu bir daha bildirirəm.

*Dərin hörmətlə,*

***Maki SALL,***
***Seneqal Respublikasının Prezidenti***

# Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafının davamlılığı təmin ediləcək



Prezident İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

→ 2

# "Türkiyə yüzilliyi" başlayır



Rəcəb Tayyib Ərdoğan andiçmə mərasimindən sonra Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün mavzoleyinin olduğu Anıtqəbri ziyarət edərək buradakı xatirə dəftərinə ürək sözlərini yazıb: "'Qarşıdakı 5 il ərzində "Türkiyə yüz ili" baxışımızı həyata keçirmək üçün çalışmağa davam edəcəyik".

Daha sonra Prezident İqamətgahına gedən Rəcəb Tayyib Ərdoğan səlahiyyətlərinin icrasına başlama mərasimində çıxışında deyib ki, Türkiyənin inkişafı üçün səylərimizi davam etdirəcəyik. Siyasi baxışlarından, mənşəyindən, məzhəbindən asılı olmayaraq, 85 milyon insanın hamısını qucaqlayacağıq. Birliyə və bərabərliyə hər zamankından daha çox ehtiyacımız var. Rəcəb Tayyib Ərdoğan yenidən Prezident vəzifəsinə seçilməsi üçün ona etimad göstərən seçicilərə minnətdarlığını bildirib və mayın 28-də keçirilmiş seçkilərin millətin iradəsini əks etdirdiyini vurğulayıb.

→ 6

# O ağır günlərdə nəzərlər Naxçıvana yönəlmişdi

Gəncə hadisələrinin başvermə səbəbləri haqqında qeydlərimizi yazarkən bir qədər geriyə qayıtmağı vacib bildik. Əslinə qalsa, iyunun 4-də Gəncədə baş verənlər 1993-cü ilin fevralın 8-də olanların finalı idi. Fevralın 8-də AXC İcrayyə Komitəsi bəyanat verərək o zaman korpus komandiri olan, Prezident Əbülfəz Elçibəyin sərəncamı ilə Milli Qəhrəman adına sahiblənən polkovnik Surət Hüseynovu "vətən xaini" elan etmişdi. AXC-ni bu bəyanatı verməyə vadar edən səbəb isə ərköyün korpus komandirinin özbaşına, hərbi komandanlığın razılığı olmadan ön cəbhədəki qoşunları "təlim" adı ilə "Seyfəli" poliqonuna gətirməsi olmuşdu. Bununla da Azərbaycanda fəaliyyət göstərən hərbi müxalifət açıq mübarizəyə keçmişdi.

→ 8

# Ordumuzun mövqeləri atəşə tutulub

İyunun 4-ü saat 04:20-dən saat 13:55-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Şuşa və Xocalı rayonları istiqamətlərində yerləşən mövqeləri atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Bundan başqa, saat 12:20 radələrində qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri ordumuzun Şuşa rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

# Qeyri-qanuni erməni birləşmələrinin kvadrokopterlə kəşfiyyat fəaliyyətinin qarşısı alınıb

İyunun 4-ü saat 20:10 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvlərinə məxsus kvadrokopterin ordumuzun Ağdam rayonu istiqamətində yerləşən mövqelərinin üzərində kəşfiyyat xarakterli uçuş apardığı müşahidə edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində mövqelərimiz üzərində uçuş həyata keçirməyə cəhd göstərən kvadrokopterin fəaliyyətinin qarşısı alınıb. Bundan başqa, saat 18:25 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yuxarı Ayrım yaşayış məntəqəsində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutublar.

Ordumuzun bölmələri tərəfindən cavab tədbirləri görülüb.

# Revanşistlərin ümidləri yenə puç oldu

## Keçmiş hərbi xunta Paşinyanın Türkiyə səfərini gözdən salmağa çalışdı

Bir müddət əvvəl baş nazir Paşinyanın Hayastan və Türkiyə münasibətlərinin normallaşması, sərhədlərin açılmasının ölkə iqtisadiyyatına müsbət təsir edəcəyi ilə bağlı fikirlər söyləməsi ilə razılaşmamaq çətindir. Yəni burada heç bir illüziya yoxdur, sadəcə, vəziyyətin obyektiv qavranılması var, blokada aradan qaldırılmadan iqtisadiyyat canlandırıla bilməz. Mövcud hakimiyyəti milli maraqlara xəyanətdə günahlandıran radikal müxaliflər Paşinyanın indi etməyə çalışdıqlarını yaxın keçmişdə necə özlərinin etməyə çalışdıqlarını unudurlar. Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın fəal iştirak etdiyi bədnam "Sürix protokolları" və "futbol diplomatiyası"nı heç kim yaddan çıxarmayıb.

→ 13

# "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təqribən yarıməsrlik dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Məhz Ulu Öndərin çoxşaxəli fəaliyyəti sayəsində ölkəmizin bütün regionlarının, o cümlədən Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi qoyulmuşdur.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı sahəsində 2004-cü ildən etibarən qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması, kommunal və sosial infrastruktur təminatı səviyyəsinin yüksəlməsi ilə nəticələnmişdir.

Dövlət proqramları çərçivəsində görülmüş işlər Naxçıvan Muxtar Respublikasının qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar yaratmışdır. Hazırda bu imkanlardan istifadə edilməklə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması və dayanıqlı iş yerlərinin yaradılması istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas prioritetlərdən birinə çevrilmişdir. Bu isə öz növbəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar tədbirlərin, həmçinin kompleks proqramların hazırlanmasını və icrasının davam etdirilməsini nəzərdə tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın (bundan sonra - Dövlət Proqramı) 2023-2024-cü illərdə maliyyələşdirilməsi ilə bağlı təkliflərini bir ay müddətində, 2025-2027-ci illərdə maliyyələşdirilməsi ilə bağlı təkliflərini isə 2024-cü il iyulun 1-dək hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramının tədbirlər planına və müəyyənləşdiriləcək maliyyə vəsaitinin həcminə uyğun olaraq, üç ay müddətində 2023-2024-cü illər üzrə, 2024-cü il sentyabrın 1-dək isə 2025-2027-ci illər üzrə tədbirlər planında nəzərdə tutulmuş məsələlərin icrasının təmini üçün daha təfsilatlı tədbirlər planlarının layihələrini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və Dövlət Proqramının icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il Azərbaycan Respublikası dövlət büdcəsinin, dövlət investisiya proqramlarının və Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 460 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 460 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2617; 2019, № 10, maddə 1581; 2020, № 2, maddə 87; 2021, № 12, maddə 1405; 2022, № 8, maddə 846) ilə təsdiq edilmiş "Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsi Qaydası"nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 3.2-1-ci bənd əlavə edilsin:

"3.2-1. Tikintiyə icazənin alınması üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

2. 3.3-cü bəndin birinci cümləsinə "təqdim olunmadıqda" sözlərindən sonra "(bu Qaydanın 3.2-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 iyun tarixli 283 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət əmlakının ixtisaslaşdırılmış pul hərraclarında satışı Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 iyun tarixli 283 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 498; 2023, № 1, maddə 70) ilə təsdiq edilmiş "Dövlət əmlakının ixtisaslaşdırılmış pul hərraclarında satışı Qaydaları"nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 3.3-1-ci bənd əlavə edilsin:

"3.3-1. Hərracda iştirak etmək üçün nəzərdə tutulan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər sifarişçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sifarişçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sifarişçi tərəfindən təmin edilir.".

2. 3.6-cı bəndin dördüncü abzasına "tam şəkildə təqdim olunmadıqda" sözlərindən sonra "(bu Qaydaların 3.3-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2023-cü il*

# "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 678; 2019, № 1, maddə 79) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Birdəfəlik ödəmənin verilməsi üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulmuş şəxsdən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulmuş şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya həmin şəxs tərəfindən təmin edilir.".

2. 6.1-ci bəndə "birlikdə" sözündən sonra "(bu Fərmanın 3-1-ci hissəsinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 iyul tarixli 533 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnvestisiya müsabiqəsinin keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 iyul tarixli 533 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 470; 2006, № 7, maddə 590; 2009, № 3, maddə 163; 2010, № 7, maddə 610; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2022, № 12, maddə 1444) ilə təsdiq edilmiş "İnvestisiya müsabiqəsinin keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 4.2-1-ci bənd əlavə edilsin:

"4.2-1. Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar iddiaçılardan tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi iddiaçıların razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya iddiaçılar tərəfindən təmin edilir.".

2. 4.4-cü bəndin dördüncü abzasına "təqdim olunmadıqda" sözlərindən sonra "(bu Qaydaların 4.2-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 avqust tarixli 253 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər Fondunun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 avqust tarixli 253 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1703; 2020, № 4, maddə 397, № 12 (I kitab), maddə 1483; 2023, № 3, maddə 347) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər Fondunun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"na aşağıdakı məzmunda 7.4-1-ci bənd əlavə edilsin:

"7.4-1. Təhsil xərclərinin maliyyələşdirilməsi üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər müraciət edəndən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 27 iyul tarixli 308 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında daşınmaz əmlakın vahid dövlət kadastrının tərtib edilməsi və aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 27 iyul tarixli 308 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 627; 2013, № 4, maddə 373; 2016, № 2 (II kitab), maddə 251; 2023, № 1, maddə 70) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında daşınmaz əmlakın vahid dövlət kadastrının tərtib edilməsi və aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 5.1.2-ci yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Ərizəyə əlavə olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir;".

2. Aşağıdakı məzmunda 9.2-1-ci bənd əlavə edilsin:

"9.2-1. Daşınmaz əmlak obyektinin formalaşdırılmasına dair ərizəyə əlavə olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2023-cü il*

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ədliyyə naziri Fikrət Məmmədov Qazax rayonunda Qazax, Ağstafa, Tovuz və digər rayonlardan olan vətəndaşlarla görüşüb.

Görüşdə vətəndaşların ədliyyə fəaliyyətinə dair müraciətləri diqqətlə dinlənilib, Vətən müharibəsi iştirakçılarının qayğılarına xüsusi həssaslıqla yanaşılıb. Müraciətlərdə qaldırılan məsələlərlə bağlı aidiyyəti tapşırıqlar verilib.

Bölgə sakinləri onlara göstərilən diqqət və qayğıya, yerlərdə mütəmadi qəbulların təşkilinə görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

* * *

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev iyunun 5-də Qusar şəhərində yerləşən Heydər Əliyev Mərkəzinin inzibati binasında vətəndaşları qəbul edib.

Nazirlikdən bildirilib ki, qəbulda ikinci "Yüksəliş" müsabiqəsinin qalibləri Elkiyar Ziyadov və Etibar Hüseynov da iştirak ediblər.

Quba, Xaçmaz və Qusar rayonlarının sakinlərinin qəbulu zamanı nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərə baxılıb.

Nazir Rəşad Nəbiyev müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal müsbət həllini tapıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydiyyata alınıb və müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

*AZƏRTAC*

# Nazir Rəşad Nəbiyev Qusarda şəhid ailəsini ziyarət edib

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev vətəndaşların qəbulu ilə əlaqədar Qusar rayonuna səfəri çərçivəsində şəhid Cəfərov Ruslan Mövlan oğlunun ailəsini ziyarət edib.



AZƏRTAC xəbər verir ki, görüşdə yaxınları şəhidlə bağlı xatirələrini bölüşüb, onun keçdiyi rəşadətli döyüş yolu haqqında danışıblar.

# Azərbaycan nümayəndə heyəti BMT-nin Məskunlaşma Proqramı Assambleyasının sessiyasında iştirak edir

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevin başçılıq etdiyi nümayəndə heyəti BMT-nin Məskunlaşma Proqramının Keniyanın paytaxtı Nayrobi şəhərindəki baş qərargahında keçirilən ikinci sessiyasında iştirak edir. Bu barədə AZƏRTAC-a Komitənin mətbuat xidmətindən bildirilib. İyunun 9-dək davam edəcək sessiyanın əsas mövzusu "İnklüziv və effektiv çoxtərəfli yanaşma vasitəsilə davamlı şəhər gələcəyi: qlobal böhranlar şəraitində davamlı inkişaf məqsədlərinə nail olmaq"dır.

## Baş nazir Əli Əsədov Dünya Bankının nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 5-də Dünya Bankının nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, fəaliyyət müddəti cari ayda başa çatan Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus həmin vəzifədə yeni fəaliyyətə başlayacaq Rolande Praysı və bankın Azərbaycan üzrə yeni ölkə meneceri Stefani Stolmeysteri Baş nazirə təqdim edib.

Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uzunmüddətli səmərəli tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, ötən müddət ərzində müxtəlif sahələri əhatə edən birgə layihələrin uğurla həyata keçirildiyi bildirilib.

Eyni zamanda bir çox istiqamətlərdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olunub.

## Baş nazir Əli Əsədov Türkiyənin sabiq Vitse-prezidenti Fuat Oktaya təşəkkür edib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının sabiq Vitse-prezidenti Fuat Oktaya təşəkkür məktubu ünvanlayıb.



AZƏRTAC xəbər verir ki, məktubda Türkiyənin Vitse-prezidenti olduğu müddətdə Azərbaycan ilə münasibətlərin inkişafına yetirdiyi diqqətə görə F.Oktaya minnətdarlıq ifadə olunub.

F.Oktayın İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın həmsədri kimi Azərbaycan-Türkiyə əməkdaşlığının müxtəlif sahələrdə genişləndirilməsinə verdiyi töhfə yüksək qiymətləndirilib.

Eyni zamanda Türkiyə Böyük Millət Məclisində gələcək fəaliyyətində F.Oktaya uğurlar arzulanıb, bu müddət ərzində də onun Azərbaycan ilə Türkiyə arasında qardaşlıq, strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyinə əminlik ifadə olunub.

## Baş nazir Əli Əsədov Cevdet Yılmazı Türkiyənin Vitse-prezidenti təyin olunması münasibətilə təbrik edib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Cevdet Yılmaza Türkiyə Respublikasının Vitse-prezidenti vəzifəsinə təyin edilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.

AZƏRTAC xəbər verir ki, məktubda Cevdet Yılmazın yüksək vəzifəyə təyinatı qardaş Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın ona olan böyük inam və etimadının aşkar təzahürü kimi qiymətləndirilib.

Vurğulanıb ki, son illər ərzində Türkiyə hərtərəfli inkişaf nümayiş etdirərək beynəlxalq aləmdə güc mərkəzinə çevrilib.

Məmnunluqla qeyd olunub ki, möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-Türkiyə əməkdaşlıq münasibətləri bu müddət ərzində prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın qətiyyətli səyləri ilə möhtəşəm yol keçərək sarsılmaz dostluq və qardaşlıq, strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlib.

Azərbaycan və Türkiyənin birgə səyləri ilə həyata keçirilən nəhəng layihələrin iki ölkənin, eləcə də regionun dünya miqyasında əhəmiyyətini artırdığı, bölgədə sülhə, əməkdaşlığa və inkişafa xidmət etdiyi bildirilib.

"Bir millət, iki dövlət" şüarını rəhbər tutan Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətlərinin bundan sonra da uğurla inkişaf etməsi, eyni zamanda İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya çərçivəsində iki ölkənin əməkdaşlığının ticarət-iqtisadi, investisiya, enerji, nəqliyyat, humanitar və bütün digər sahələrdə daha da genişləndirilməsi istiqamətində birgə səy göstərməyə hazırlıq ifadə olunub.

## Dünya Bankı qrupunun Azərbaycan üzrə yeni tərəfdaşlıq çərçivə sənədi hazırlanacaq

İqtisadiyyat naziri Mikayıl Cabbarov Dünya Bankının Cənubi Qafqaz üzrə yeni regional direktoru Rolande Praysla görüşüb.



İqtisadiyyat naziri xanım Praysı və Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Stefani Stolmeysteri yeni vəzifələrinə təyin olunmaları münasibətilə təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyat naziri Azərbaycanın Dünya Bankı ilə uğurla əməkdaşlıq etdiyini, ölkəmizdə bankın göstərdiyi texniki yardım və maliyyə dəstəyi layihələrinin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Nazir qeyd edib ki, Dünya Bankı ilə əlaqələrimiz çoxşaxəlidir. Bankla özəl sektorun diaqnostikası, innovasiyalar, rəqəmsal inkişaf, idarəetmə texnologiyalarının inkişafı və digər sahələrdə əməkdaşlıq Azərbaycanda qabaqcıl beynəlxalq təcrübənin tətbiqi, müasir texnologiya və yeniliklərin ölkəmizə gətirilməsi baxımından xüsusi önəm kəsb edir.

Görüşdə Azərbaycan iqtisadiyyatının prioritetləri, o cümlədən iqtisadi diversifikasiya, qeyri-neft sektorunun inkişafı, investisiyaların təşviqi və biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər, əldə olunan nəticələr barədə məlumat verilib.

Rolande Prays ölkəmizin strateji inkişaf məqsədlərinə nail olunması istiqamətində bankın Azərbaycan hökuməti ilə sıx əməkdaşlığı davam etdirəcəyinə əminliyini bildirib, tərəfdaşlığın yeni istiqamətləri barədə fikirlərini bölüşüb. Tərəflər həmçinin Dünya Bankının Azərbaycanda gələcək fəaliyyətini və investisiya layihələrinin indikativ proqramını, eləcə də 2023-2028-ci illəri əhatə edən Dünya Bankı qrupunun Azərbaycan üzrə yeni ölkə tərəfdaşlıq çərçivə sənədinin hazırlanması üzrə növbəti addımları müzakirə ediblər.

# Azərbaycanla İsrail dost və tərəfdaş ölkələrdir

Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 5-də İsrail Knessetinin Xarici əlaqələr və müdafiə komitəsinin sədri Yuli Yoel Edelşteynin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu ifadə edən Milli Məclisin Sədri Azərbaycan və İsrailin dost və tərəfdaş ölkələr olduğunu bildirib. Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, ölkələrimiz arasındakı fəal siyasi dialoq, yüksəksəviyyəli səfərlər və görüşlər münasibətlərin inkişafında müstəsna rol oynayıb. Sahibə Qafarova Prezident İsxak Hersoqun may ayında Azərbaycana ilk rəsmi səfərini yüksək qiymətləndirib, səfərin Azərbaycan ilə İsrail arasında münasibətlərin inkişafına böyük töhfə verəcəyinə inamını bildirib. Spiker həmçinin bu il Azərbaycanın İsraildə səfirliyinin açılmasının iki ölkə arasında əlaqələrin daha yüksək səviyyəyə qaldırılmasına və əməkdaşlıq üçün geniş imkanlar yaradılmasına töhfə verəcəyini diqqətə çatdırıb.

Görüşdə Sahibə Qafarova bildirib ki, yəhudilər və azərbaycanlılar əsrlər boyu sülh, dostluq və qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Bu gün yəhudi icması ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edir. O diqqətə çatdırıb ki, yəhudi icması dövlətin diqqət və qayğısı ilə əhatə olunub. Azərbaycanda sinaqoqlar, yəhudi məktəbləri fəaliyyət göstərir. Eyni zamanda İsraildə yaşayan yəhudiəsilli həmvətənlərimiz ölkələrimiz arasında münasibətlərin inkişafına böyük töhfə verirlər.

Milli Məclisin Sədri parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin inkişafında oynadığı müsbət roldan bəhs edərək, bu istiqamətdə hər iki parlamentdə qarşılıqlı dostluq qruplarının fəaliyyətini, parlament üzvlərinin səfərlərini yüksək qiymətləndirib. Spiker Sahibə Qafarova Milli Məclisin Knessetlə əməkdaşlığı daha da genişləndirməyə hazır olduğunu vurğulayıb. O deyib ki, dostluq qrupları ilə yanaşı, parlament komitələri arasında təmasların artırılması və əməkdaşlığın genişləndirilməsi qanunverici orqanlarımız arasında əlaqələrin daha da dərinləşməsinə xidmət edəcək.

İsrail Knessetinin Xarici əlaqələr və müdafiə komitəsinin sədri Yuli Yoel Edelşteyn göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, ölkəmizə səfəri ilə bağlı xoş təəssüratlarını bölüşüb.

O, İsrailin Azərbaycanı özünə dost ölkə saydığını deyib. Komitə sədri əlaqələrimizin yüksələn xətt üzrə inkişafından məmnunluğunu dilə gətirərək, İsraillə Azərbaycan arasında tərəfdaşlığın xalqlarımızın mənafeyinə, sülhün və əməkdaşlığın inkişafına xidmət etdiyini vurğulayıb. O, İsrail Prezidenti İsxak Hersoqun ötən ayın sonlarında Azərbaycana səfərini xatırladaraq, bunun ölkələrimiz arasında münasibətlərin daha da inkişafına təkan verəcəyini bildirib. İsraildə Azərbaycan səfirliyinin fəaliyyətə başlamasının əhəmiyyətini vurğulayan qonaq deyib ki, bu münasibətlərimizin daha da genişləndirilməsində mühüm rola malikdir.

Yuli Yoel Edelşteyn ölkələrimizin bir sıra sahələr üzrə uğurlu əməkdaşlıq əlaqələrinə malik olduğunu qeyd edərək bildirib ki, parlamentlərimiz arasında əməkdaşlığın daha da inkişafı Azərbaycan və İsrail arasında münasibətlərin dərinləşməsində özünəməxsus rol oynayır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Xarici işlər naziri Ceyhun Bayramov İsrail Knessetinin nümayəndə heyəti ilə görüşüb

İyunun 5-də xarici işlər naziri Ceyhun Bayramov İsrail Knessetinin nümayəndə heyəti ilə görüşüb. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Knessetin Xarici əlaqələr və müdafiə komitəsinin sədri Yuli Edelşteynin rəhbərlik etdiyi nümayəndə heyətində həmçinin komitənin diplomatik məsələlər üzrə başçısı Sara Zvebner və komitənin üzvü Ram Ben Barak təmsil olunublar.



Görüşdə Azərbaycan və İsrail arasında çoxşaxəli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən regionda baş verən hadisələr müzakirə mövzusu olub.

Nazir Ceyhun Bayramov diplomatik münasibətlərin qurulmasından ötən 30 il ərzində müxtəlif sahələr üzrə inkişaf edən əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə çatdığını məmnunluqla qeyd edib. Mart ayında İsrail Dövlətinə etdiyi rəsmi səfərə istinad edən nazir Ceyhun Bayramov qarşılıqlı səfərlər, siyasi dialoq və sıx təmasların münasibətlərin inkişafında əhəmiyyətli rol oynadığını qeyd edib.

Azərbaycan və İsrail arasında siyasi, iqtisadi, təhlükəsizlik, energetika, mədəni, humanitar, innovasiyalar və s. sahələrdə ikitərəfli əməkdaşlıq gündəliyinin, qarşılıqlı faydalı münasibətlərin, parlament diplomatiyasının səmərəliliyinin ölkələrimizin münasibətlərin inkişafında göstərdiyi səylərin nəticəsi olduğu diqqətə çatdırılıb.

Komitə sədri Yuli Edelşteyn Azərbaycan ilə İsrail arasında qarşılıqlı hörmət, dəstək və dostluğa əsaslanan münasibətlərin inkişafından məmnunluqla bəhs edərək, Azərbaycanın İsraildə səfirliyinin açılmasının münasibətlərin daha da güclənməsinə xidmət edəcəyinə inamını ifadə edib.

Görüş zamanı münasibətlərin inkişafına xüsusi təsir edən amil kimi, yəhudi icmasının rolu vurğulanıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan-İsrail münasibətləri müzakirə olunub

İyunun 5-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov İsrail Knessetinin Xarici əlaqələr və müdafiə komitəsinin sədri Yuli Yoel Edelşteynin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Səməd Seyidov onları Milli Məclisdə görməkdən məmnun olduqlarını bildirib. Komitə sədri ölkələrimiz arasında siyasi, ticarət-iqtisadi, humanitar və digər sahələrdə yüksələn xətt üzrə inkişaf edən əlaqələrdən söz açıb. O bildirib ki, İsrail Prezidentinin bu yaxınlarda Azərbaycana səfəri, Azərbaycan Prezidenti ilə görüşü əməkdaşlığımızın inkişafına yeni impulslar verib. Həmçinin Azərbaycanın İsraildə səfirliyinin açılması ölkələrimiz arasında münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldırır.

Görüşdə Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Anatoliy Rafailov, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri Asim Mollazadə, Rasim Musabəyov, Sevinc Fətəliyeva, Nigar Arpadarai xalqlarımızın səmimi dostluğundan, ticari-iqtisadi əlaqələrdən söz acıblar, yəhudilərin ölkəmizdə qardaşlıq münasibətində yaşadıqlarını vurğulayıblar. Bu əməkdaşlığın inkişaf etdirilməsi və parlamentlərarası əlaqələrin möhkəmləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

Sonra görüşdə İsrail Knessetinin Xarici əlaqələr və müdafiə komitəsinin sədri Yuli Yoel Edelşteyn ölkəmizə səfəri ilə bağlı təəssüratlarını bölüşüb. O, ölkələrimizin dostluğundan söhbət açıb. Qonaq parlamentlərarası münasibətlərin gücləndirilməsi, dostluq qrupları arasında əlaqələrin inkişafı ilə bağlı fikirlərini bölüşüb.

Görüşdə Knessetin Xarici əlaqələr və müdafiə komitəsinin diplomatik məsələlər üzrə başçısı Sara Zvebner, Xarici əlaqələr və müdafiə komitəsinin üzvü Ram Ben Barak, İsrailin ölkəmizdəki səfiri Corc Dik və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

## Azərbaycan ilk dəfə olaraq NATO Hərbi Komitəsinin enerji təhlükəsizliyi mövzusunda iclasına dəvət alıb

İyunun 5-də NATO-nun Brüsseldə yerləşən mənzil-qərargahında alyansın ən yüksək hərbi strukturu olan Hərbi Komitə çərçivəsində ilk dəfə enerji təhlükəsizliyi üzrə tərəfdaşlarla birgə genişləndirilmiş formatda görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı təmsil edən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü, fəlsəfə doktoru Esmira Cəfərova ölkəmizin uğurlu enerji siyasəti, habelə qlobal və regional müstəvidə enerji təhlükəsizliyinə töhfələri barədə təqdimatla çıxış edib. Azərbaycan təmsilçisi NATO mənzil-qərargahına səfəri çərçivəsində həmçinin NATO Beynəlxalq Katibliyinin İqlim və enerji təhlükəsizliyi bölməsi və NATO-nun Vilnüsdə yerləşən Enerji Təhlükəsizliyi üzrə Mükəmməllik Mərkəzinin rəhbərliyi ilə ikitərəfli görüşlər keçirib.

Müzakirələr zamanı E.Cəfərova Azərbaycanı qlobal enerji təhlükəsizliyində etibarlı tərəfdaşa çevirmiş uzaqgörən enerji strategiyası, "Cənub qaz dəhlizi"nin Avropanın enerji təhlükəsizliyində oynadığı əhəmiyyətli rol, ölkəmizin bərpaolunan enerji mənbələri kontekstində təqdim edə biləcəyi imkanlar və perspektiv layihələr barədə müttəfiq və tərəfdaş dövlətlərə məlumat verib.

NATO-ya üzv dövlətlərin nümayəndələri Azərbaycanın alyansın etibarlı və vacib tərəfdaşı olduğunu vurğulayıblar. Həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı müsbət rol yüksək dəyərləndirilib, görülmüş işlər və gələcək layihələrin əhəmiyyəti qeyd edilib.

## Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı İtaliyada beynəlxalq müdafiə sərgisinin açılış mərasimində iştirak edib



Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Sübhan Bəkirov İtaliya Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı admiral Enriko Kredendinonun dəvəti ilə bu ölkəyə səfər edib.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Bildirilib ki, La Spezia Hərbi Dəniz Bazasında keçirilən 8-ci "Seafuture 2023" Beynəlxalq Dəniz Müdafiəsi sərgisinin açılış mərasimində iştirak edən vitse-admiral S.Bəkirov İtaliyanın müdafiə naziri Guido Crosetto ilə görüşüb, qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, beynəlxalq dəniz müdafiəsi sərgisi 25 ölkənin hərbi dəniz qüvvələrinin komandanı, 36 ölkənin nümayəndə heyəti və müxtəlif aparıcı müdafiə sənayesi şirkətlərinin rəhbərlərinin iştirakı ilə keçirilir.

# Diplomatlar üçün "Xarici Siyasət Proqramı" başa çatıb

İyunun 5-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə həyata keçirilən Gənc Diplomatlar üçün "Xarici Siyasət Proqramı"nın məzun günü keçirilib.









AZƏRTAC xəbər verir ki, məzun günündə xarici işlər naziri Ceyhun Bayramov, ADA Universitetinin rektoru səfir Hafiz Paşayev, XİN-in struktur bölmə rəhbərləri və gənc diplomatlar iştirak ediblər.

Tədbirdə salamlama nitqi ilə çıxış edən ADA Universitetinin prorektoru, İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə 8 ay müddətində baş tutan "Xarici Siyasət Proqramı"nın yekunlaşması münasibətilə proqram iştirakçılarını təbrik edib, onlara diplomatik fəaliyyətlərində uğurlar arzulayıb.

ADA Universitetinin prorektorunun müşaviri, İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyeva və Xarici İşlər Nazirliyinin Kadrlar idarəsinin rəisi Raman Məmmədov çıxışlarında 2022-ci il oktyabrın 10-dan 2023-cü il mayın 20-dək həyata keçirilən "Xarici Siyasət Proqramı"nın məzmunu, müxtəlif sahələr üzrə təşkil olunmuş təlimlər və səfərlər haqqında ətraflı məlumat veriblər. Proqramın məzmununun bundan sonra da təkmilləşdirilməsi istiqamətində addımların davam etdiriləcəyi diqqətə çatdırılıb.

Sonra "Xarici Siyasət Proqramı"nın hesabat videoçarxı nümayiş etdirilib.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov çoxmərhələli imtahan prosesi nəticəsində diplomatik xidmətə qəbul olunmuş gənc diplomatları "Xarici Siyasət Proqramı"nın məzunu olmaları münasibətilə təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb. Hazırkı dövrdə transformasiyaya uğrayan beynəlxalq münasibətlər sistemində ölkəmizin milli maraqlarına əsaslanan Prezident İlham Əliyevin müəyyən etdiyi xarici siyasət kursunun irəlilədilməsində diplomatların üzərinə mühüm vəzifələrin düşdüyü qeyd olunub. Nazir Ceyhun Bayramov bu istiqamətdə çağırışların öhdəsindən gəlmək üçün diplomatların bilik və bacarıqlarının artırılmasının vacibliyini vurğulayıb.

Tədbirdə çıxış edən və öz diplomatik təcrübəsini iştirakçılarla bölüşən ADA Universitetinin rektoru professor Hafiz Paşayev gənc diplomatlara fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra gənc diplomatlar "Xarici Siyasət Proqramı" haqqında fikir və təəssüratlarını bölüşüb, təşkilatçılara təşəkkürlərini bildiriblər.

Sonda gənc diplomatlara sertifikatlar təqdim olunub.

# AŞ PA-nın həmməruzəçiləri bölgədəki mövcud vəziyyət barədə məlumatlandırılıblar



İyunun 5-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Monitorinq Komitəsinin həmməruzəçiləri Yan Lidel-Qreynger və Liz Kristofersen ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə tərəflər arasında Azərbaycanın və AŞ PA-nın əməkdaşlıq gündəliyində duran məsələlər, gələcək perspektivlər, o cümlədən regionda mövcud cari vəziyyət və AŞ PA Parlament Assambleyasının Azərbaycan-Ermənistan arasında normallaşma prosesinə mümkün töhfələri ətrafında müzakirə aparılıb.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə bölgədəki mövcud vəziyyət, Azərbaycan tərəfindən aparılan genişmiqyaslı bərpa və quruculuq layihələrindən söz açaraq Ermənistanın təxribatlarına və prosesləri ləngitmək səylərinə baxmayaraq bölgədə sülhün və sabitliyin təmini istiqamətində, o cümlədən sülh müqaviləsinin imzalanması, bütün kommunikasiyaların açılışı və digər məsələlərdə ölkəmiz tərəfindən atılan mühüm addımlardan bəhs edib. Həmçinin görüşdə işğaldan azad edilmiş ərazilərdə mövcud mina təhlükəsi, bu xüsusda 10 noyabr üçtərəfli Bəyanatından irəli gələrək Ermənistan tərəfindən öhdəliklərin yerinə yetirilməməsi kimi məsələlərə toxunulub.

AŞ PA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri ölkəmizə səfər çərçivəsində Ağdam rayonuna səfər etdiklərini və Azərbaycan tərəfindən aparılan genişmiqyaslı yenidənqurma işləri ilə yaxından tanış olduqlarını bildiriblər. Regionda sülh və təhlükəsizliyin təmin olunmasının vacibliyi vurğulanıb.

Görüşdə eyni zamanda beynəlxalq və regional məsələlər üzrə qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclisdə həmməruzəçilərlə görüş



İyunun 5-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AS PA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə regiondakı mövcud vəziyyət barədə danışan Səməd Seyidov bildirib ki, Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra erməni qəsbkarlarının işğalından azad edilmiş ərazilərin yenidən bərpası, məcburi köçkünlərimizin öz doğma yurdlarına qayıtması üçün irimiqyaslı layihələr həyata keçirir. Komitə sədri diqqətə çatdırıb ki, Ermənistan tərəfindən həyata keçirilmiş kütləvi minalama yenidənqurma işlərinə əngəl törədir. O, məcburi köçkünlərin təhlükəsiz qayıdışını və minatəmizləmə prosesini dəstəkləmək üçün beynəlxalq əməkdaşlığın və yardımın səfərbər edilməsinin əhəmiyyətini vurğulayıb.

Səməd Seyidov Azərbaycanın bölgədə uzunmüddətli sülh və sabitliyin təmin olunmasına yönələn səyləri və əməli addımları, müvafiq etimad quruculuğu tədbirləri barədə həmməruzəçilərə məlumat verib.

Görüşdə deputatlar Asim Mollazadə, Əziz Ələkbərov, Erkin Qədirli, Kamal Cəfərov, Sevinc Fətəliyeva və Nigar Arpadarai bölgədə etimad mühitinin yaradılması, dayanıqlı sülhə və təhlükəsizliyə nail olmaq üçün Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının önəmindən söz açıblar.

AS PA-nın Monitorinq Komitəsinin həmməruzəçisi Yan Lidel-Qreynger (Birləşmiş Krallıq) və Liz Kristofersen (Norveç) Azərbaycana səfərləri və keçirilən görüşləri barədə danışıblar. Onlar regional əməkdaşlığın inkişaf etdirilməsi, sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi ilə bağlı onları maraqlandıran məsələlər barədə suallarını ünvanlayıblar.

Deputatlar həmməruzəçiləri maraqlandıran məsələlərə aydınlıq gətirərək onların suallarını cavablandırıblar. Diqqətə çatdırılıb ki, Azərbaycan tərəfinin Ermənistana təklif etdiyi sülh beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır. Qonaqlara azərbaycanlıların Ermənistandan qovulması və deportasiyası barədə məlumat verilib, onların hüquqlarının təmin edilməsinə beynəlxalq dəstəyin göstərilməsinin vacibliyi vurğulanıb.

Görüşdə Milli Məclisin deputatı Pərvin Kərimzadə, Avropa Şurasının Bakı ofisinin rəhbəri Petr Zix və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Baş prokuror AŞ PA-nın həmməruzəçiləri ilə görüşüb



İyunun 5-də baş prokuror ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçiləri Yan Lidel-Qreynger və Liz Kristofersen ilə görüşüb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qonaqları salamlayan Kamran Əliyev Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək, insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində Avropa Şurasının qabaqcıl təcrübəsinin öyrənilməsinin önəmli olduğunu qeyd edib. Baş prokuror dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar, o cümlədən 2020-ci ilin iyununda təsdiq olunmuş yeni strukturda yer almış cinayət təqibindən kənar icraatlar, əmlakların bərpası və xidməti araşdırmalar üzrə fəaliyyət istiqamətləri barədə qonaqları məlumatlandırıb.

Ölkəmizə səfərlərindən məmnunluqlarını ifadə edən AŞ PA-nın həmməruzəçiləri Azərbaycanın hüquq sistemində aparılan islahatları müsbət qiymətləndirdiklərini vurğulayaraq, Avropa Şurası ilə ölkəmizin müvafiq qurumları ilə əlaqələrin inkişafında və qarşılıqlı əməkdaşlıqda maraqlı olduqlarını bildirib.

Tərəflər arasında Avropa İnsan Hüquqları Məhkəməsinin Azərbaycanla bağlı qərarlarının icra vəziyyəti müzakirə edilərək, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

Görüşdə Avropa Şurasının Bakı ofisinin rəhbəri Petr Zix və Milli Məclisin deputatı Kamal Cəfərov iştirak ediblər.

# DİN ilə Avropa Şurası arasında sıx və işgüzar əməkdaşlıq əlaqələri mövcuddur



Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 5-də Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Monitorinq Komitəsinin həmməruzəçiləri Yan Lidel-Qreynger və xanım Liz Kristofersen ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, DİN ilə Avropa Şurası arasında sıx və işgüzar əməkdaşlıq əlaqələrinin mövcudluğundan danışan nazir Vilayət Eyvazov bu əlaqələr çərçivəsində insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Qeyd edib ki, daxili işlər orqanları əməkdaşlarının peşəkarlığının daha da artırılması, beynəlxalq təcrübənin öyrənilməsi sahəsində görülən işlər sistemli şəkildə həyata keçirilir.

Polis orqanlarının müvəqqəti saxlama yerlərinin müasir standartlara uyğun təşkil edildiyi, hökumət, eləcə də qeyri-hökumət təşkilatlarından olan müşahidəçilərin müvəqqəti saxlama yerlərində sərbəst və məhdudiyyətsiz monitorinq keçirmələrinə lazımi şərait yaradıldığı diqqətə çatdırılıb.

Həmməruzəçilər insan hüquq və azadlıqlarının qorunması sahəsində görülən işlər barədə verdiyi əhatəli məlumata görə Vilayət Eyvazova minnətdarlıqlarını bildiriblər.

Görüşdə bir sıra digər məsələlər də müzakirə olunub, daxili işlər naziri qonaqları maraqlandıran sualları ətraflı cavablandırıb.

# Milli Məclisdə təmsil olunan siyasi partiyaların nümayəndələri AŞ PA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri ilə görüşüblər

İyunun 5-də Milli Məclisdə təmsil olunan siyasi partiyaların nümayəndələri AŞ PA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə AŞ PA-nın həmməruzəçiləri cənab Yan Lidel-Qreynger (Birləşmiş Krallıq), Liz Kristofersen (Norveç) və Monitorinq komitəsinin katibi Aynyaska Szklanna Azərbaycanda parlament və hökumətin fəaliyyəti, partiyaların mövcud durumu necə dəyərləndirməsi ilə maraqlanıblar.

Milli Məclisin deputatları - Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, YAP-ın Mərkəzi Aparatı ilə Milli Məclisdə təmsil olunan deputat qrupu arasında əlaqələndirici Hikmət Məmmədov, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev qonaqlara ölkənin siyasi sistemi, partiyaların parlamentdə təmsilçiliyi, parlament fəaliyyəti haqqında məlumat veriblər. Deputatlar Azərbaycanda fikir, söz və məlumat azadlığı, plüralizmin inkişaf etdirilməsi, parlamentdə təmsil olunan müxalifət partiyalarının qanunyaradıcılığı prosesində və parlament müzakirələrində iştirakı, gələcək planları barədə danışıblar.

Söhbət zamanı regiondakı vəziyyət, regional təhlükəsizlik, sülh quruculuğu prosesləri, işğaldan azad edilmiş ərazilərdə görülən bərpa işləri və tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Koreya Respublikasında beynəlxalq simpoziumda iştirak edib

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti Koreya Respublikası Konstitusiya Məhkəməsinin sədri Namseok Yoonun dəvəti ilə "Məhkəməyə əlçatanlıq: Konstitusiya perspektivləri" mövzusunda Asiya Konstitusiya Məhkəmələri və Ekvivalent İnstitutlar Assosiasiyasının çərçivəsində keçirilən beynəlxalq simpoziumda iştirak etmək üçün Seulda səfərdə olub.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Asiya ölkələrinin konstitusiya ədalət mühakiməsi orqanlarının nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş beynəlxalq tədbirdə ədalət mühakiməsinə fərdi əlçatanlıq imkanlarının təkmilləşdirilməsi, müasir texnologiyalardan istifadə və hüquqi yardım, konstitusiya nəzarəti orqanları tərəfindən təmin edilən qanun qarşısında bərabərlik prinsipi, ədalətli mühakimə hüququ, habelə konstitusiya məhkəmələrinə təqdim olunan şikayətlərin icraata qəbul edilməsinin hüquqi meyarları ilə bağlı ətraflı fikir mübadiləsi və müzakirələr aparılıb.

Tədbirlərdə Azərbaycan Respublikasının Koreya Respublikasındakı səfiri Ramin Həsənov da iştirak edib.

Səfər çərçivəsində Konstitusiya Məhkəməsi sədrinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanın Koreyadakı səfirliyi tərəfindən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi və 28 May - Müstəqillik Günü münasibətilə keçirilmiş tədbirə də qatılıb.



# 3,3 milyard manatlıq əlavə dəstək

## Qarabağ və Şərqi Zəngəzurun bərpası, ordumuzun hərbi gücünün artırılması dövlət büdcəsinin prioritetləridir

*Əvvəli 1-ci səh.*

Cari ilin dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 3 milyard manat vəsait nəzərdə tutulub. Böyük qayıdışa dair I Dövlət Proqramı ilə qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün 2 milyard 260 milyon manat əlavə vəsaitin cəlb edilməsinə zərurət yaradıb.

Beləliklə, dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzurun bərpası işlərinə 2023-cü il üzrə ümumilikdə 5 milyard 260 milyon manat vəsait ayrılacaq.

Xatırladaq ki, 2021-2022-ci illər ərzində Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən quruculuq bərpa işləri ilə əlaqədar dövlət büdcəsindən bütövlükdə 5 milyard manata yaxın vəsait ayrılıb.

Həmçinin 2022-ci ildə müdafiə və milli təhlükəsizlik sahəsinə 5 milyard 622,5 milyon manat məbləğində vəsait yönəldilib.

### Qısa vaxt ərzində mühüm nailiyyətlər

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasını təmin etmək məqsədilə, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi bu istiqamətdə görüləcək işlərlə bağlı mühüm yol xəritəsi olub.

Tədbirlər Planına əsasən, tərtib edilmiş planlar üzrə bərpa qrafikinə uyğun olaraq mərhələli formada inşa edilmiş evlərə ailələrin köçürülməsi planlaşdırılır.

Həmçinin 2025-ci ilədək 10270, 2026-cı ilədək isə 34500 ailənin köçürülməsi nəzərdə tutulur.

Vətən müharibəsindən ötən iki il yarım müddət ərzində Azərbaycan dövləti qayıdışı həyata keçirmək üçün işğaldan azad edilən ərazilərdə bərpa və quruculuq prosesləri ilə bağlı mühüm işlər həyata keçirib.

Hazırda bu ərazilərdə iki beynəlxalq hava limanı tikilərək istifadəyə verilib - Füzuli və Zəngilan hava limanları. Laçın Beynəlxalq Hava Limanının isə sürətli tikintisi aparılır. Qarabağ və Şərqi Zəngəzurda yol, enerji, su və digər kommunikasiya layihələri uğurla həyata keçirilir.

Bu istiqamətdə əldə olunan ən möhtəşəm uğur isə artıq Böyük qayıdışa start verilməsi, yüzlərlə keçmiş məcburi köçkün ailəsinin Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış kəndlərinə və Laçın şəhərinə qaytarılmasıdır.

"Ağıllı kənd" konsepsiyası ilə yenidən qurulmuş Ağalı kəndinə üç mərhələdə 86 ailə - 420 nəfər daimi məskunlaşma üçün köçürülüb. Ağalıya köçün dörd mərhələdə həyata keçirilməsi planlaşdırılıb.

Tərtərin Talış kəndinə isə bu il martın 16-da ilkin mərhələdə 20 məcburi köçkün ailəsi - 90 nəfər köçürülüb.

Cəmi 7-8 ay ərzində böyük hissəsi tamamilə yenidən qurulan Laçın şəhərinə ilk 20 ailə bu il mayın 27-də yerləşdirilib. Bu ayın sonuna qədər də bir çox ailələr Laçına qaytarılacaq. Ümumiyyətlə, birinci mərhələdə Laçında 4 minə yaxın insanın yaşayacağı proqnozlaşdırılır.

Bu il mayın 28-i Müstəqillik Günündə laçınlılarla doğma yurdlarında görüşən Prezident İlham Əliyev vurğuladı ki, azad edilmiş bütün ərazilərdə geniş quruculuq işləri aparılır: "Yəni bu, bir daha onu göstərir ki, biz - o torpaqların sahibləri gəlmişik qurmaq üçün, yaratmaq üçün".

### Əsas vəsait bu istiqamətlərə yönəldiləcək

Qarabağ və Şərqi Zəngəzuru azadlığına qovuşduran rəşadətli Azərbaycan Ordusunun hərbi qüdrətini artırmaq, onun arsenalını ən müasir silahlarla zənginləşdirmək, eyni zamanda torpaqlarımızın etibarlı müdafiəsinin təşkili istiqamətində də dövlətimiz mühüm işlər görür.

"Müharibədən sonrakı iki il yarım ərzində də ordu quruculuğu məsələlərinə çox böyük diqqət göstərilib. Tam əminliklə deyə bilərəm ki, bugünkü Azərbaycan Ordusu 2020-ci ildə zəfər çalmış eyni Azərbaycan Ordusundan qat-qat güclüdür. Ancaq, eyni zamanda, yenə də demək istəyirəm, biz hər bir vəziyyətə hər an hazır olmalıyıq", - deyən dövlət başçısı İlham Əliyev bildirib ki, ona görə bu sahədə - ordu quruculuğu və müdafiə potensialımızla bağlı olan bütün məsələlər əsas vəzifədir, bu vəzifə və Qarabağın, Şərqi Zəngəzurun bərpası vəzifəsi. Ona görə biz əsas vəsaiti bu istiqamətlərə yönəldəcəyik, lazım olan digər xərclər də aparılacaq.

Bütün bunlar isə bir daha göstərir ki, Azərbaycan dövləti gün keçdikcə həm hərbi qüdrətini artırır, həm də işğaldan azad edilən ərazilərdə sürətli quruculuq bərpa işləri həyata keçirərək Böyük qayıdışa addımbaaddım yaxınlaşır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Adil Əliyev fiziki məhdudiyyətli futbolçularla görüşüb



İyunun 5-də Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Azərbaycan-Türkiyə Amputant Futbol Klubları arasında keçirilən yoldaşlıq oyununun iştirakçıları ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iştirakçıları salamlayan Adil Əliyev bu oyunda dostluq, yoldaşlıq və qardaşlığın qazandığını vurğulayıb. Vitse-spiker Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə etdiyimiz zəfər və zəfərdən sonra Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma və bərpa işləri barədə türkiyəli qonaqlara məlumat verib. O, belə oyunların təşkilinin qazilərin və əlilliyi olan insanların cəmiyyətə inteqrasiyası üçün önəmli olduğunu və onların mənəvi durumlarına müsbət təsir göstərdiyini qeyd edib.

Adil Əliyev Türkiyə dövlətinin və Prezident Rəcəb Tayyib Ərdoğanın müharibə zamanı ölkəmizə verdiyi siyasi və mənəvi dəstəyini minnətdarlıqla qeyd edib. O, Rəcəb Tayyib Ərdoğanın növbəti dəfə Türkiyə prezidenti seçilməsini bütövlükdə türk dünyası üçün önəmli hadisə kimi qiymətləndirib.

Sonda Milli Məclis Sədrinin müavini Adil Əliyev qonaqları parlamentin inzibati binasının foyesində Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə yaradılmış "Zəfər guşəsi" ilə tanış edib.

***"Azərbaycan"***

# Müəllimlərin sertifikasiyadan keçirilməsi qaydaları təkmilləşdirilir

İyunun 5-də Milli Məclisin Elm və təhsil komitəsinin onlayn iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda 4 qanun layihəsi üçüncü oxunuşda müzakirə edilib.



Komitə sədri Bəxtiyar Əliyev müzakirəyə çıxarılan "Təhsil haqqında" qanunda, "Elm haqqında" qanunda, "Peşə təhsili haqqında" qanunda, həmçinin Əmək Məcəlləsində, "Məktəbəqədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ilə bağlı əvvəlki oxunuşlarda kifayət qədər məlumat verildiyini diqqətə çatdıraraq, sənədlərin plenar iclasda ikinci oxunuşda müzakirəsi zamanı səsləndirilən fikirlərə aydınlıq gətirib. Komitə sədri dəyişikliklərdə müəllimlərin sertifikasiyadan keçirilməsi, məktəbəqədər, ümumi və peşə təhsili müəssisələrində müasir standartlara uyğun təkmilləşdirmələrin, effektiv kadr siyasətinin tətbiq edilməsi, sosial müdafiəsi gücləndirilən müəllimlərin əhatə dairəsinin genişləndirilməsi kimi bəzi məqamlarla bağlı məlumat verib.

Komitə sədrinin müavini Musa Qasımlı, deputatlar Müşfiq Məmmədli, Ceyhun Məmmədov, Etibar Əliyev, Eldar Quliyev layihələrdə təklif olunan dəyişikliklərlə bağlı fikirlərini bildirib, qeydlərini səsləndiriblər.

Gündəlikdəki qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olunub.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# AŞ PA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri Ağdama səfər ediblər

Ölkəmizdə səfərdə olan AŞ PA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri Yan Lidel-Qreynger və Liz Kristofersen Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər ediblər.









Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, həmməruzəçilər Ermənistan silahlı qüvvələrinin Ağdamda törətdiyi vəhşiliklərlə, eləcə də şəhər işğaldan azad olunandan sonra Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti-quruculuq işləri ilə tanış olublar. Qonaqlara Ağdamın tarixi, indiki vəziyyəti, burada törədilən erməni vandalizmi, minalanmış ərazilər barədə məlumat verilib. Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən biri idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Erməni işğalçıları 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra şəhərdə və rayonun kəndlərində evləri, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb.

Ağdam şəhər Cümə məscidinə gələn AŞ PA-nın həmməruzəçilərinə ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələrimizi məhv etmələri barədə məlumat verilib. Qeyd edilib ki, Ağdam şəhəri işğaldan azad olunduqdan sonra Heydər Əliyev Fondu tərəfindən Cümə məscidində bərpa işlərinə başlanılıb.

Qonaqlar Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerləyeksan etdikləri binaların qalıqlarına da baxıblar. Ağdam Dram Teatrının qalıqları da bu küçədədir. Onlara ermənilərin mədəni irsimizə, o cümlədən Ağdam Dövlət Dram Teatrına vurduğu zərər barədə ətraflı məlumat verilib.

AŞ PA-nın həmməruzəçiləri Ağdam şəhərindəki Şəhidlər xiyabanında da erməni barbarlığının şahidi olublar. Məlumat verilib ki, burada Birinci Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib. Ağdamda hər şeyi məhv edən erməni vandalları Şəhidlər xiyabanındakı qəbirləri də qazaraq dağıdıblar.

Prezidentin xüsusi nümayəndəliyinin Ağdamdakı qərargahında olan qonaqlara Ağdam şəhərinin baş planı çərçivəsində həyata keçiriləcək quruculuq işləri barədə ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, Qafqazın Xirosiması kimi tanınan Ağdam Azərbaycan Prezidentinin təşəbbüsü ilə regionun ən gözəl şəhərlərindən birinə çevriləcək, doğma yurdlarından 30 il ayrı qalmış insanların bu torpaqlara təhlükəsiz şəraitdə qayıdışı təmin ediləcək.

AŞ PA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri sonda Ağdam Konfrans Mərkəzi ilə tanış olublar.

***"Azərbaycan"***

# Qərbi Azərbaycan İcması UNESCO ilə predmetli dialoq çərçivəsində konkret mövzuları təşkilat rəhbərliyinə təqdim edib

Xəbər verdiyimiz kimi, Qərbi Azərbaycan İcmasının müraciətinə cavab olaraq, UNESCO-nun indiki Ermənistan ərazisindəki Azərbaycan mədəni irsinin qorunması məsələsinin təşkilatın mandatına daxil olduğunu təsdiqləməsi ilə bu sahədə İcma və UNESCO arasında dialoq başlayıb.

İcmadan AZƏRTAC-a bildiriblər ki, bu müstəvidə icma dialoq tərəfdaşı kimi UNESCO qarşısında bir neçə konkret məsələ qaldırıb.

İcma indiki Ermənistan ərazisində Azərbaycan mədəni irsinin vəziyyətinin qiymətləndirilməsi üçün Ermənistana faktaraşdırıcı missiyanın göndərilməsi məsələsini bir daha qaldırıb, Ermənistan hökumətinin İrəvan şəhərinin Təpəbaşı məhəlləsini dağıtması ilə əlaqədar bu məsələnin xüsusilə aktual və təcili xarakter aldığını bildirib.

Qeyd edək ki, Ermənistanda salamat qalmış azsaylı Azərbaycan irsi nümunələrindən olan bu məhəllənin dağıdılması ilə tariximizin, mədəniyyətimizin əhəmiyyətli bir hissəsi dönməz şəkildə yer üzündən silinmiş olacaq.

"Bundan əlavə, davamlı inkişaf və sülhün mənbəyi kimi mədəni irsin qorunması yanaşmasını bölüşən təşkilatımız bu sahədə icmalara böyük rol tanıyan müvafiq beynəlxalq konvensiyalarda da nəzərdə tutulduğu kimi, qabiliyyət quruculuğu sahəsində UNESCO-nun praktik yardımlarını xahiş edib. Beynəlxalq hüququn norma və prinsiplərinə tam hörmət edən icma olaraq, biz potensialın artırılması sahəsində UNESCO-nun proqramlarından faydalanmaqla mədəni irsin qorunmasına daha artıq töhfə verəcəyimizə inanırıq.

Nəhayət, biz UNESCO rəhbərliyindən mədəni irsimiz ilə bağlı üzv dövlətləri məlumatlandırmağı və bu məsələni UNESCO-nun müvafiq hesabatlarına daxil etməyi xahiş etmişik. Biz hesab edirik ki, UNESCO strukturlarının Ermənistandakı Azərbaycan mədəni irsinin vəziyyəti ilə bağlı beynəlxalq məlumatlılığı artırması üzv dövlətləri sözügedən irsin qorunması istiqamətində və ən əsası, Ermənistanı destruktiv addımlardan çəkindirmək üçün effektiv addımlar atmağa təşviq edər", - deyə məlumatda qeyd olunub.



# "Türkiyə yüzilliyi" başlayır

## Prezident Rəcəb Tayyib Ərdoğan andiçmə mərasimində qardaş ölkə üçün yeni yüksəliş dövrünün qapılarının açıldığını bəyan etdi

Ötən həftə qardaş Türkiyə Cümhuriyyətində daha bir tarixi hadisə yaşandı. Mayın 28-də bu ölkədə keçirilən prezident seçkilərinin ikinci turunda 52,18 faiz səs toplayaraq qalib gələn Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimi keçirildi.

21 dövlət başçısı, 13 Baş nazir və bir sıra nazirlə yanaşı, aralarında Türk Dövlətləri Təşkilatı, NATO və İslam Əməkdaşlıq Təşkilatı da olmaqla, beynəlxalq təşkilatların rəhbərlərinin, nümayəndələrinin qatıldığı mərasimdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da iştirak ediblər.

### Millətin iradəsini əks etdirən seçkilər

Rəcəb Tayyib Ərdoğan andiçmə mərasimindən sonra Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün mavzoleyinin olduğu Anıtqəbri ziyarət edərək buradakı xatirə dəftərinə ürək sözlərini yazıb: "'Qarşıdakı 5 il ərzində "Türkiyə yüz ili" baxışımızı həyata keçirmək üçün çalışmağa davam edəcəyik".

Daha sonra Prezident İqamətgahına gedən Rəcəb Tayyib Ərdoğan səlahiyyətlərinin icrasına başlama mərasimində çıxışında deyib ki, Türkiyənin inkişafı üçün səylərimizi davam etdirəcəyik. Siyasi baxışlarından, mənşəyindən, məzhəbindən asılı olmayaraq, 85 milyon insanın hamısını qucaqlayacağıq. Birliyə və bərabərliyə hər zamankından daha çox ehtiyacımız var. Rəcəb Tayyib Ərdoğan yenidən Prezident vəzifəsinə seçilməsi üçün ona etimad göstərən seçicilərə minnətdarlığını bildirib və mayın 28-də keçirilmiş seçkilərin millətin iradəsini əks etdirdiyini vurğulayıb.

Mərasimdə "Türkiyə yüzilliyi"nin başlandığını və ölkənin sıçrayış mərhələsinin qapılarının açıldığını vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan siyasi və dini baxışlarından, etnik mənsubiyyətindən asılı olmayaraq, əhalinin etimadını boşa çıxarmamaq üçün səylə çalışacaqlarını bəyan edib. Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümündə sarsılmaz həmrəyliyə daha böyük ehtiyac duyulduğunu diqqətə çatdıran dövlət başçısı yeni hökumətlə birlikdə "Türkiyə yüzilliyi" istiqamətində səylə çalışacaqlarını söyləyib: "Bu gün bir olmaq, bərabər olmaq, minillik qardaşlığımızı daha da möhkəmləndirmək günüdür. Övladlarımızın aydın sabahlarına sahib çıxmaq günüdür. Hamımız birlikdə "Türkiyə yüzilliyi"nin inşası üçün çiyin-çiynə çalışmalıyıq".

### Son 20 ildə Türkiyə sürətli inkişaf yolu keçib

Bu bir həqiqətdir ki, Türkiyə son 20 ildə bütün sahələrdə böyük inkişaf yolu keçib. Rəcəb Tayyib Ərdoğanın liderliyi altında Türkiyənin keçdiyi inkişaf yoluna nəzər salsaq görərik ki, Rəcəb Tayyib Ərdoğan hakimiyyətə gələnə qədər Türkiyənin istehlak bazarı xarici istehsaldan asılı idi. Bu isə xarici dövlətlərin Türkiyə bazarını nəzarətdə saxlamasına və onun siyasi mühitinə təsir göstərməsinə imkan verirdi. Türkiyənin ixracatı təxminən 36 milyard dollar idisə, bu gün həmin rəqəm 254 milyard dollara yüksəlib.

Son illərdə hərbi sənayesi sürətlə inkişaf edən və yeni nəsil silahlar, PUA-lar istehsal edən qardaş ölkənin silah ixracı 2 milyard dollardan artıqdır. Türkiyənin müdafiə sənayesi şirkətləri bu ilin may ayında 554,4 milyon dollarlıq məhsul ixrac edib. 2023-cü ilin ilk beş ayında müdafiə sənayesinin ümumi ixracı 2 milyard dolları keçib. Əlavə edək ki, Türkiyə 2022-ci ildə rekord məbləğdə - 4 milyard dollardan çox silah satıb. Hökumət bu il ixracat həcmini 6 milyard dollara çatdırmağı hədəfləyir.

### Qardaşlığın bariz təcəssümü

Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, növbəti beş il ərzində Türkiyə Respublikasının şanını və şərəfini qorumaq, etibarını artırmaq və adını dünyada daha da ucaltmaq üçün var gücü ilə çalışacaq: "Türkiyə indi yeni bir yola qədəm qoydu. Allahın izni ilə türk əsri başladı, ölkəmizin yeni yüksəliş dövrünün qapıları açıldı" .

İnaqurasiyada bir neçə vacib məqam diqqət çəkib. Belə ki, mərasim zalına daxil olan Rəcəb Tayyib Ərdoğan ön cərgədə əyləşən qonaqlarla görüşərək öz təşəkkürünü ifadə edib. Prezident İlham Əliyevlə görüşərkən liderlərin bir-birinə sarılaraq qucaqlaşması isə zalda alqışlarla qarşılanıb. Bununla da iki qardaş Prezident bir daha dünyaya sarsılmaz birliyin nümunəsini nümayiş etdirdilər. Rəcəb Tayyib Ərdoğan çıxışı zamanı da bunu bir daha sübut etdi. Onun "Dəyərli qardaşım, Azərbaycan Prezidenti xoş gəldin, təşəkkür edirəm", - söyləməsi deyilənlərin bariz təcəssümüdür.

Qeyd edək ki, Türkiyədəki seçkilərdən sonra müxtəlif ölkələrin liderləri Ərdoğanı təbrik etdilər. Onu ilk təbrik edən lider isə İlham Əliyev oldu. Prezident bu qələbəni Türkiyə xalqının Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi siyasətə göstərdiyi etimad kimi dəyələndirdi. Dövlət başçısı əmin olduğunu bildirdi ki, Ərdoğanın liderliyi ilə növbəti illərdə də Türkiyənin hərtərəfli inkişafı davam etdiriləcək. Ardınca İlham Əliyev qardaşına təbrik məktubu göndərib. Məktubda deyilir ki, son iyirmi il ərzində qardaş Türkiyə Respublikası məhz Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində böyük və şərəfli inkişaf yolu keçərək beynəlxalq aləmdə proseslərə həlledici təsir göstərən güc mərkəzinə çevrilib, söz sahibi olub, siyasi, iqtisadi, sənaye, hərbi, yeni texnologiyalar və digər sahələrdə mühüm nailiyyətlər əldə edib: "Sizin tarixi missiyanızın əsas qayəsini təşkil edən qüdrətli və nüfuzlu Türkiyə Respublikasının uğurları qardaş ölkə olaraq bizi də olduqca qürurlandırır".

### Ermənistanın hər zamankı yeri...

Digər bir məqam isə Ermənistan rəhbərliyinin andiçmə mərasiminə dəvət edilməsi olub. Bu, Ermənistan tarixində bir ilk olsa da, amma ən mühümü odur ki, məhz bu məclisdə də Hayastana Türkiyə üçün hansı yerdə qərarlaşdığı bir daha göstərilib. Ermənistanın baş naziri Nikol Paşinyana məhz ön cərgədə əyləşən İlham Əliyevin arxasında yer verilməsi subliminal mesaj kimi qəbul edilməlidir. Bununla qardaş ölkə bir daha dünyaya mesaj verdi ki, bütün məsələlərdə Azərbaycanla Türkiyənin dostluq-qardaşlıq münasibətləri sarsılmazdır və zaman keçdikcə daha da möhkəmlənəcəkdir.

Bir sözlə, əminliklə deyə bilərik ki, İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan qardaşlığı Türkiyə-Azərbaycanın dostluğunu, birliyini, starateji tərəfdaşlığını daha da möhkəmləndirib və qarşıdakı illərdə də bu birlik dünyaya nümunə kimi göstəriləcək. Azərbaycanla Türkiyə hər zaman bir-birinin yanındadır. Eyni zamanda Azərbaycan və Türkiyə birliyi Cənubi Qafqazda çox güclü amildir. Azərbaycan və Türkiyə dövlətlərinin, xalqlarının bu cür dostluğu, qardaşlıq əlaqələri digər türkdilli dövlətlərin də birləşməsinə böyük örnəkdir. Əminliklə deyə bilərik ki, İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın dostluq, qardaşlıq əlaqələri, iki ölkə arasındakı sıx münasibətlər türk dövlətlərinin birliyini daha da gücləndirəcək.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Türkiyə yeni və möhtəşəm mərhələyə qədəm qoydu

## Azərbaycan lideri Bakı-Ankara qardaşlığının növbəti qızıl səhifəsini yazdı





Mayın 28-də Türkiyədə prezident seçkilərinin ikinci turunda 52,18 faiz səs toplayaraq qələbə qazanan Rəcəb Tayyib Ərdoğanın iyunun 3-də Ankarada səlahiyyətlərinin icrasına başlaması mərasimi keçirildi. Mərasimdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da iştirak etdilər.

Mərasimdə çıxış edən Rəcəb Tayyib Ərdoğan yenidən Prezident vəzifəsinə seçilməsi üçün ona etimad göstərən seçicilərə minnətdarlığını bildirib və bəyan edib ki, "Türkiyə yüzilliyi" başlayır. Prezident siyasi və dini baxışlarından, etnik mənsubiyyətindən asılı olmayaraq, 85 milyonluq əhalinin etimadını boşa çıxarmamaq üçün səylə çalışacaqlarını bəyan edib.

Milli Məclisin deputatları Prezident İlham Əliyevin qardaş ölkəyə səfəri, mötəbər tədbirdə iştirakı ilə bağlı fikirlərini qəzetimizin əməkdaşı ilə bölüşüblər.

### Səmimiyyətin, ehtiramın və hörmətin bariz təcəssümü

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu bildirdi ki, Rəcəb Tayyib Ərdoğanın inaqurasiya mərasiminə 78 ölkənin yüksəksəviyyəli nümayəndəsi qatılıb: "Mərasimdə iştirak edən 21 ölkə rəhbəri arasında Prezident İlham Əliyev də var idi. Tədbirdə 13 ölkənin Baş naziri və digər statuslu şəxslər, beynəlxalq təşkilatların nümayəndələri iştirak edirdilər. Azərbaycan Prezidentinin tədbirdə iştirak edən qonaqlar arasında xüsusi hörmətə və statusa malik olduğu aydın müşahidə olundu. Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasiminə qatılan dövlət başçımız və xanımı, Türkiyə Prezidenti və xanımı tərəfindən böyük ehtiramla qarşılandı. Ünsiyyət zamanı yüksək səmimiyyətin, ehtiramın, hörmətin olduğunu gördük".

Deputat dedi ki, dünya bir daha Azərbaycanla Türkiyənin nə dərəcədə yaxın, mehriban olduğunu, müttəfiqliyini gördü. Rəcəb Tayyib Ərdoğanın növbəti dəfə prezident seçilməsi Azərbaycan-Türkiyə münasibətləri üçün olduqca əhəmiyyətlidir. İki ölkə arasında əlaqələr, məhz Ərdoğan iqtidarı dövründə inkişafının ən yüksək səviyyəsinə çatıb. 2021-ci ilin iyun ayında Türkiyə-Azərbaycan arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb.

E.Mirbəşiroğlu vurğuladı ki, Ərdoğanın hakimiyyəti dövründə Azərbaycanla Türkiyə bütün istiqamətlərdə, eyni zamanda strateji sahələrdə geniş əməkdaşlıq sistemini qurmağı bacarıb. "2007-ci ildən başlayaraq iki ölkə arasında yüksəksəviyyəli hərbi məsləhətləşmələr həyata keçirilir. Hərbi-texniki əməkdaşlıqla yanaşı, digər mühüm istiqamətlərdə də əlaqələr olduqca dinamik inkişaf edib. Hesab edirəm ki, növbəti dövrdə Azərbaycanla Türkiyə arasında münasibətlər daha da dərinləşəcək", - deyə deputat əlavə edib. O deyib ki, qardaş Türkiyə 44 günlük Vətən müharibəsi dövründə ölkəmizə yaxından siyasi və mənəvi dəstək olub. Həm Rəcəb Tayyib Ərdoğan, həm də onun komanda üzvləri hər zaman bəyan etdilər ki, bütün hallarda Azərbaycanın yanındayıq. Bu yalnız sözdə deyil, əməldə də müşahidə edilib.

Elşad Mirbəşiroğlunun fikrincə, Prezident İlham Əliyevin Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimində iştirak etmək üçün Türkiyəyə işgüzar səfəri olduqca əhəmiyyətlidir və bu, həm də bütün dünyaya subliminal mesaj idi ki, Azərbaycanla Türkiyə səmimi dost, müttəfiq ölkələrdir.

### İlham Əliyevin Ankaraya səfəri Azərbaycan-Türkiyə milli iradəsinin triumfu hesab edilməlidir

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov isə bildirib ki, Azərbaycan və Türkiyə dövlətləri heç bir zaman müasir dövrdəki qədər yaxın olmayıb. Eyni din, dil və milli köklərimiz bizim yaxınlığımızda müstəsna rol oynayır, lakin eyni soydan olub ortaq dəyərləri bölüşmək heç də beynəlxalq subyektlərin yaxınlaşması üçün həlledici amil deyil.

Deputatın sözlərinə görə, müasir dövrdə eyni kökdən olan xalqlar arasında çoxsaylı münaqişələr nümunəsində bu amilin dövlətlərarası münasibətlərdə yerini və rolunu qiymətləndirmək çətin deyil: "Azərbaycan və Türkiyə dövlətləri arasında münasibətlərin yüksək səviyyəsinin təməlində ilk növbədə siyasi iradə dayanır. Sağlam və praqmatik formada əsası Ulu Öndər tərəfindən qoyulan Türkiyə-Azərbaycan münasibətləri bu gün liderlər, cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğan tərəfindən Şuşa Bəyannaməsinə qədər yüksəlib".

Deputat vurğulayıb ki, ən çətin dövrlərdə liderlərin sarsılmaz iradəsi Azərbaycan və Türkiyəni iki qonşu dövlətdən bir millət və bir yumruğa çevirib. Ən çətin anlarımızda, istər Vətən müharibəsi, istərsə də təbii fəlakətlər zamanı, mürəkkəb siyasi situasiyalarda liderlərin timsalında Azərbaycan və Türkiyə bir güc mərkəzi kimi çıxış edərək bölgədə sülhün, stabilliyin və təhlükəsizliyin qarantına çevrilib.

B.Məhərrəmov bildirib ki, Türkiyədə 2023-cü il prezident seçkiləri tarixi sınaq idi və Rəcəb Tayyib Ərdoğanın simasında milli iradənin qələbəsi yalnız Türkiyənin deyil, bütövlükdə türk dünyasının gələcəyi üçün ciddi önəm daşıyırdı.

Deputatın sözlərinə görə, qardaş dövlətin müstəqilliyinin, suverenliyinin, təhlükəsizliyinin növbəti dəfə zəmanət altına alınması, inkişaf yolunun yeni mərhələsinə qədəm qoyması prosesində Prezident Ərdoğanın sevincinə təbii ki, cənab İlham Əliyev də şərik olmalı idi: "Bu mənada Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlama mərasimində iştirak etmək üçün Ankaraya səfəri həm də Azərbaycan-Türkiyə milli iradəsinin triumfu hesab edilməlidir. Səfər özlüyündə başqa bir məqamı ilə hər bir azərbaycanlıya qürur yaşatdı. Bir çox liderin qatıldığı mərasimdə Azərbaycan Prezidentinə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya xüsusi həssas münasibət, diqqət və rəğbət ölkəmizin artan nüfuzunun əyani göstəricisi oldu".

Deputat əlavə edib ki, daim türk və türkçülük adı ilə sığortalanan, bu mövzunu istismar edib, lakin "sıfır" nəticə ilə gündəm olanlardan fərqli olaraq, Azərbaycan lideri qardaşlığın qızıl səhifəsini yazmaqdadır.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***



# Avropada enerji böhranı bitirmi?

## Aİ bu məsələdə Azərbaycan, Qətər, Misir, Əlcəzair, Norveç və Anqolaya arxalanır

Bu il Avropa enerji böhranının ən pis nəticələrindən qurtula bilib. Lakin ekspertlərin fikrincə, Çinin iqtisadi dirçəlişinin aktiv davam etməsi və artan mayeləşdirilmiş təbii qaz (MTQ) idxalı problemlərin hələ bitmədiyini göstərir. Ukraynada müharibənin davam etdiyi bir vaxtda avropalılar qaz ehtiyatlarını nəzərdən keçirib növbəti qışı narahatlıqla gözləyirlər.

Moskva qaz tədarükünü kəskin şəkildə azaltdıqdan sonra Aİ üzv ölkələri digər təchizatçılarla işləməyə, habelə müəssisələri və fiziki şəxsləri qənaət etməyə çağırmaqla enerji kəsilməsinin qarşısını almaq üçün səylərini ikiqat artırdı.

Parisdəki Siyasət Tədqiqatları İnstitutunun professoru və enerji məsələləri üzrə mütəxəssis Tyerri Bros qeyd edir ki, ötən qışın mülayim temperaturu xaotik ssenarinin qarşısını almağa kömək etsə də, narahatlıqlar hələ də davam edir: "Böhran hələ bitməyib, çünki enerji böhranını həll etmək üçün əlavə istehsala sərmayə qoymaq lazımdır. Avropa Komissiyası istehlakçılara artan hesabları ödəmək üçün subsidiyalar tətbiq etsə də, heç bir yeni layihəyə start verməyib".

Öz növbəsində, Enerji və Xammal Geosiyasəti Mərkəzinin direktoru Patris Jeffron qarşıdan gələn qışa daha sakit yanaşmağa imkan yarada bilən bir sıra amilləri qeyd edir: "Biz heyrətləndirici dövrdən çıxmışıq. Qazın qiyməti yenidən məqbul oldu, infrastruktur isə mayeləşdirilmiş təbii qazın idxalı üçün yeni terminallara uyğunlaşdırılmağa başladıldı".

### Alternativ tədarüklər və ehtiyatlar

Rusiya qazının azalan tədarükünün öhdəsindən gəlmək üçün Avropa Birliyi xüsusən də ABŞ-dən MTQ-nin idxalını əhəmiyyətli dərəcədə artırdı. IEEFA-nın məlumatına görə, 2022-ci ildə ABŞ-dən Aİ-yə tədarük əvvəlki illə müqayisədə 143 faiz artıb. Avropalılar həmçinin Qətər, Misir, Əlcəzair, Norveç, Azərbaycan və Anqola qazına arxalana bilərlər.

Rusiyaya gəlincə, o, hələ də kranları tam bağlamayıb: Avropanın qaz tələbatının təxminən 10 faizi hələ də Rusiya qazı hesabına ödənilir, onun yarısı MTQ-dir.

Mayeləşdirilmiş təbii qaz uğrunda yarış nəticəsində terminallara və tankerlərə ehtiyac kəskin şəkildə artıb. Bu qaz üçün heç bir anbarı olmayan Almaniya yanvar ayında 3 terminal açıb və dövlət maliyyəsi ilə milyardlarla avro hesabına daha 4 terminal tikməyi planlaşdırır.

Enerji qıtlığı riskini dərk edən avropalılar Brüsseldə müəyyən edilmiş və müddəti bir il uzadılmış qaz istehlakının 15 faiz azaldılması ilə bağlı öhdəliyə ümumilikdə riayət edirlər. "Eurostat" qeyd edir ki, ötən ilin avqust-noyabr aylarında Avropa İttifaqında təbii qaz istehlakı hətta hədəfi aşaraq, son beş ilin orta göstəricisi ilə müqayisədə 20 faizdən çox azalıb.

Qış mövsümünün sonunda, mart ayında çənlərin doldurulma səviyyəsi təxminən 55 faiz təşkil edib ki, bu da 2022-ci ilin eyni ayı ilə müqayisədə xeyli yüksəkdir. Mayın 30-na qədər Avropadakı çənlərin 68 faizi doldurulub. Bu isə həmin dövr üçün çox yüksək səviyyədir. Qaydalarda nəzərdə tutulduğu kimi, gələn qışa qədər ehtiyatlar 90 faizə çatdırılmalıdır.

### Aİ üçün təhdidlər: sərt qış və quraqlıq dövrü

Amma ümumi müsbət şərtlərə baxmayaraq, ekspertlər hələlik ən pis ssenarinin mümkünlüyünü istisna etmirlər.

Əsas potensial ağırlaşdırıcı amillər Rusiya qazının tədarükünün tamamilə dayandırılması, sərt qış mövsümü və şiddətli quraqlıq hesab olunur. Patris Jeffronun dediyinə əsasən, quraqlıq Avropada su ətrafında gərginlik yarada bilər ki, bu da həm hidroenergetika, həm də nüvə energetikasına təsir göstərəcək. Bu, qaz istehlakına dolayı təsir göstərəcək, çünki elektrik enerjisi istehsal etmək üçün anbarlardan daha çox qaz götürmək lazım gələcək.

Beynəlxalq Enerji Agentliyi Avropanın enerji təhlükəsizliyinə daha bir təhdidlə - Çində təbii qaza tələbatın artması ilə bağlı araşdırmalar aparıb. Nəzərə almaq vacibdir ki, 2022-ci ilə qədər Avropaya gedən mayeləşdirilmiş təbii qazın bir hissəsi əvvəlcə Çin üçün nəzərdə tutulmuşdu, lakin "sıfır COVID" siyasəti və daha zəif iqtisadi dinamika şəraitində ölkənin buna ehtiyacı olmadı. Bununla belə, həmin qazın bir hissəsinin gələcəkdə Çinə çatdırılması nəzərdə tutulur. Bu səbəbdən Avropa və Asiyada qaz tədarükü üçün rəqabət ola bilər. Rusiya isə guman ki, bu rəqabətdən yararlanmağa cəhd edəcək.

Bu gərginliklə üzləşən Avropa İttifaqı enerji müstəqilliyini gücləndirməyə çalışır. Onun məqsədlərinə 2030-cu ilə qədər kənd təsərrüfatı və sənaye tullantılarından biometan istehsalının ikiqat artırılması, həmçinin aşağı karbonlu hidrogenin işlənməsi daxildir.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***



# Danışıqların güclü və qalib tərəfi

## Azərbaycan Hayastanı yeni reallıqlarla hesablaşmağa məcbur edir

"Onlar cəmi 3-4 il bundan əvvəl "Qarabağ Ermənistandır" deyirdilər və hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilərlər. Hesab edirdilər ki, biz azərbaycanlılar bu vəziyyətlə barışacağıq. Mən isə deyirdim ki, yox, barışmayacağıq. Onlara da, onların havadarlarına da, onlara bu gün dəstək verənlərə də o vaxt deyirdim ki, biz heç vaxt barışmayacağıq. Həyat bir daha onu göstərdi ki, nə deyiriksə, onu da edirik".

Laçında evlərinə qayıdan vətəndaşlarla görüşdə bunu deyən Prezident İlham Əliyev bir daha Hayastanla aparılan danışıqlara toxundu. Dövlət başçısının sözləri də göstərir ki, Azərbaycan qətiyyətlə və təmkinlə bu məsələdə öz maraqlarını layiqincə təmin edir.

### Azərbaycan öz haqqını ləyaqətlə qorudu

Azərbaycanla Hayastan arasındakı danışıqların 30 ildən artıq bir tarixçəsi var. Olduqca qürurvericidir ki, bu danışıqların hələ Vətən müharibəsinə qədər olan mərhələsində Bakı öz maraqlarıı inamla təmin edib. Həm Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə, həm də 2003-cü ildən sonrakı dövrdə aparılan danışıqlar Ermənistanın və dünya erməniliyinin saxta iddialarının həyata vəsiqə almasına imkan verilməyib.

Məlumdur ki, Hayastan Vətən müharibəsinə qədər danışıqlar zamanı Laçın və Kəlbəcəri qaytarmaqdan imtina edirdi. Və həmin danışıqlar prosesi belə bir həqiqəti ortaya çıxardı ki, Hayastan, ümumiyyətlə, işğal altındakı Azərbaycan torpaqlarını azad etməkdən uzaq olub. Bu azmış ki, Azərbaycana bəzi siyasi mərkəzlərdən, beynəlxalq təşkilatlardan müxtəlif yollarla təzyiqlər də var idi və onlar respublikamızı işğalla barışmağa məcbur etmək istəyirdilər.

Lakin Azərbaycan bu dövrdə ləyaqətlə, mətinliklə öz maraqlarını qorudu, yalançı erməni iddialarının həyata keçirilməsinə, respublikamızın ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan vermədi. 44 günlük Vətən müharibəsində isə Azərbaycan ədaləti döyüş yolu ilə təmin etdi. "Mən hər zaman deyirdim ki, ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Bu gün müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində biz buna nail olmuşuq", - deyə Prezident İlham Əliyev bildirib.

### Haylar xam xəyallardan uzaqlaşmalı, reallığa uyğunlaşmalıdırlar

Torpaqlarımızın işğaldan azad edilməsindən ötən müddət ərzində Azərbaycanla Hayastan arasında münasibətlərin normallaşdırılması ilə bağlı bir neçə platformada müzakirələr aparılıb. Ən əsası odur ki, Moskvada, Soçidə, Praqada və Brüsseldə aparılan danışıqlarda Azərbaycan daim sülhə tərəfdar olduğunu göstərib, münasibətlərin normallaşdırılması istiqamətində konstruktiv təkliflər ortaya qoyub.

Lakin istər Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin, istərsə də Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə aparılan müzakirələrdə müəyyən razılaşmalar əldə olunsa da, Hayastan davamlı şəkildə imzaladığı bəyanatların, üzərinə götürdüyü öhdəliklərin ruhuna və məzmununa uyğun olmayan davranış ortaya qoyub. İrəvan üzdə sülh danışıqlarına tərəfdar olduğunu göstərsə də, prosesin ləngiməsi və ya dalana dirənməsi üçün müxtəlif spekulyasiyalara yol verib. Elə ötən ay Kəlbəcər istiqamətində baş verənlər də bunu təsdiq edir.

Lakin Hayastanın nə etməsindən, nə istəməsindən asılı olmayaraq Azərbaycan öz istədiyini edir, maraqlarını qətiyyətlə həyata keçirir. Bir müddət əvvəl Hayastanla sərhəddə sərhəd-buraxılış məntəqəsinin qoyulması da bunu təsdiq edir. Bu hadisə bir daha göstərir ki, haylar xam xəyallardan uzaqlaşmalı, reallığa uyğunlaşmalıdırlar. Reallığı isə Azərbaycan artıq təmin edir. İndi Hayastandan Azərbaycanın Qarabağ iqtisadi rayonuna bütün gediş-gəliş ölkəmizin müvafiq qurumlarının nəzarəti altındadır. Hay separatçıları bir daha gördülər Azərbaycan onların əməllərinə seyrçi qalmaq fikrində deyil. Bununla Azərbaycan Hayastanın danışıqlar prosesinə kölgə salmaq imkanlarını da məhdudlaşdırır, İrəvanın spekulyativ addımlarını, təxribatçı əməllərini neytrallaşdırır.

### Şərtləri Azərbaycan diktə edir və edəcək

Hazırda Azərbaycanla Hayastan arasında münasibətlərin normallaşdırılması və sülh sazişinin imzalanması üzrə danışıqlar davam edir. Son olaraq iyunun 1-də Kişineuda Azərbaycan Prezidenti İlham Əliyev, Hayastan baş naziri Nikol Paşinyan, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Almaniya Kansleri Olaf Şolts və Fransa prezidenti Emmanuel Makron arasında qeyri-rəsmi görüş keçirilib.

Beştərəfli qeyri-rəsmi görüş müsbət atmosferdə keçib və qərara alınıb ki, iyulun 21-də Brüsseldə üçtərəfli görüş keçirilsin və bu dövr ərzində də XİN başçıları Vaşinqtonda növbəti dəfə görüşəcəklər. Vaşinqtonda isə əsas danışıqlar sülh müqaviləsi ilə bağlı olacaq.

Onu da qeyd edək ki, Fransa və Almaniyanın budəfəki görüşdə iştirakı bütövlükdə qeyri-formal xarakter daşıyır. Əsas müzakirələr Şarl Mişelin vasitəçiliyi ilə üçtərəfli formatda aparılıb. Fransa prezidenti isə birtərəfli qaydada verdiyi açıqlamada yenə də xislətinə sadiq qalaraq tərəflərin mövqeyini təhrif edib. Fransa tərəfindən belə davranışın sərgilənməsi ilk hal deyil və bu, Azərbaycanla Hayastan arasında sülh prosesinə, bölgədə sülh və sabitliyə heç də müsbət töhfə vermir. Eyni zamanda bu bir daha göstərir ki, Fransanın danışıqlar prosesində iştirakı məqbul deyil.

Bir məsələni də qeyd edək ki, əgər Vətən müharibəsinə qədər respublikamız danışıqlarda ərazisi işğal altında olan, təzyiqlərə məruz qalan tərəf kimi çıxış edirdisə, artıq bu gün Azərbaycan müharibədə qalib gəlmiş, torpaqlarını azad etmiş, ərazi bütövlüyünü bərpa etmiş tərəfdir. Bu gün şərtləri Azərbaycan diktə edir və edəcək.

Vətən müharibəsindən sonra Azərbaycanın yaratdığı yeni reallıqlar regionun təhlükəsizliyinin yeganə təminatçısıdır. Hayastan nə qədər cidd-cəhdlə, müxtəlif manevrlərlə bu reallıqlardan yan keçməyə, tərs mütənasib davranış ortaya qoymağa, sabitliyin təmin olunmasına qarşı çıxmağa çalışsa da, yekunda Azərbaycanın istədiyi olacaq. 44 günlük müharibədə olduğu kimi! Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanla Hayastan arasında sülh müqaviləsi o halda mümkündür ki, onlar "Qarabağ Azərbaycandır!" desinlər. Buna isə çox qalmayıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan sülhün əldə olunmasına xidmət edən danışıqların tərəfdarıdır





İyunun 2-də Moskvada Azərbaycan, Rusiya və Hayastan baş nazirlərinin müavinlərinin üçtərəfli görüşü keçirilib. Bu görüş bir daha sübut edir ki, Azərbaycan sülhün əldə olunmasına təşəbbüs göstərilən bütün platformalarda danışıqların aparılmasına razıdır.

Görüşün əsas müzakirə mövzusu isə Azərbaycanla Ermənistan arasında kommunikasiya xətlərinin açılması və sərhədlərin müəyyənləşdirilməsi olub.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Deputatların sözlərinə görə, Hayastan nəinki regional əməkdaşlıqdan faydalanmaq, bütövlükdə regionda mövcud olmaq üçün Azərbaycanla hesablaşmağa məhkum olduğunu anlamalıdır.

### Bütün məsələlər Azərbaycanın istəyinə uyğun reallaşacaq

Milli Məclisin deputatı Azər Badamov deyib ki, Azərbaycan, Rusiya və Hayastan baş nazirlərinin müavinlərinin görüşünün təşkil edilməsi ondan əvvəl dövlət başçılarının Moskvada keçirilmiş görüşündə razılaşdırılmışdı: "Dövlət rəhbərlərinin Moskva görüşlərində baş nazir müavinlərinin müzakirə edəcəkləri məsələlər müəyyənləşdirilmişdi. Bu məsələlər əsasən kommunikasiyaların açılması və sərhədlərin delimitasiyası ilə bağlı idi. Kommunikasiyaların açılması məsələsinə Azərbaycanın Naxçıvanla Zəngəzur dəhlizi vasitəsilə birləşdirilməsi, o cümlədən Azərbaycan ərazisindən Hayastanın Rusiyaya yolunun açılması daxildir. Baş nazirlərin müavinlərinin görüşündə kommunikasiyaların açılması, nəzarət mexanizminin təşkili və sair məsələlər bir daha müzakirə edilib".

Deputat qeyd edib ki, Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxladığı 30 ildə saxta xəyallar qurub: "Müzəffər ordumuzun 44 gündə torpaqlarımızı işğaldan azad etməsi isə regionda yeni reallıq yaradıb, ermənilərin bütün saxta arzularını puç edib. Ona görə də ölkələrimiz arasında 30 ildə dərinləşmiş düşmənçilik sindromunu bir gündə aradan qaldırmaq çətindir. Azərbaycan qalib tərəf olduğundan ölkəmiz köhnə səhifəni bağlamağı və dövlətlərarası münasibətlərə yeni səhifədən başlamağı təklif edir. Lakin haylar üçün yeni səhifə açmaq çətin görünür".

Azər Badamov vurğulayıb ki, Azərbaycan erməniləri yeni səhifədən başlamağa məcbur edəcək: "Nəzərə almaq lazımdır ki, Laçın yolunun Hayastana birləşən hissəsində sərhəd-buraxılış məntəqəsinin qurulması da ermənilər üçün mümkünsüz görünürdü. Lakin bunu reallaşdırdıq. Qarabağa gəlib-gedən ermənilər məntəqədə artıq sıraya düzülür və pasport təqdim etməklə sərhədi keçirlər".

Deputatın sözlərinə görə, bir müddətdən sonra Xankəndidə Azərbaycan bayrağı dalğalanacaq və orada yaşayan erməniəsilli sakinlər Azərbaycan pasportu almaq üçün xahiş edəcəklər. Münasibətlərin normallaşdırılması üçün, sadəcə, zamana ehtiyac var. Zamanla bütün məsələlər Azərbaycanın istəyinə uyğun reallaşacaq. Moskvada keçirilən görüş də münasibətlərin normallaşmasına xidmət edən danışıqlar prosesinin davamı kimi müsbət qiymətləndirilməlidir.

### Zəngəzur dəhlizi ilə bağlı anlaşma İlham Əliyevin növbəti inamlı qələbəsidir

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, Moskvada Azərbaycan, Hayastan və Rusiya baş nazirlərinin müavinlərinin həmsədrliyi ilə üçtərəfli işçi qrupunun görüşü Azərbaycanın başlatdığı sülh prosesində önəmli hadisədir: "Görüşdə Zəngəzur dəhlizi ilə bağlı anlaşma Prezident İlham Əliyevin növbəti inamlı qələbəsi hesab olunmalıdır. Bu görüşdə əldə olunan nəticə ilə Bakı iki il yarımdır ki, dəhlizə israrla mane olan Hayastanın iradəsini tam şəkildə qırdı. İrəvan praqmatik düşünməyi bacarsa, əslində, bu razılaşmada uduzan tərəf yoxdur".

Deputatın dediyinə görə, Hayastan revanşist niyyəti və mümkünsüz xülyaları ilə özünü dalana dirəyib. Praqa görüşündən sonra yerli telekanallara müsahibə verən Prezident İlham Əliyev də bəyan etmişdi ki, "biz hələ səbir göstəririk, təmkin göstəririk. Əminəm, biz buna da nail olacağıq, yaxşı olardı ki, gec deyil, tez olsun".

Bəhruz Məhərrəmov bildirib ki, Zəngəzur dəhlizi üçün hüquqi bazis Azərbaycan Prezidenti, Hayastanın baş naziri və Rusiya Prezidentinin 10 noyabr 2020-ci il Bəyanatıdır: "Kapitulyasiya aktının 9-cu maddəsində bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri, o cümlədən Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin bərpa edilməsi razılaşdırılıb. Ermənistan israrla prosesi pozmaq niyyətində olsa da, hadisələrin axarı və Azərbaycanın artan güc və imkanları, o cümlədən cənab İlham Əliyevin Zəngəzur dəhlizini qlobal maraqların təmin olunduğu elementə çevirməsi ilə Hayastan fakt qarşısında qalaraq bu prinsipial məsələ üzrə də razılığa gəlmək məcburiyyətindədir".

Deputat deyib ki, Moskvada Arazdəyən-Culfa-Ordubad-Mehri-Horadiz dəmir yolunun bərpası ilə bağlı əldə olunmuş ümumi anlaşma hələ son deyil. 10 noyabr üçtərəfli Bəyanatında yalnız dəmir yolu yox, bütövlükdə bütün növ kommunikasiyaların açılması nəzərdə tutulur, yəni cənab Prezidentin də ifadə etdiyi kimi, kommunikasiya xətləri həm də qərb rayonlarımız və Naxçıvanı birləşdirəcək avtomobil yollarını əhatələyir. Əlbəttə, İrəvanın tutacağı mövqedən asılı olmayaraq, Azərbaycanın bu məsələnin də həllinə nail olacağı şübhə doğurmur. Cənab İlham Əliyev mayın 28-də Laçında bəyan etdiyi kimi, "İki il yarım ərzində bütün planlarımız ardıcıllıqla, tədricən həyata keçdi və biz öz planlarımızın son addımlığındayıq, o addım da atılacaq və buna mən şübhə etmirəm".

### Baş nazirlərin müavinləri səviyyəsində keçirilən görüşün mühüm əhəmiyyəti var

Milli Məclisin deputatı Kamilə Əliyeva qeyd edib ki, Azərbaycan Ermənistanla sülh müqaviləsinin əldə olunmasına xidmət göstərən görüşlərdə iştirakdan məmnundur: "Danışıqlarda sülhə doğru addım-addım yaxınlaşma hiss olunur. Moskvada keçirilən üçtərəfli görüş də bu baxımdan məhsuldardır".

Deputat deyib ki, münasibətlərin normallaşması üçün Azərbaycanla Hayastan arasında bütün növ kommunikasiya xətlərinin açılması çox önəmlidir: "Xüsusən Zəngəzur dəhlizinin açılması isə çox vacib məsələlərdən biridir. Moskvada da kommunikasiya xətlərinin açılması, sərhədlərin delimitasiya və demarkasiyası üçün baş nazirlərin müavinləri səviyyəsində görüş keçirilməsi mühüm töhfə idi. Bu görüşlər sülh müqaviləsinin imzalanması istiqamətində irəliyə doğru atılmış addımlardır".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Quru Qoşunlarında ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər və psixoloqlarla toplantı keçirilib

Bu ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun birlik, birləşmə və hərbi hissələrin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə şöbə və bölmə rəisləri, əlahiddə hərbi hissələrin qərargah rəislərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə köməkçiləri və psixoloqları ilə toplantı keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla anılıb, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə nazirinin müavini - Quru Qoşunları komandanı general-leytenant Ənvər Əfəndiyev toplantı iştirakçılarına müdafiə naziri general-polkovnik Zakir Həsənovun salamlarını çatdırıb.

Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun nümayəndələrinin də iştirak etdiyi toplantıda 2023-cü il ərzində ideoloji iş və mənəvi-psixoloji təminat sahəsində görülən işlər, hərbi intizamın vəziyyəti təhlil edilib, bu istiqamətdə qarşıda duran vəzifələr barədə ətraflı məlumat verilib.

Qeyd edilib ki, cari il ərzində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin çıxışlarından irəli gələn tapşırıqlar mütəmadi olaraq şəxsi heyətə çatdırılıb.

Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik Elşad Əbilov Azərbaycan Ordusunda hərbi vətənpərvərlik tərbiyəsi, mənəvi-psixoloji hazırlığın yüksəldilməsi məqsədilə qarşıya qoyulan tapşırıqların həlli istiqamətində görülən işlərdən danışıb, ideoloji iş və mənəvi-psixoloji təminat tədbirlərinin səmərəliliyinin artırılması ilə bağlı lazımi tövsiyələr verib. Sonda tərbiyəvi işin planlı şəkildə aparılmasına, ideoloji iş və mənəvi-psixoloji təminatın daha da gücləndirilməsinə, hüquq qaydalarının öyrənilməsi və hərbi intizamın möhkəmləndirilməsinə təsir edən mövzular ətrafında fikir mübadiləsi aparılıb, mühazirələr dinlənilib və maraq doğuran suallar cavablandırılıb.

Toplantı çərçivəsində, həmçinin yeni çağırılan gənc əsgərlərin xidmət şəraitinə uyğunlaşması, psixoloji sağlamlıqlarının qorunması məqsədilə onlarla ideoloji iş üzrə profilaktik söhbətlər aparılıb.

# Artilleriya rəisləri ilə təlim-metodiki toplanış keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü ilin hazırlıq planına əsasən, Quru Qoşunlarının birlik və birləşmələrinin artilleriya rəisləri ilə təlim-metodiki toplanış keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə zabitlərin müasir ümumqoşun döyüşünün aparılması üzrə nəzəri bilikləri yoxlanılıb.

Toplanışda döyüş vəziyyətinə uyğun şəraitdə idarəetmə məntəqələrinin açılması, zəruri hesabatların aparılması, optik cihazlar vasitəsilə hədəf koordinatlarının aşkar edilməsi, bölmələr arasında qarşılıqlı əlaqənin saxlanılması, eləcə də atəşin idarəedilməsi üzrə digər mövzularda məşğələlər keçirilib.

Gecə və gündüz şəraitində keçirilən nəzəri məşğələlərin sonunda təyin olunan şərti düşmən hədəflərinə atəş tapşırıqları bölmələr tərəfindən yüksək peşəkarlıqla yerinə yetirilib.

Qeyd edək ki, keçirilən təlim-metodiki toplanışın əsas məqsədi artilleriya zabitlərinin atəşi idarəetmə vərdişlərinin təkmilləşdirilməsi, eləcə də bilik və bacarıqlarının daha da artırılmasıdır.

# Hərbi vəzifəlilərlə növbəti təlim toplanışı keçirilir

Bu ilin hazırlıq planına əsasən, "N" saylı hərbi hissəsində ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlilərin iştirakı ilə növbəti təlim toplanışı keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, plana uyğun olaraq, toplanış məntəqəsinin qərargahında müvafiq qeydiyyat və həkim müayinəsindən keçən hərbi vəzifəlilər hərbi geyim, həmçinin digər təminat növləri ilə təmin olunublar. Hərbi vəzifəlilərə hərbi-vətənpərvərlik mövzusunda hazırlanmış film nümayiş etdirilib.

Mütəmadi olaraq keçirilən toplanışın əsas məqsədi hərbi vəzifəlilərin döyüş vərdişlərini, hərbi ixtisas və təcrübələrini təkmilləşdirməklə yanaşı, ordumuzun arsenalında olan müasir silah və hərbi texnika ilə yaxından tanış etmək, istismar qaydalarını öyrətməkdir.

# O ağır günlərdə nəzərlər Naxçıvana yönəlmişdi




Azərbaycan Müstəqillik Haqqında Konstitusiya Aktını 18 oktyabr 1991-ci ildə qəbul etsə də, mərkəzi hakimiyyətin Azərbaycandan asanlıqla əl çəkmək niyyəti yox idi. SSRİ-ni idarə edənlər arasında imperiyanı qoruyub saxlamağa meyilli olan konservatorlar kifayət qədər idilər. Eyni zamanda Kommunist Partiyası kimi ciddi struktura malik mühafizəkar bir təşkilat öz varlığını qoruyub saxlayırdı.

SSRİ-ni qoruyub saxlamaq üçün başladılan "yenidənqurma", eyni zamanda SSRİ-də sürətlə gedən iqtisadi tənəzzül regionlarda mərkəzdənqaçma meyillərinin yaranmasına, kütləvi mitinqlərə, xalqların öz azadlığı və istiqlaliyyəti uğrunda mübarizəyə səbəb olmuşdu. Bu hadisələrin fonunda Azərbaycanda hakimiyyət dəyişikliyi baş vermiş, kommunistlər hakimiyyətdən kənarlaşdırılmış, hakimiyyətə heç də kommunist psixologiyasından fərqi olmayan "millətçilər", AXC-Müsavat cütlüyü sahiblənmişdi. Necə deyərlər, Azərbaycan yağışdan çıxıb yağmura düşmüşdü.

Ozamankı dövlət "rəhbər"ləri, yəni AXC-Müsavat "funksionerləri" 1993-cü ili "dövlət quruculuğu ili" elan etsələr də, binaların üstündə dövlət orqanlarının adını bildirən lövhələr asılsa da, Azərbaycanda dövlət adına fəaliyyət göstərən ciddi bir qurum yox idi. Ölkədə xaos, özbaşınalıq, hakimiyyətsizlik hökm sürürdü. Azərbaycan müstəqilliyimizi istəməyən qüvvələrin poliqonuna çevrilmişdi. Vəziyyət o yerə gəlib çatmışdı ki, xalq hər gün torpaqların işğal edilməsi haqqında xəbərlərə sanki vərdiş etmişdi. Hətta Ermənistan silahlı qüvvələri Bakını tutacaqları ilə hədələməkdən belə çəkinmirdilər. Bütün bunların məntiqi nəticəsi olaraq 1993-cü il iyunun 4-də Gəncədə qiyamçı polkovnik Surət Hüseynovun başçılığı ilə hərbi qiyam baş verdi.

Gəncə hadisələrinin başvermə səbəbləri haqqında qeydlərimizi yazarkən bir qədər geriyə qayıtmağı vacib bildik. Əslinə qalsa, iyunun 4-də Gəncədə baş verənlər 1993-cü ilin fevralın 8-də olanların finalı idi. Fevralın 8-də AXC İcrayyə Komitəsi bəyanat verərək o zaman korpus komandiri olan, Prezident Əbülfəz Elçibəyin sərəncamı ilə Milli Qəhrəman adına sahiblənən polkovnik Surət Hüseynovu "vətən xaini" elan etmişdi. AXC-ni bu bəyanatı verməyə vadar edən səbəb isə ərköyün korpus komandirinin özbaşına, hərbi komandanlığın razılığı olmadan ön cəbhədəki qoşunları "təlim" adı ilə "Seyfəli" poliqonuna gətirməsi olmuşdu. Bununla da Azərbaycanda fəaliyyət göstərən hərbi müxalifət açıq mübarizəyə keçmişdi.

## 1993-cü il fevralın 8-də Gəncədə nə baş vermişdi?

AXC-Müsavat hakimiyyətinin ideoloqlarından biri, əvvəllər Dövlət katibi, daha sonra Baş nazir işləmiş Pənah Hüseynov mətbuata verdiyi açıqlamasında qeyd etmişdi: "1993-cü ilin fevralın 8-də Prezident Elçibəyin rəhbərliyi ilə baş prokuror, milli təhlükəsizlik naziri, dövlət müşaviri və digər şəxslər Gəncədə səfərdə idilər. Məhz bu ərəfədə AXC İcirayyə Komitəsinin məlum bəyanatı efirdə səsləndi. Bu bəyanat televiziyada oxunduqdan 10 dəqiqə sonra müdafiə naziri Rəhim Qazıyev mənimlə əlaqə saxlayıb əvvəl hədə-qorxu gəldi, daha sonra bəyan etdi ki, təyyarələri qaldırıb Prezident Aparatını darmadağın edəcək". Pənah Hüseynov bildirmişdi ki, Rəhim Qazıyevin təhdidindən dərhal sonra müdafiə nazirinin müavini Vahid Musayevi və daxili işlər nazirinin müavini Rövşən Cavadovu Prezident Aparatına dəvət edib: "Vahid Musayevdən xahiş etdim ki, Bakının hava hücumundan müdafiə sahəsinə nəzarət edən şəxsi də gətirsin. Dərhal Bakının hava hücumundan müdafiə qüvvələrinə həyəcan siqnalı verildi. Mənə bildirildi ki, artıq heç bir təyyarə və ya vertolyot Bakı səmasına daxil ola bilməz. Daha sonra Rövşən Cavadov polisə göstəriş verdi, Yevlaxdan Bakıya olan yollarda postlar quruldu. Əmr olundu ki, Bakıya gələn silahlı dəstələr tərk-silah edilsinlər".

Maraqlıdır, düşmənlə müharibə getdiyi, hər gün torpaqların işğal olunduğu bir vaxtda, yüzlərlə qəhrəman oğlumuz vətən uğrunda canını qurban verdiyi bir zamanda torpağı, vətəni düşməndən qorumalı olan hərbi birliklər Bakını, Prezident sarayını qorumağa cəlb edilirdi, ölkə rəhbərliyi isə buna normal hal kimi baxırdı.

Pənah Hüseynov əlavə etmişdi ki, daha sonra Gəncədə olan Prezident Əbülfəz Elçibəylə əlaqə saxladıq: "Bildirdik ki, əks-kəşfiyyat xidmətindən məlumat var, Gəncədə bir hərəkətlilik müşahidə olunur. "Prezidentə baş verənlərlə bağlı məlumat verdim və dedim ki, Gəncəni tərk etmək lazımdır. Bundan sonra Prezident Gəncə Hava Limanına gedib. Lakin Prezidentin hava limanına buraxılmasına və onun təyyarəsinin hava sahəsindən uçmasına icazə verilməyib. Hava limanının ətrafı müəmmalı silahlılar tərəfindən mühasirəyə alınıb. Biz bilirdik ki, bu, Surət Hüseynovun silahlı qruplarıdır. Hava limanının rəisi rəsmi şəkildə Prezidentin təyyarəsinə uçuş icazəsi verməyəcəyini bəyan edib. Bundan sonra Prezidentin mühafizə xidmətinin silahlı müdaxiləsi nəticəsində prezidentin təyyarəsi işıqlarını yandırmadan Bakı istiqamətində havaya qalxıb".

Bir fikir verin, xalqın hüquqlarını qorumağa borclu olan Prezident canını götürüb qaçır. Tədbir görmək əvəzinə, susmağa üstünlük verir. Qiyamçını cəzalandırmaq əvəzinə Gəncəyə barışıq üçün missiya göndərir. Ona görə ki, hakimiyyət can üstə olduğunu, xalqdan dəstək almadığını yaxşı bilirdi. Prezident, Ali Baş Komandan öz səlahiyyətlərini icra edə bilmədiyini anlayırdı. Bunu etiraf etməyə, sadəcə, özündə güc tapmırdı. Prezidentin sərəncamı ilə "Milli Qəhrəman" olan, böyük bir korpusa rəhbərlik edən komandir itaətsizlik göstərirdi. Hətta Gəncədə hərbi qulluqçuları başına toplayaraq dövlətə tabe olmayacağını açıqca bəyan edirdi. Bununla kifayətlənməyən Surət Hüseynov "Millət" qəzetinə müsahibə verərək bildirirdi ki, AXC-nin verdiyi 8 fevral tarixli bəyanata görə, Prezident ondan rəsmən üzr istəməlidir. Əks halda xalq nə etsə, mən də onu edəcəyəm. Buradan belə qənaətə gəlmək olur ki, ölkədə baş verən hakimiyyət böhranı ilkin olaraq 1993-cü ilin aprelində Kəlbəcərin işğal olunması ilə nəticələnmiş, 1993-cü ilin 4 iyununda Gəncədə hərbi qiyamla başa çatmışdı.

## Xalq vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı

1993-cü ilin yayında ölkə faktiki olaraq vətəndaş müharibəsi ilə üz-üzə idi. Gəncədə, Lənkəranda, Qusarda və digər regionlarda bəzi silahlı birliklər separatçı iddialarla çıxış edir, mərkəzi hakimiyyətə tabe olmadıqlarını açıq şəkildə bildirirdilər. Ermənistanla müharibə aparan ölkə o zaman silahlı qüvvələrinin bir qismini də Qusar rayonuna yerləşdirmək məcburiyyətində qalmışdı. Hökumət S.Hüseynovun nəzarətində olan 709 saylı hərbi hissənin tərk-silah edilməsi ilə bağlı qərar versə də, həyata keçirilən əməliyyat uğursuzluqla nəticələnmişdi. 4 iyun 1993-cü ildə Gəncədə Azərbaycan Ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi hərbi qüvvələrlə hökumət qüvvələri arasında silahlı toqquşma baş vermişdi. Surət Hüseynovu həbs etmək üçün Gəncəyə gedən dövlət rəsmiləri S.Hüseynovun dəstəsi tərəfindən girov götürülmüşdü. Böhran getdikcə dərinləşirdi. S.Hüseynovun tabeçiliyindəki silahlı birləşmələr Gəncə bölgəsində yerli hakimiyyət strukturlarını devirərək Bakıya doğru hərəkət etməyə başlamışdılar.

## Ölkə vətəndaş müharibəsindən, müstəqilliyimiz isə təhlükədən xilas oldu

Belə bir zamanda nəzərlər Naxçıvana yönəlmişdi. İstər hakimiyyətdə olan qüvvələr, istərsə də xalq vətənin bu ağır günündə Ulu Öndər Heydər Əliyevi təkidlə Naxçıvandan Bakıya dəvət edirdi. Ümummilli Lider xalqın təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi.

Heydər Əliyev bu məsələ ilə bağlı çıxışlarının birində deyirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı və ovaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi və qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək və Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən ovaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri və ziyalıları oldular. Onlar məni yenidən Bakıya dəvət etdilər".

1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı görünən və görünməyən bütün təhlükələrdən xilas etdi. Azərbaycanda gerçəkdən dövlət quruculuğuna start verildi. Ayrı-ayrı siyasi təşkilatların, xarici dövlətlərin kəşfiyyat qurumlarının nəzarətində olan hərbi hissələr buraxıldı. Ordu quruculuğunda yeni bir mərhələnin əsası qoyuldu. Xalq bütövlükdə Ümummilli Liderin rəhbərliyi ilə güclü dövlət, işıqlı gələcək və əbədi müstəqillik uğrunda mübarizənin iştirakçısına çevrildi.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# "Heydər Əliyev-100 il" adlı jurnal işıq üzü görüb

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar tədbirlər planına dair Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində "Heydər Əliyev - 100 il" adlı jurnalın təqdimatı olub.

AAYDA-dan AZƏRTAC-a bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə nəşr olunan jurnalın təqdimat mərasimini giriş nitqi ilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İdarə Heyətinin sədri Saleh Məmmədov açıb.

Saleh Məmmədov Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar olaraq ölkəmizin hər yerində silsilə tədbirlərin keçirildiyini, bunların həm də müdrik şəxsiyyətin ideyalarına sadiqliyin ifadəsi olduğunu bildirib.




İdarə Heyətinin sədri Azərbaycanın müstəqil dövlət quruculuğunda, sosial-iqtisadi sahədə əldə etdiyi bütün nailiyyətlərin təməlində Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strategiyanın dayandığını diqqətə çatdırıb. Vurğulanıb ki, Heydər Əliyev irsi böyük bir elmi məktəbdir: "Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr Azərbaycanda intibah dövrüdür. Azərbaycanın bugünkü inkişafını təmin edən ən böyük amil Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətdir".

Daha sonra Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sifarişi ilə nəşr edilən jurnal təqdim olunub.

Qeyd edilib ki, jurnalda Azərbaycana rəhbərliyi dövründə Ümummilli Lider Heydər Əliyevin respublika iqtisadiyyatında etdiyi inqilabi dəyişikliklərdən, yenidən qurulan yol təsərrüfatından, Ulu Öndərin ideyaları sayəsində Azərbaycanın qlobal nəqliyyat qovşağına çevrilməsindən, Prezident İlham Əliyevin Azərbaycanın yol infrastrukturunu müasir səviyyəyə çatdırmasından, Qarabağ və Şərqi Zəngəzurda qurulan dünyanın ən modern yol infrastrukturu layihələrindən və Azərbaycanın yol infrastrukturu sahəsində aparılan islahatların real nəticə verməsindən bəhs edilir.

Jurnalda dərc edilən məqalələrin hər birinin sərlövhəsinin və ideyasının Ümummilli Lider Heydər Əliyevin kəlamları əsasında hazırlandığı nəzərə çatdırılıb.

Sonda İdarə Heyətinin sədri Saleh Məmmədov yekun nitqi ilə çıxış edərək tədbir iştirakçılarına təşəkkürünü bildirib.

# İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib

İyunun 5-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin cari ilin növbədənkənar sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Tahir Mirkişili iclasın gündəliyinə 41 məsələnin daxil edildiyini söyləyib.

Tahir Mirkişili əvvəlcə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O qeyd edib ki, layihə ilə əlaqədar komitə üzvlərinin 9 təklifi olub və onlar qanun layihəsi təşəbbüskarı subyektinə göndərilib. Bu təkliflərin 5-i razılaşdırılıb və qanun layihəsində öz əksini tapıb. Bildirilib ki, qanunda nəzərdə tutulan dəyişikliklərin əsas məqsədi sahibkarların hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlıdır.

Sonra komitə sədri "Kosmik fəaliyyət haqqında" Azərbaycan Respublikası qanununun layihəsini(ikinci oxunuş) təqdim edib. O bildirib ki, qanun Azərbaycan Respublikasında kosmik fəaliyyətin hüquqi, iqtisadi və təşkilati əsaslarını, kosmik sənayedə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair ümumi tələbləri müəyyən edir və yerətrafı orbitlərdə, Ay və digər səma cisimləri və onların orbitləri daxil olmaqla, kosmik fəzada milli fəaliyyətə aid edilən münasibətləri tənzimləyir.

Digər iki məsələni diqqətə çatdıran Tahir Mirkişili bildirib ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) yerli istehsal olunan avtomobillərin 10 il müddətinə əlavə dəyər vergisindən azad olunması ilə əlaqədar, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) isə işğaldan azad edilmiş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi çərçivəsində texniki vasitələrin və qurğuların istehsalı üçün idxal olunan texnologiyaların gömrük rüsumlarından azad edilməsi məqsədilə hazırlanıb.

Bu 4 qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra gündəlikdəki digər 37 məsələ - Mülki Məcəllədə, Mülki Prosessual Məcəllədə, Vergi Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, İnzibati Prosessual Məcəllədə, Seçki Məcəlləsində, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 140-VQD nömrəli, "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 141-VQD nömrəli, "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 142-VQD nömrəli, "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 143-VQD nömrəli, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 144-VQD nömrəli, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 145-VQD nömrəli və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 146-VQD nömrəli qanunlarında, habelə "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Kredit ittifaqları haqqında", "Poçt haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Kredit büroları haqqında", "Valyuta tənzimi haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İcbari sığortalar haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Aqrar sığorta haqqında", "Tibbi sığorta haqqında", "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında", "Qiymətli metallar və qiymətli daşlar haqqında", "Publik hüquqi şəxslər haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında", "Hesablama Palatası haqqında", "Mühasibat uçotu haqqında", "Dövlət satınalmaları haqqında", "Reklam haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Büdcə sistemi haqqında", "Auditor xidməti haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "İcra haqqında" qanunlara təklif edilən dəyişikliklər müzakirəyə çıxarılıb.

Komitə sədri Tahir Mirkişili bu məsələlərlə bağlı fikirlərini açıqlayaraq bildirib ki, son 20 il ərzində Azərbaycan iqtisadiyyatında müşahidə olunan artımda bank sektorunun dəstəyi, bu sahəyə investisiyaların qoyulması mühüm əhəmiyyət kəsb edir. O qeyd edib ki, ölkə Prezidentinin "Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarəedilməsinin təkmilləşdirilməsi haqqında" 2019-cu il 28 noyabr tarixli 1616 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının qanunlarında maliyyə bazarlarına nəzarət orqanının müəyyən edilmiş səlahiyyətləri, o cümlədən onun maliyyə xidmətləri bazarında lisenziyalaşdırma, tənzimləmə və nəzarət, investorların və maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunması sahəsində vəzifə və hüquqları Mərkəzi Banka verilib. Sərəncamın 2.1-ci bəndində qanunvericilik aktlarında zəruri dəyişikliklərin edilməsi barədə təkliflərin hazırlanması nəzərdə tutulub. Bununla bağlı 37 qanun layihəsindən ibarət paket hazırlanıb və Milli Məclisə təqdim edilib.

Tahir Mirkişili bildirib ki, layihələrdə Mərkəzi Bankın İdarə Heyəti üzvlərinin sayı, üzvlərinin fəaliyyət müddəti və onların səlahiyyətləri ilə bağlı dəyişiklik öz əksini tapıb. Digər düzəlişlərdə pul siyasətinin əsas istiqamətlərində növbəti il üçün inflyasiya hədəfi və ona nail olmaq üçün istifadə olunacaq pul siyasətinin əsas alətlərinə dair məqamlar qeyd olunur. Habelə ödəniş sistemlərinin iştirakçıları arasında tətbiq edilən xidmət haqqı tariflərinin (interçeyncin) yuxarı həddinin müəyyən edilməsi ilə bağlı müddəalar ehtiva olunur. Tənzimləmə və nəzarət sahəsinə aid məsələlər ayrıca maddədə müəyyən edilir.Xüsusi tənzimləmə rejiminin prinsipləri, onun tətbiqi ilə bağlı qaydalar, yoxlamaların müddəti və digər bir sıra məqamlar da bu dəyişikliklərlər sırasında yer alıb.

Sonra Mərkəzi Bankın sədri Taleh Kazımov çıxış edərək, makroiqtisadi mühitlə bağlı açıqlamalar təqdim edib. O bildirib ki, aprel ayının sonuna olan məlumata əsasən, ölkə üzrə Ümumi Daxil Məhsul (ÜDM) 0,1 faiz, qeyri-neft sahəsində ÜDM isə 3,7 faiz artıb. Qeyd edilib ki, Mərkəzi Bankın gözləntilərinə görə artım 2023-cü ilin sonunda ÜDM üzrə 1,8 - 2 faiz arasında olacaq, qeyri-neft sahəsində isə ÜDM 5,7 faizə çatacaq. Taleh Kazımov illik inflyasiyanın 12,8 faiz təşkil etdiyini və bunun əsasən qiymətlərin artımı ilə bağlı olduğunu söyləyib. Mərkəzi Bankın proqnozlarına əsasən ilin sonuna inflyasiyanın 8,3 faiz olacağını deyib. O, ölkənin strateji valyuta ehtiyatlarının12 faiz artaraq, 66 milyard ABŞ dolları, Mərkəzi Bankın ehtiyatların 2,2 faiz artaraq 9,2 milyard ABŞ dolları təşkil etdiyini qeyd edib.

Bildirilib ki, ümumiyyətlə, bank sektoru 45,6 milyard manat həcmində aktivlərdən ibarətdir. Kreditin həcmi 4 faiz artaraq 20 milyard manata çatıb, depozit bazasında (hüquqi və fiziki şəxslər) 5 faizdən çox artım olub. Sığorta sektorunda daötən 4 ay ərzində artımın müşahidə olunduğu, sığorta haqlarının artımının 30 faiz, sığorta ödənişlərindəisə 33 faiz artım olduğu nəzərə çatdırılıb. Həmçinin qiymətli kağızlar bazarında da müsbət inkişafın qeydə alındığı söylənilib.

İclasda Mərkəzi Bankın baş direktoru Gülər Paşayeva qanunlara təklif edilən dəyişikliklərin mahiyyəti barədə məlumat verib. Bildirilib ki, qanun layihələrinin əsas məqsədi maliyyə bazarlarında tənzimləmə və nəzarət sisteminin müasir çağırışlara uyğun olaraq təkmilləşdirilməsi və effektivliyinin artırılması, mərkəzi bankçılığın hüquqi əsaslarının daha da möhkəmləndirilməsidir. Layihələr üzərində hazırlıq prosesində beynəlxalq təcrübə, Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun tövsiyələri nəzərə alınıb.

Diqqətə çatdırılıb ki, Mərkəzi Bankın məqsəd və funksiyalarının genişləndirilməsi ilə bağlı dəyişikliklərdə maliyyə bazarlarının fəaliyyətinin sabitliyi və dayanıqlığının təmin edilməsi,tənzimləmə və nəzarətin həyata keçirilməsi, ödəniş sistemlərinin sabit, təhlükəsiz və effektiv fəaliyyətinin təmin olunması, istehlakçıların və investorların hüquqlarının qorunması üçün tədbirlərin görülməsi və maarifləndirmə işlərinin aparılması kimi funksiyaların əlavə edilməsi təklif olunur.

Bildirilib ki, sənədlərdə Mərkəzi Bankın iqtisadi və əməliyyat müstəqilliyini təmin edən normaların təkmilləşdirilməsinə aid hesabatlılıq, şəffaflıq və məsuliyyət prinsiplərinin əsas götürüldüyü düzəlişlər də nəzərdə tutulub. Habelə makroiqtisadi sabitliyin və maliyyə bazarlarının sabitliyinin təmin olunması məqsədilə kredit təşkilatları tərəfindən Mərkəzi Bankda saxlanan məcburi ehtiyatlara görə faizlərin ödənilməsi imkanının yaradılması, pul nişanlarının dəyişdirilməsinə dair tələblərin təkmilləşdirilməsi ilə bağlı dəyişikliklər öz əksini tapıb. Bununla yanaşı, Mərkəzi Bankın İdarə Heyəti üzvlərinin sayının 7-dən 9-a artırılması təklif olunur.

Qeyd olunub ki, maliyyə bazarlarının tənzimlənməsi və nəzarəti sahəsində dəyişikliklərdə yoxlamalarla bağlı bütün prosedurların, o cümlədən yoxlamaların planlaşdırılması, keçirilməsi, tərəflərin hüquq və vəzifələrinin müvafiq qanunvericiliklə tənzimlənməsi, nəzarət subyektlərinin yerli filial, şöbə və nümayəndəliklərinin açılması prosesinin sadələşdirilməsi və digər məsələlər öz əksini tapıb. Eyni zamanda hesabatların düzgünlüyünün və mötəbərliyinin yerində monitoringi məqsədilə Mərkəzi Bankın öz əməkdaşları arasından nəzarət subyektlərinə səlahiyyətli nümayəndələr təyin etməsi, maliyyə texnologiyalarının xüsusi nəzarət altında test edilməsi və xüsusi tənzimləmə rejiminin tətbiqinə dair müddəalar ehtiva olunur.

Qanun layihələrində həmçinin bank olmayan kredit təşkilatlarının,valyuta mübadilə məntəqələrinin fəaliyyətinin hüquqi əsaslarının təkmilləşdirilməsi, kapital bazarının stimullaşdırılması, sığorta bazarının inkişaf etdirilməsi məsələləri ilə bağlı düzəlişlərin də yer aldığı bildirilib.

Sonra komitə sədrinin müavini Əli Məsimli, üzvləri Vahid Əhmədov, Vüqar Bayramov, Rüfət Quliyev, Ziyad Səmədzadə, Məzahir Əfəndiyev, Mahir Abbaszadə, İqbal Məmmədov, Aydın Hüseynov, iclasda iştirak edən Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev, Azərbaycan Makromaliyyə Assosiasiyasının Müşahidə Şurasının sədri Cəlal Əliyev çıxış edərək, qanun layihələri barədə öz fikirlərini, bəzi qeyd və təkliflərini söyləyiblər. Çıxışlarda qanunlarda nəzərdə tutulan dəyişikliklər müsbət qiymətləndirilib.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov öz çıxışında İnzibati Xətalar Məcəlləsində, digər qanunlarda geniş dəyişikliklərin edildiyi, burada "müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum" sözlərinin "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz edildiyini deyib. Bunun gələcəkdə hesabatlılığın daha yaxşı təmin olunması, şəffaflığın artırılması istiqamətində müsbət addımlar olduğunu söyləyib.

Sonra Mərkəzi Bankın sədri Taleh Kazımov qaldırılan məsələlərə aydınlıq gətirib, sualları cavablandırıb.

Müzakirələrin sonunda təqdim olunan bu 37 qanun layihəsi də baxılmaq üçün Milli Məclisin iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR 2023-2027-Cİ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI

**Mündəricat**


1. Qısa xülasə ____ 3
2. Qlobal trendlər ____ 3
3. Mövcud vəziyyətin təhlili ____ 4
4. Dövlət proqramının məqsədi və prioritet istiqamətləri ____ 7
5. Hədəf göstəriciləri ____ 13
6. Dövlət proqramının maliyyələşmə mənbələri ____ 13
7. Dövlət proqramının icrası, monitorinqi və qiymətləndirilməsi ____ 13
8. Dövlət proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı ____ 14


## 1. Qısa xülasə

Azərbaycan Respublikası regionlarının, o cümlədən Naxçıvan iqtisadi rayonunun inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu strategiyanın həyata keçirilməsində, o cümlədən bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları xüsusi əhəmiyyət kəsb edir.

Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda fəaliyyəti dövründə Ermənistan tərəfindən blokada şəraitində olan regionun sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması və tərəqqisi üçün əhəmiyyətli tədbirlər görülmüş, aqrar islahatlar reallaşdırılmış, infrastrukturun inkişafı istiqamətində mühüm işlər həyata keçirilmişdir. Məhz Ulu Öndərin siyasəti sayəsində bölgənin inkişafının və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələr qurulmuş, sonrakı dövr üçün ölkəmizin bütün regionları kimi, Naxçıvanın da sosial-iqtisadi inkişafında möhkəm bünövrə formalaşdırılmışdır.

2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası ilə yaranmış yeni reallıq Orta dəhlizin inkişaf perspektivlərini gündəmə gətirməklə, Zəngəzur dəhlizinin açılmasını zəruri etmiş və Naxçıvan Muxtar Respublikasının tranzit potensialını genişləndirmişdir.

Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri və tətbiq olunan güzəştlər, həmçinin Zəngəzur dəhlizi vasitəsilə bu ərazilərin Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat əlaqələrinin qurulması perspektivi analoji güzəştlərin muxtar respublikada da tətbiqinə imkanlar yaradır.

Hazırda bu imkanlardan istifadə edərək Naxçıvanda iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu, sosial rifah halının daha da yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi ön plana çıxmışdır. Mövcud potensialdan daha səmərəli istifadə etməklə bölgədə sosial-iqtisadi inkişafın sürətləndirilməsi və davamlılığının təmin edilməsi zəruridir. Bu isə, mütəmadi olaraq, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar kompleks proqramların hazırlanaraq icra olunmasını nəzərdə tutur.

Yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) hazırlanmışdır.

Dövlət proqramı Naxçıvan iqtisadi rayonuna daxil olan Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarını əhatə edir.

Dövlət proqramında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilmişdir.

Dövlət proqramı prioritet istiqamətlər üzrə tədbirlərin maliyyələşmə mənbələrini, regionun sosial-iqtisadi inkişafı sahəsində əldə olunacaq hədəf göstəricilərini özündə ehtiva edir.

## 2. Qlobal trendlər

Regionların sosial-iqtisadi inkişafı sahəsində beynəlxalq təcrübələrin təhlili göstərir ki, son illər ərzində regionların potensialından istifadənin səmərəliliyinin və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması, "yaşıl iqtisadiyyat"ın formalaşdırılması, innovativ yanaşmaların tətbiqi kimi məsələlər önə çəkilir. Belə ki, ölkədə regionların inkişafı sahəsində qazanılan nailiyyətlərin daha da möhkəmləndirilməsi, həmçinin mövcud ehtiyacların təmin edilməsi məqsədilə hazırlanan və həyata keçirilən proqramlarla yanaşı, ayrı-ayrı regionlar və inzibati ərazi vahidləri üzrə yerli inkişaf planlarının hazırlanması və həyata keçirilməsi daha yaxşı nəticələr əldə etməyə imkan verir.

Hazırda ayrı-ayrı regionlar miqyasında daha dayanıqlı və davamlı gələcək qurulması istiqamətində iqtisadi artımın sürəti, onun keyfiyyəti və başlıca təkanverici amillərinin hərəkətə gətirilməsi həmin bölgələrin inkişaf gündəliyində duran əsas məsələlərdir.

Bununla belə, dayanıqlı inkişafın iqtisadi, sosial və ətraf mühit komponentlərinin ahəngdar inkişafı sahələrində standart yanaşmalar mövcud deyildir. Ona görə də tarazlı inkişaf yolunun müəyyən edilməsində hər bir bölgənin spesifik və coğrafi xüsusiyyəti nəzərə alınmalıdır.

Azərbaycan Respublikasında regionların inkişafı siyasəti əsas etibarilə milli xüsusiyyətlər nəzərə alınmaqla hazırlanan regional inkişaf proqramlarına əsaslanır. Bu proqramların icrası nəticəsində regionlarda sosial-iqtisadi və fiziki infrastruktur sahələrinin inkişafı, beynəlxalq standartlara uyğun yeni müəssisələrin və iş yerlərinin yaradılması, əhalinin rifahının yüksəldilməsi istiqamətində irimiqyaslı işlər görülmüş və əhəmiyyətli nəticələr əldə olunmuşdur.

Mütərəqqi dünya təcrübəsi göstərir ki, hər bir ölkənin, onun regionlarının, şəhər və kəndlərinin sosial-iqtisadi inkişafında çevik və səmərəli yanaşmaların və innovativ həllərin tətbiqi mühüm rol oynayır. Dövlət proqramı çərçivəsində qarşıya qoyulan prioritetlər "universallıq", "inteqrasiyalı yanaşma" və "heç kimin geridə qalmaması" kimi prinsiplərə əsaslanan 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyinə və onun müvafiq hədəflərinə uyğunlaşdırılmışdır. Bu istiqamətdə atılacaq addımlar sırasına, qlobal hədəflərə uyğun olaraq, dayanıqlı iqtisadi artımın dəstəklənməsi, layiqli məşğulluq imkanlarının yaradılması, bölgə əhalisi üçün əlçatan, etibarlı və müasir enerji xidmətləri, xüsusilə bərpaolunan enerji mənbələrindən istifadə edilməsi, habelə təmiz enerji texnologiyalarının tətbiqi, iqtisadi inkişafı və insan rifahını dəstəkləyən keyfiyyətli və möhkəm infrastrukturun qurulması, habelə ekoloji ekosistemlərin dayanıqlığının təmin edilməsi kimi beynəlxalq inkişaf prioritetləri daxil edilmişdir.

Həmçinin dövlət proqramı çərçivəsində mühüm hədəf göstəriciləri və gələcək dayanıqlı inkişaf kursu müəyyən olunarkən təbii resurslardan səmərəli istifadə, biomüxtəlifliyin qorunması və "yaşıllaşma və karbonsuzlaşma" istiqamətlərində qlobal təşəbbüslərin məqsədləri nəzərə alınmış, smart ixtisaslaşdırma və rəqəmsallaşdırma sahələrində müşahidə olunan innovativ tendensiyaların tətbiqi imkanları da diqqətdə saxlanılmışdır.

Bu baxımdan Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı sahəsində qarşıda duran əsas məqsəd beynəlxalq təcrübədə təsdiqini tapmış ən yaxşı təcrübələrin tətbiqi ilə əldə olunan iqtisadi və sosial nailiyyətlərin səmərəsinin artırılmasıdır.

Dövlət proqramı hazırlanarkən davamlı inkişaf prinsipləri, o cümlədən BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi" ilə müəyyən olunan Dayanıqlı İnkişaf Məqsədləri, həmçinin mütərəqqi beynəlxalq təcrübə və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi potensialı və ehtiyaclara əsaslanan çağırışlar nəzərə alınmışdır.

## 3. Mövcud vəziyyətin təhlili

### 3.1. Əldə olunmuş nailiyyətlər

Ölkədə regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasında görülmüş işlər infrastruktur layihələrinin həyata keçirilməsinə, Naxçıvan Muxtar Respublikasında qazlaşdırmanın tam təmin edilməsinə, enerji təchizatının yaxşılaşdırılmasına, müasir yolların inşasına, sosial infrastruktur obyektlərinin tikintisinə, yeni müəssisələrin yaradılmasına və iş yerlərinin açılmasına səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, sənayenin davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli 831 nömrəli Fərmanı ilə Şərur Sənaye Məhəlləsi yaradılmış, investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi, iqtisadiyyata sərmayə qoyuluşunun stimullaşdırılması üçün son 5 il ərzində 18 sahibkarlıq subyektinə 24 investisiya təşviqi sənədi təqdim edilmişdir. İnvestisiya təşviqi sənədi çərçivəsində idxal olunan 77,9 milyon manat dəyərində avadanlığa gömrük və vergi güzəştləri tətbiq edilmişdir.

İxracın stimullaşdırılması məqsədilə müxtəlif ölkələrdə keçirilmiş tədbirlərdə yerli sahibkarlıq subyektinin dövlət dəstəyi ilə iştirakı təmin edilmiş və istehsal olunan məhsullar nümayiş etdirilmişdir.

Ötən dövrdə torpaqların suvarma və meliorasiya təminatının yaxşılaşdırılması, torpaq və su ehtiyatlarından səmərəli istifadə edilməsi istiqamətində tutumu 100 milyon kubmetr olan Heydər Əliyev su anbarı istifadəyə verilmişdir.

Elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində 169,8 meqavat gücündə 10 elektrik stansiyası, o cümlədən 87 meqavat gücündə Naxçıvan Modul Elektrik Stansiyası, 4,5 meqavat gücündə Heydər Əliyev su anbarı üzərində su-elektrik stansiyası, Ordubad rayonunda Gilançay üzərində 20 meqavat gücündə "Biləv" Su-Elektrik Stansiyası, Şərur rayonu ərazisində 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su-Elektrik Stansiyaları, Babək rayonunun Xalxal kəndi ərazisində 22 meqavat gücündə Naxçıvan Günəş-Elektrik Stansiyası, Kəngərli rayonunda 5 meqavat gücündə, Şərur rayonunda 8 meqavat gücündə günəş-elektrik stansiyaları, Culfa rayonunda 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyası və 0,3 meqavat gücündə Culfa Külək-Elektrik Stansiyası istifadəyə verilmişdir.

Təbii qazla təchizat tam olaraq başa çatdırılmış, 27 kilometr uzunluğunda Naxçıvan-Şahbuz ortatəzyiqli və 82,2 kilometr uzunluğunda Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərləri tikilib istifadəyə verilmişdir.

Naxçıvan şəhərinin və onun inzibati ərazisinə daxil olan yaşayış məntəqələrinin əhalisini içməli su və kanalizasiya xidməti ilə təmin etmək üçün gün ərzində 40 min kubmetr sutəmizləmə və 32 min kubmetr tullantı sutəmizləmə gücünə malik olan qurğular və ümumi tutumu 25 min kubmetr olan 3 su anbarı tikilmişdir. Naxçıvan şəhərində, Əliabad qəsəbəsində, Tumbul, Hacıniyyət, Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində su xətti və kanalizasiya şəbəkəsi quraşdırılmışdır.

Rabitə və informasiya texnologiyalarının tətbiqi sahəsində 1685,7 kilometr fiber-optik xətt çəkilmiş, 160 avtomat telefon stansiyası (ATS) quraşdırılmış, 87 ATS rekonstruksiya olunmuş, 223 ATS tam elektronlaşdırılmışdır.

Naxçıvan Hava Limanı regionun aviasiya nəqliyyat əlaqəsi üçün yeganə vasitə olmuş və 2004-cü ildən Beynəlxalq Hava Limanı statusu qazanmışdır.

Son on il ərzində şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olanlara və digər imtiyazlı şəxslərə 120 mənzil və 280 minik avtomobili verilmişdir. Ölkədə 2017-ci ildən həyata keçirilən özünüməşğulluq proqramına Naxçıvan Muxtar Respublikası üzrə 1320 ailə cəlb edilmişdir.

Ötən müddətdə Ağbulaq istirahət və xizək mərkəzi, Duzdağ fizioterapiya mərkəzi və digər turizm obyektləri fəaliyyətə başlamış, regionda fəaliyyət göstərən mehmanxanaların sayı 10-a çatdırılmışdır.

Ətraf mühitin mühafizəsi, yaşıllaşdırma, yol kənarlarında meşə zolaqlarının salınması istiqamətində işlər görülmüş, eləcə də Arazboyu Dövlət Təbiət Yasaqlığı, Arpaçay Dövlət Təbiət Yasaqlığı və Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı yaradılmışdır.

Regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilmiş dövlət proqramlarının icrası nəticəsində bölgədə idman obyektləri, mədəniyyət müəssisələri tikilmiş və ya təmir olunmuş, müasir standartlara uyğun təhsil və səhiyyə müəssisələri əhalinin istifadəsinə verilmişdir.

### 3.2. Mövcud çağırışlar

3.2.1. Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial sahələrdə əldə olunan nailiyyətlərin daha da möhkəmləndirilməsi, eləcə də regionun potensialından istifadənin səmərəliliyinin və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması üçün müasir çağırışlara və yanaşmalara əsaslanan aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruri hesab olunur:

1. biznes mühitinin daha da yaxşılaşdırılması üçün sahibkarlara icazə və lisenziyaların vahid mərkəzdən verilməsi, "Lisenziyalar və icazələr portalı"nın fəaliyyətə başlaması, satınalmaların elektron portal vasitəsilə təşkili, sahibkarlıq subyektlərində aparılan yoxlamaların vahid reyestrinin formalaşdırılması, rəqabət mühitinin sağlamlaşdırılması, bank və sığorta filialları şəbəkəsinin genişləndirilməsi, dövlət orqanlarının (qurumlarının) tabeliyində fəaliyyət göstərən istehsal və xidmət sahələrinin özəlləşdirilməsi;

2. ölkədə tətbiq olunan dövlət xidmətlərinin Naxçıvan Muxtar Respublikasında da tam tətbiq olunması, "ASAN xidmət", "DOST" və digər mərkəzlərin fəaliyyətə başlaması və nəticədə dövlət xidmətlərinə əlçatanlığın artırılması;

3. Naxçıvan Muxtar Respublikası ərazisində olan təbii ehtiyatlar (əlvan metallar) hesabına hasilat sənayesinin inkişaf etdirilməsi;

4. xammal bazası əsasında yeni sənaye sahələrinin (tikinti materialları, qida məhsulları istehsalı və s.) qurulması və mövcud sənaye müəssisələrinin fəaliyyətinin genişləndirilməsi, habelə ayrı-ayrı sahələrdə güzəştlərin tətbiqinin nəzərdə tutulduğu sənaye zonasının yaradılması;

5. elektrik enerjisinin istehsalı və ixracı üzrə mövcud potensialdan istifadə etməklə yeni bərpaolunan enerji (əsasən, günəş) stansiyalarının, həmçinin istilik elektrik stansiyalarının tikintisi və eyni zamanda tezlik tənzimlənməsinin dayanıqlığının təmini, mövcud elektrik stansiyalarının və şəbəkəsinin təmiri, avtomatlaşdırılmış idarəetmə sisteminin qurulması;

6. Naxçıvan Muxtar Respublikasının ərazisində Türkiyə sərhədinədək 18 km magistral boru kəmərinin çəkilməsi ilə Naxçıvan Muxtar Respublikasının Türkiyənin qaz şəbəkəsi ilə əlaqələndirilməsi və nəticədə qaz təminatının dayanıqlığının təmin edilməsi;

7. kənd təsərrüfatının inkişafında suvarma suyunun əhəmiyyətini nəzərə alaraq bölgədə suvarma şəbəkələrinin yenilənməsi, müasir suvarma sistemlərindən istifadənin genişləndirilməsi;

8. duz yataqları, mineral sular, tarixi və dini abidələr, ekoturizm üçün təbii əlverişli şəraitin olması nəzərə alınaraq, Naxçıvan Muxtar Respublikasında əlavə dəyər yaradılması baxımından turizm infrastrukturunun qurulması və bu sahənin təbliği;

9. xarici dövlətlərlə sərhəddə yerləşməsi nəzərə alınmaqla, Naxçıvan Muxtar Respublikasında vergi və gömrük güzəştləri müəyyən edilməklə rəqabətqabiliyyətli ticarət qovşağının yaradılması imkanının dəyərləndirilməsi;

10. Naxçıvan Muxtar Respublikasında turistlərə və ticarət məqsədilə oraya gələcək şəxslərə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün müasir tipli ictimai-iaşə obyektlərinin, istirahət və əyləncə mərkəzlərinin sayının artırılması və xidmət səviyyəsinin yüksəldilməsi;

11. Naxçıvan Muxtar Respublikasında infrastruktur təminatının yaxşılaşdırılması, o cümlədən əhalinin fiber-optik və mobil internet xidmətlərinə çıxış səviyyəsinin yüksəldilməsi və dayanıqlığının təmin edilməsi, kəndlərdə içməli su təminatının artırılması;

12. Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların digər regionlara daşınması zamanıyaranan nəqliyyat xərcləri üçün xüsusi güzəştlər sisteminin formalaşdırılması, dəmir yolu stansiyalarının və dəmir yolu xətlərinin beynəlxalq tələblərə uyğun yenidən qurulması;

13. Naxçıvan Muxtar Respublikasında təhsil, səhiyyə, mədəniyyət və idman sahələrində göstərilən xidmətlərin keyfiyyətinin və əhatə dairəsinin artırılmasına, ixtisaslı kadrların yetişdirilməsinə ehtiyac duyulur. Burada özəl təhsil və səhiyyə müəssisələrinin yaradılması bu sahədə göstərilən xidmətlərin keyfiyyətinin yüksəlməsinə də zəmin yaradacaqdır.

3.2.2. Mövcud vəziyyətin təhlilində,hədəflərin və prioritet istiqamətlərin müəyyənləşdirilməsində GZİT (Güclü və Zəif tərəflər, İmkanlar və Təhlükələr) təhlilindən istifadə edilmişdir. Naxçıvan Muxtar Respublikasının mövcud sosial-iqtisadi vəziyyətinin GZİT təhlili aşağıdakı kimidir:

| Güclü tərəflər | Zəif tərəflər |
|---|---|
| - təbii ehtiyatlar və xammal bazası;<br>- bərpaolunan enerji potensialı (günəş və külək enerjisi);<br>- sahibkarlığın inkişafına, ixracın stimullaşdırılmasına və əlverişli investisiya mühitinin yaradılmasına dövlət dəstəyi;<br>- beynəlxalq hava limanı;<br>- xarici ticarət üçün əlverişli iqtisadi-coğrafi mövqe | - dövlət xidmətlərinə əlçatanlıq səviyyəsinin aşağı olması;<br>- əlverişli biznes mühitini formalaşdıran zəruri təşviqlərin azlığı;<br>- maliyyəyə çıxış imkanlarının məhdudluğu;<br>- regionun enerji təchizatı və kommunikasiya xətlərinin aşağı səviyyədə diversifikasiya olunması, elektrik xətlərinin istismar müddətinin başa çatması;<br>- kənd təsərrüfatı və digər sahələr üzrə infrastruktur və su təminatı sistemində çatışmazlıqlar<br>- ölkənin digər əraziləri ilə birbaşa quru nəqliyyat əlaqəsinin olmaması |
| **İmkanlar** | **Təhlükələr** |
| - mühüm enerji və nəqliyyat dəhlizlərinə yaxınlıq, xüsusilə, Zəngəzur dəhlizi vasitəsilə Orta dəhlizlə logistik bağlantı;<br>- rəqabətqabiliyyətli turizm potensialı;<br>- ixracyönlü sənaye sahələrinin inkişafı perspektivləri;<br>- xarici investisiyaların cəlb olunması;<br>- xarici ticarətin inkişafı;<br>- dövlət-özəl tərəfdaşlığı modelinin tətbiqi;<br>- ölkədə mövcud xidmət mexanizmlərinin (dövlət, maliyyə və bank xidmətləri) tətbiqi;<br>- regionun enerji təchizatı və kommunikasiya xətlərinin dayanıqlığının artırılması | - büdcə transferləri payının yüksək olması;<br>- ixrac bazarlarının coğrafi diversifikasiyasının məhdud olması;<br>- istehsal olunan məhsulların beynəlxalq bazarlarda rəqabət üstünlüyünün itirilməsi təhlükəsi;<br>- qlobal iqlim dəyişikliyi təsirləri, xüsusilə əkinəyararlı torpaq sahələrinin səhralaşması və deqradasiyası;<br>- əhalinin digər regionlara və xarici ölkələrə miqrasiyası |

GZİT təhlil əsasında "Güclü tərəflər"in verdiyi üstünlük və "İmkanlar"ın yaratdığı fürsətlərdən bəhrələnərək "Zəif tərəflər" inkişaf etdiriləcək və "Təhlükələr"in mümkün neqativ təsirləri minimuma endiriləcəkdir.

## 4. Dövlət proqramının məqsədi və prioritet istiqamətləri

4.1. Dövlət proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün 2023-2027-ci illər üçün 11 prioritet istiqamət müəyyən olunmuş və dövlət proqramının həyata keçirilməsi ilə bağlı icrası planlaşdırılan bütün tədbirlər həmin prioritet istiqamətlər üzrə qruplaşdırılmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikasının iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından və tranzit imkanlarından səmərəli istifadə etməklə mövcud çatışmazlıqların aradan qaldırılması və iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı tədbirlər sözügedən prioritet istiqamətlər nəzərə alınmaqla gerçəkləşdiriləcəkdir.

### 4.1.1. Prioritet 1. Əlverişli biznes mühitinin yaradılması

Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın sürətləndirilməsi və iqtisadi canlanmanın təşviqi üçün əlverişli biznes mühitinin formalaşdırılması bu sahədə prosedurların sadələşdirilməsi və asanlaşdırılması məqsədilə tədbirlərin icrası vasitəsilə həyata keçiriləcəkdir. Burada azad iqtisadi zonanın yaradılması ticarət və logistika imkanlarını genişləndirməklə Naxçıvan Muxtar Respublikasının investisiya cəlbediciliyini artıracaq və iqtisadiyyatın inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

Həmçinin hüquqi və fiziki şəxslərə vergi və digər güzəştlərin tətbiq edilməsi ilə özəl sektorun inkişafına nail olunacaqdır. Bundan başqa, sosial sığorta ödənişlərinin tam və ya qismən dövlət tərəfindən subsidiyalaşdırılması nəzərdən keçiriləcəkdir.

Eyni zamanda Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması məqsədilə yerli və xarici investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər görüləcəkdir.

Ölkədə fəaliyyət göstərən bankların və bank olmayan kredit təşkilatlarının Naxçıvan Muxtar Respublikasında da filiallarının açılması ilə əhalinin, o cümlədən sahibkarların bank xidmətlərinə çıxışı asanlaşacaq, əhalinin və sahibkarların sığorta savadlılığının artırılması və sığorta xidmətlərinə əlçatanlığının inkişafı məqsədilə müvafiq tədbirlər görüləcək, sahibkarlığın inkişafı, innovativ texnologiyaların tətbiqinin stimullaşdırılması üçün güzəştli kreditlərin verilməsi, təşviqat işlərinin aparılması və digər maliyyə dəstəyi tədbirləri həyata keçiriləcəkdir.

Eyni zamanda sahibkarlıq subyektlərinə göstərilən xidmətlər vahid yanaşmada və mərkəzləşdirilmiş qaydada təşkil ediləcək, gömrük sərhəd-buraxılış məntəqələrində keçidin sürətləndirilməsi və yükötürmə qabiliyyətinin artırılması istiqamətində işlər aparılacaqdır.

### 4.1.2. Prioritet 2. Ticarətin inkişafı

Naxçıvan Muxtar Respublikasında iqtisadi aktivliyi artırmaq məqsədilə ərazi ticarət və ticarət qovşağı kimi inkişaf etdiriləcəkdir. Belə ki, üç ölkə ilə sərhəd zonasında yerləşməsi Naxçıvan Muxtar Respublikasına ticarət qovşağı, xüsusilə malların təkrar ixracı (paylaşdırılması) yeri və ya sərhədyanı bazar kimi istifadə üçün əlverişli şərait yaradır. Bu məqsədlə, Naxçıvan Muxtar Respublikasına gətirilən bütün malların (siyahı üzrə Azərbaycan Respublikasında istehsal olunan mallar istisna olmaqla) idxal rüsumundan azad olunması, habelə Naxçıvan şəhərində malların xarici ölkə vətəndaşlarına vergi və gömrük nəzarəti altında idxal rüsumları və əlavə dəyər vergisi olmadan satılması üçün orada Ticarət Mərkəzinin yaradılması məqsədəuyğundur.

Eyni zamanda əlavə olaraq yalnız hava yolu ilə Azərbaycan Respublikasının digər bölgələrindən Naxçıvan Muxtar Respublikasına səfər edən fiziki şəxslərin geri qayıdarkən həmin ticarət mərkəzindən güzəştli qaydada (gömrük ödənişlərini ödəmədən) mal alıb gətirə bilmələri üçün hədlərin və şərtlərin müəyyən edilməsi təklif olunur. Ticarət mərkəzinin yaradılması Bakıdan və Azərbaycanın digər bölgələrindən insanların alış-veriş üçün Naxçıvan Muxtar Respublikasına hava yolu ilə səfərlərini, həmçinin qonşu ölkələrdən insanların ticarət və əyləncə üçün gəlmə ehtimalını artıracaqdır. Aşağı büdcəli hava nəqliyyatı şirkətləri tərəfindən Naxçıvan Muxtar Respublikası ilə digər yerli və xarici hava limanları arasında müntəzəm sərnişin və yük daşınmalarının təşkil edilməsi də ticarət məqsədilə Naxçıvan Muxtar Respublikasına gələnlərin sayının artmasına əhəmiyyətli dəstək verəcəkdir.

Zəngəzur dəhlizi açıldıqdan sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhalisi ilə Naxçıvan Muxtar Respublikasının əhalisi arasında qarşılıqlı ticarət və səfərlər üçün imkanlar yaranacaq, güzəştlərin quru yolu ilə Azərbaycan Respublikasının digər bölgələrindən edilən səfərlərə tətbiqi məsələsinə ayrıca qiymətləndirmə aparılmaqla baxılacaqdır.

Həyata keçiriləcək tədbirlər Naxçıvan Muxtar Respublikasının ərazisində iqtisadi aktivliyin, məşğulluğun və ixracın artmasına, yerli istehsalın maya dəyərinin azalmasına və əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsinə, habelə Naxçıvan Muxtar Respublikasının Azərbaycanın digər bölgələri ilə işgüzar əlaqələrinin güclənməsinə kömək edəcəkdir.

Ticarət qovşağının olması həm də Naxçıvan Muxtar Respublikasında törəmə sahələrin (kafe və restoran, əyləncə mərkəzləri, hotellər) yaranmasına və inkişafına gətirib çıxaracaqdır.

### 4.1.3. Prioritet 3. İxracyönlü sənayenin inkişafı

İxracyönlü sənaye sahəsində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlıq artacaq, istehsal olunmuş sənaye məhsullarının keyfiyyəti yüksələcək, həmçinin yeni iş yerləri yaradılacaqdır. Naxçıvan Muxtar Respublikasında dövlət sənaye sahəsinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında aktiv iştirak edəcək, Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlaması təmin ediləcək, Naxçıvan Muxtar Respublikasında Sənaye Parkı yaradılacaq, istehsal olunan sənaye məhsullarının xarici bazarlara ixracı stimullaşdırılacaq, ixrac potensialının artırılmasına töhfə verən rəqabətqabiliyyətli sənaye sahələrinə dövlət dəstəyi və investisiyalar cəlb olunacaq, innovasiyalar, habelə dövlət-özəl tərəfdaşlığı ilə bu sahədə resurs və xidmət təminatı gücləndiriləcəkdir.

Naxçıvan Muxtar Respublikasında mövcud olan iri müəssisələrin istehsal məhsullarının həm ölkədaxili satışının dəstəklənməsi, həm də xarici bazarlara çıxışının artırılması istiqamətində tədbirlər həyata keçiriləcəkdir.

Bununla yanaşı, mövcud olan təbii ehtiyatlar və xammal bazası əsasında sənaye sahələrinin yaradılması imkanları genişləndiriləcəkdir.

### 4.1.4. Prioritet 4. Kənd təsərrüfatı məhsulları istehsalının və emalının inkişafı

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişaf etdirilməli sahələri müəyyənləşdiriləcək, həmin sahələr üzrə ehtiyacların diaqnostikası aparılacaq və diaqnostika əsasında dəstək tədbirləri müəyyənləşdiriləcək, bitkiçilik, bağçılıq, bostançılıq, heyvandarlıq, arıçılıq sahələrinin inkişaf etdirilməsi, üzümçülük ənənələri nəzərə alınmaqla üzümçülük və şərabçılıq istiqamətində tədbirlər həyata keçiriləcək, mütərəqqi kənd təsərrüfatı təcrübələrinin tətbiqi yolu ilə bu sahələrdə məhsul istehsalının artımına nail olunacaqdır.

Bölgə üçün spesifik və orqanik kənd təsərrüfatı məhsulları müəyyənləşdiriləcək, onların brendləşdirilməsi, təbliği, orqanik məhsulların xarici bazarlara ixracının təşviqi diqqətdə saxlanılacaq, kənd təsərrüfatı məhsullarının emalı, o cümlədən meyvə qurularının istehsalı sahəsi dəstəklənəcək və ixrac imkanları genişləndiriləcəkdir.

Bununla yanaşı, ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün yerli istehsal potensialı və infrastruktur təminatı inkişaf etdiriləcək, aqroparkların yaradılması təşviq olunacaq, kənd təsərrüfatının istehsal vasitələri ilə təminat səviyyəsinin artırılması ilə müvafiq istehsal vasitələrinə əlçatanlıq səviyyəsi artırılacaq, fermerlərin bilik və bacarıqlarının artırılması məqsədilə məsləhət və təlim xidmətləri təşkil olunacaqdır.

### 4.1.5. Prioritet 5. Turizmin inkişafı

Naxçıvan Muxtar Respublikasının duz yataqları, mineral suları, tarixi və dini abidələrindən, ekoturizm üçün təbii əlverişli şəraitindən yararlanmaqla, regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi məqsədilə bu sahənin inkişafına yönəlmiş tədbirlər görüləcəkdir. Sağlamlıq turizminin imkanlarının genişləndirilməsi, qış və kənd turizminin, ekoturizmin inkişaf etdirilməsi, turizm infrastrukturunun yaxşılaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

NaxçıvanMuxtar Respublikasının turizm cəlbediciliyinin artırılması və tarixi memarlıq abidələrinin beynəlxalq səviyyədə qorunması məqsədilə həmin abidələrin UNESCO-nun maddi-mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün iş aparılacaqdır.

Eyni zamanda turizm və rekreasiya zonalarının yaradılması da regionun turizm potensialının gücləndirilməsinə əhəmiyyətli təsir göstərəcək, turizm sahələrinin təbliği ilə bağlı layihələrin həyata keçirilməsi və turizm atlasının hazırlanması təmin ediləcəkdir.

*Ardı 10-cu səh.*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR 2023-2027-Cİ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI

*Əvvəli 9-cu səh.*

**4.1.6. Prioritet 6. Elektrik enerjisi istehsalının və ixracının artırılması**

Türkiyə ilə quru sərhədin mövcudluğu, həmçinin Azərbaycan-Türkiyə-Avropa elektrik dəhlizi layihəsi çərçivəsində Naxçıvan Muxtar Respublikasının ölkənin əsas enerji sistemi ilə əlaqələndirilməsi imkanı, Türkiyəyə elektrik verilişi xəttinin çəkilməsi, elektrik enerjisi ixracı məqsədilə tezlik tənzimlənməsinin Türkiyə Respublikasının enerji sistemi vasitəsilə aparılması və Naxçıvan Muxtar Respublikasının enerji sisteminin Avropa Elektrik Ötürmə Sistemləri Operatorları Assosiasiyasının (ENTSO-E) şəbəkəsinə qoşulması üçün tədbirlər görülməsi Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi istehsalı və ixracı potensialını artıracaq, bu isə ölkənin əlavə enerji gücləri hesabına dünya bazarına(Türkiyəyə və Avropaya) elektrik enerjisi satmaq imkanlarını və alternativlərini genişləndirəcəkdir.

Naxçıvan Muxtar Respublikasında mövcud elektrik stansiyalarınınmodernləşdirilməsi və dövlət-özəl tərəfdaşlığı çərçivəsində yenilərinin tikilməsi, həmçinin bərpaolunan enerji resurslarından (əsasən, günəş) və dövlət-özəl tərəfdaşlığı imkanlarından istifadə etməklə elektrik enerjisi istehsalının artırılması və yeni layihələrin icrası daha çox elektrik enerjisi ixracının həyata keçirilməsini təmin edəcəkdir.

Mövcud elektrik enerjisi xətlərinin və yarımstansiyaların müasir tələblərə uyğun olaraq yenidən qurulması, enerji sistemini operativ idarə etmək, enerjinin keyfiyyətinə nəzarət etmək və monitorinqlər aparılmaq üçün SCADA (nəzarət və məlumatların toplanması sistemi) mərkəzinin yaradılması elektrik təchizatı infrastrukturunun səmərəliliyinin artması, elektrik istehsalı və təchizatı sistemlərində itkilərin davamlı azalması ilə nəticələnəcəkdir.

**4.1.7. Prioritet 7. İnfrastruktur təminatının inkişafı**

Naxçıvan Muxtar Respublikasında ən müasir texnologiyaların tətbiqi telekommunikasiya və poçt xidmətlərinin çeşidini və keyfiyyətini artıracaq, internet xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, təhlükəsizliyin, dayanıqlığın və xidmətlərin fasiləsizliyinin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasında fiber-optik magistral şəbəkə Türkiyə ilə əlaqələndirilməklə yenilənəcək, əhalinin keyfiyyətli internet xidmətlərinə çıxışı asanlaşacaq, həmçinin mobil rabitənin inkişafı ilə bağlı tədbirlər həyata keçiriləcəkdir.

Naxçıvan Muxtar Respublikasında nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən ictimai nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması məqsədilə müvafiq layihələr gerçəkləşdiriləcəkdir.

Aşağı büdcəli hava nəqliyyatı şirkətləri tərəfindən Naxçıvan Muxtar Respublikası ilə yerli və xarici hava limanları arasında müntəzəm sərnişin və yük daşınmaları təşkil ediləcəkdir.

Zəngəzur dəhlizinin açılması burada dəmiryol infrastrukturunun yenilənməsini də zəruri edir. Bu səbəbdən dəmiryol infrastrukturu yenidən qurulacaq, təhlükəsiz, sürətli və dayanıqlı daşıma xidməti təmin ediləcəkdir.

Naxçıvan Muxtar Respublikasının təbii qazla təminatında risklərin azaldılması məqsədilə Türkiyə Respublikasından Naxçıvan Muxtar Respublikasına təbii qaz nəqli üçün boru kəməri çəkiləcəkdir.

Əhalinin həyat şəraitinin yüksəldilməsi üçün rayon mərkəzlərinin və kəndlərin içməli su təminatının artırılması ilə bağlı tədbirlər görüləcəkdir.

Kənd təsərrüfatına yararlı torpaqların su ilə təminatının yaxşılaşdırılması, təsərrüfatlarda mövcud ənənəvi suvarmadan mərhələli olaraq mütərəqqi suvarma sistemlərinə keçidin təmin edilməsi ilə torpaqlardan səmərəli istifadə olunacaq, müasir suvarma infrastrukturu formalaşdırılacaqdır.

**4.1.8. Prioritet 8. Sosial sektorun inkişafı**

Əhalinin təhlükəsiz və rahat yaşayışının təmin olunması, mənzil fondunun inkişaf etdirilməsi və əhalinin yaşayış sahələrinə tələbatının ödənilməsi məqsədilə, dövlət-özəl tərəfdaşlığı çərçivəsində yerli və xarici investorlar cəlb olunmaqla, əhalinin güzəştli şərtlərlə mənzilə əlçatanlığı təmin ediləcəkdir.

Bununla yanaşı, ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin əhatə dairəsi genişlənəcək, aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş, habelə əlilliyi müəyyən edilmiş şəxslərin özünüməşğulluğunun təmin edilməsi istiqamətində sosial layihələr həyata keçiriləcəkdir.

Kütləvi bədən tərbiyəsi və idmanın həyat tərzinə çevrilməsi, böyüməkdə olan gənc nəsil üçün idman alətlərinin əlçatanlığının təmin edilməsi, əhalinin asudə vaxtlarının səmərəli təşkili üçün idman komplekslərinin yaradılması, əhalinin sıx yaşadığı şəhər və rayon məhəllələrində, parklarda və kəndlərdə açıq hava idman qurğularının qurulması layihələri icra olunacaqdır.

Özəl sektor tərəfindən sosial xidmətlərin əhatə dairəsinin genişləndirilməsi məqsədilə özəl təhsil və tibb müəssisələrinin yaradılması üçün sahibkarlar arasında təşviqat işi aparılacaqdır.

**4.1.9. Prioritet 9. İnsan kapitalının inkişafı**

Naxçıvan Muxtar Respublikasının ümumi təhsil müəssisələrində təhsilverənlərin peşəkarlıq səviyyəsinin davamlı olaraq yüksəldilməsini təmin edən innovativ texnologiyalara əsaslanan ixtisasartırma təlimləri təşkil ediləcək, istedadlı uşaqlar üçün liseylərin və təmayülləşmənin əhatə dairəsi genişləndiriləcək, təhsil müəssisələrində elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat (STEAM) əsaslı tədrisin tətbiqi həyata keçiriləcək, Naxçıvan Dövlət Universitetinin nəzdində ingilisdilli orta məktəbin yaradılması layihəsi icra olunacaqdır.

Naxçıvan Muxtar Respublikasında ali təhsilin keyfiyyətinin artırılması məqsədilə Naxçıvan Dövlət Universiteti ilə digər ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlıq gücləndiriləcək, birgə proqramlar təşkil olunacaq, həmçinin ali təhsil müəssisələrində yeni məzmunlu proqramların (SABAH, ingilisdilli tibb fakültəsi, tibbi tədqiqat klinikası və s.) tətbiqi üzrə layihələr həyata keçiriləcəkdir.

İnsan kapitalının inkişaf etdirilməsi məqsədilə peşə təhsilinin əhatə dairəsinin genişləndirilməsi, o cümlədən əmək bazarının tələblərinə uyğun yeni ixtisasların tədrisi, peşə təhsilinin ayrı-ayrı səviyyələri üzrə tələbə qəbulu həyata keçiriləcəkdir. Peşə təhsili müəssisələrində ilk peşə, texniki peşə və yüksək texniki peşə təhsili səviyyələri üzrə fəaliyyətin təşkili peşə təhsilində mövcud sənaye müəssisələrinin tələblərinə uyğun olaraq qurulacaqdır. Muxtar respublikada əmək bazarının tələbələrinə uyğun olaraq xidmət, turizm, informasiya texnologiyaları və digər istiqamətlərdə təlimlərin təşkili həyata keçiriləcək.

Naxçıvan Muxtar Respublikasında startap ekosisteminin inkişaf etdirilməsi, eyni zamanda Azərbaycanda və beynəlxalq arenada özəl sektorun innovasiyasını və inkişafını təşviq etmək üçün tədbirlər həyata keçiriləcək, Gənclərin İnkişaf və Karyera Mərkəzi yaradılacaqdır.

Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə kadr potensialının inkişafına ehtiyac olduğunu nəzərə alaraq, yerli strukturların ölkənin müvafiq dövlətorqanları (qurumları) ilə intensiv təcrübə mübadiləsinin həyata keçirilməsi, əməkdaşların müvafiq təlim və təcrübə səfərlərinin təşkil edilməsi istiqamətində tədbirlər görüləcəkdir.

**4.1.10. Prioritet 10. İnstitusional inkişaf**

Təhsil sahəsi üzrə dövlət xidmətlərinin inkişaf etdirilməsi, optimallaşdırılması və rasionallaşdırılması üçün tədbirlər görüləcək, məktəbdənkənar təhsil müəssisələrində səmərəli idarəetmə sistemi tətbiq olunacaqdır.

Mədəniyyət müəssisələri tərəfindən əhaliyə göstərilən xidmətlərin çeşidinin və keyfiyyətinin artırılması üçün həmin müəssisələrin fəaliyyətinin optimallaşdırılması və sahənin inkişafı ilə bağlı layihələr (tarix-memarlıq abidələrinin mövcud vəziyyətinin qiymətləndirilməsi, bərpa layihələrinin hazırlanması, tarixi eksponatların qorunması, arxeoloji araşdırmalar aparılması və s.) həyata keçiriləcəkdir.

Əmək münasibətləri, məşğulluq, sosial müdafiə, tibb sahələrinə aid fəaliyyətlərin təşkili və dövlət xidmətlərinin inkişaf etdirilməsi məqsədilə bu sahələrdə göstərilən xidmətlər elektronlaşdırılacaqdır.

Eyni zamanda Naxçıvan iqtisadi rayonunun ümumi planı, Naxçıvan Muxtar Respublikası şəhərlərinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün baş planlar hazırlanacaqdır.

Kənd təsərrüfatının dəstəklənməsi ilə bağlı fəaliyyətin və dövlət xidmətlərinin inkişaf etdirilməsi istiqamətində tədbirlər görüləcək, mikro, kiçik və orta biznesin dəstəklənməsi istiqamətində fəaliyyətin inkişaf etdirilməsi məqsədilə xidmət mərkəzləri təşkil ediləcəkdir.

Dövlət əmlakının idarə olunması üzrə fəaliyyət və xidmətlər inkişaf etdiriləcək, yeni sahələrin özəlləşdirməyə açılması, sağlamlaşdırılması və idarəetməyə verilməsi ilə bağlı tədbirlər görüləcəkdir.

Ümumilikdə dövlət qurumlarının xidmətlərinin elektronlaşdırılması istiqamətində layihələr icra ediləcəkdir.

Bununla yanaşı, müvafiq institusional və peşəkar bacarıqların təkmilləşdirilməsi işlərinin həyata keçirilməsi məqsədilə beynəlxalq texniki dəstək və qrant layihələrinin Naxçıvan Muxtar Respublikasına cəlb edilməsi istiqamətində tədbirlər görüləcəkdir.

**4.1.11. Prioritet 11. Ətraf mühitin mühafizəsinin gücləndirilməsi**

Regionda ekoloji tarazlığın qorunması istiqamətində işlər davam etdiriləcək, bioloji müxtəlifliyin qorunması təmin olunacaq, meşə ilə örtülü ərazilərin, yaşıllıqların mühafizəsi gücləndiriləcək, meşəsalma və meşəbərpa tədbirlərinin davam etdirilməsi və yaşıllıq sahələrinin artırılması istiqamətində tədbirlər görüləcəkdir.

Eyni zamanda Naxçıvan Muxtar Respublikasında "yaşıl enerji" potensialının yaradılması, enerji səmərəliliyi və ekoloji təmiz texnologiyaların tətbiqi tədbirləri genişləndiriləcək, ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin (minik avtomobilləri, avtobuslar və s.) dövriyyəsi stimullaşdırılacaqdır.

Regionun təbii resurs potensialından istifadənin davamlı artırılması üçün aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə-Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları üzrə araşdırmalar aparılması, potensial xammal ehtiyatlarının müəyyən edilməsi və təbii sərvətlərin iqtisadi dövriyyəyə cəlb edilməsi məqsədilə təkliflər hazırlanacaq, sudan qənaətlə və səmərəli istifadə ilə bağlı maarifləndirmə tədbirləri həyata keçiriləcək, eləcə də bərk məişət tullantılarının idarəedilməsi vəziyyəti qiymətləndirilərək, müvafiq təkmilləşdirmə işləri ilə bağlı layihələr həyata keçiriləcəkdir.

**5. Hədəf göstəriciləri**

5.1. Dövlət proqramının əsas hədəf göstəriciləri aşağıdakılardır:

5.1.1. dayanıqlı inkişafın təmin olunması;
5.1.2. məşğulluq imkanlarının artırılması;
5.1.3. əhalinin həyat səviyyəsinin yüksəldilməsi;
5.1.4. təbii ehtiyatlardan səmərəli istifadə edilməsi;
5.1.5. ətraf mühitin mühafizəsinin təmin olunması.

**6. Dövlət proqramının maliyyələşmə mənbələri**

6.1. Dövlət proqramı üzrə tədbirlərin icrasının aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

6.1.1. Azərbaycan Respublikasının dövlət büdcəsi;
6.1.2. Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsi;
6.1.3. büdcədənkənar fondlar;
6.1.4. dövlət-özəl tərəfdaşlığı nəticəsində formalaşan maliyyə vəsaiti;
6.1.5. yerli və xarici investisiyalar;
6.1.6. beynəlxalq təşkilatların, donorların və fondların vəsaiti;
6.1.7. qanunla qadağan olunmayan digər mənbələr.

6.2. Dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsinə özəl investisiyaların cəlb olunması təşviq ediləcəkdir.

**7. Dövlət proqramının icrası, monitorinqi və qiymətləndirilməsi**

Dövlət proqramının icrası məqsədilə müvafiq prioritet istiqamətlərə uyğun tədbirləri əhatə edən Tədbirlər Planı hazırlanmışdır. Tədbirlər Planı 5 (beş) illik müddəti əhatə edir. Tədbirlər Planına uyğun olaraq, 2023-2024-cü illər və 2025-2027-ci illər üçün təfsilatlı Tədbirlər planları hazırlanacaqdır.

Dövlət proqramının icrası tədbirlər üzrə ilkin, aralıq və yekun nəticələr nəzərə alınmaqla monitorinq olunacaqdır. Bu göstəricilər müvafiq fəaliyyət istiqamətlərinin icra statusunu qiymətləndirməyə imkan verəcəkdir.

Dövlət proqramı üzrə monitorinq və qiymətləndirmə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası"na əsasən həyata keçiriləcəkdir.

**8. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı**

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **8.1. Prioritet istiqamət 1. Əlverişli biznes mühitinin yaradılması** | | | | | | | |
| 8.1.1. | Azad iqtisadi zonanın yaradılması | İN | NMR NK, DGK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Azad iqtisadi zonanın yaradılması ilə bağlı layihənin hazırlanması | Azad iqtisadi zonanın yaradılması istiqamətində tədbirlər görülməsi | Ticarət və logistika imkanlarının genişlənməsi ilə Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı |
| 8.1.2. | Hüquqi və fiziki şəxslərə vergi, gömrük, sosial sığorta və digər sahələrdə güzəştlərin tətbiq edilməsi | İN | DGK, ƏƏSMN, NMR NK | 2023–2027 | Güzəşt tətbiq olunacaq fəaliyyət sahələrinin müəyyən edilməsi | Vergilərdən azad olunma, sosial sığorta və digər sahələrdə güzəştlərin tətbiq edilməsi | Özəl sektorun inkişafı |
| 8.1.3. | Yerli və xarici investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər görülməsi | İN | NMR NK, ASK | 2023–2027 | Yerli və xarici investorların cəlb olunması | Yerli və xarici investisiyalar əsasında yaradılan istehsalat, ticarət, xidmət və digər sahələrdə yeni müəssisələrin işə salınması | Naxçıvan Muxtar Respublikasının Ümumi Daxili Məhsulunun artımı və yeni iş yerlərinin açılması |
| 8.1.4. | Bank və sığorta xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi | MB | İN, NMR NK | 2023–2027 | Bank və sığorta xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi ilə bağlı diaqnostikanın aparılması | Bank və sığorta xidmətlərinin əhatə dairəsinin genişləndirilməsinin təmin edilməsi | Bank və sığorta xidmətlərinə əlçatanlıq səviyyəsinin artırılması |
| 8.1.5. | Sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi, zəmanət və digər dəstək mexanizmlərinin tətbiq dairəsinin genişləndirilməsi | İN | KTN, NMR NK | 2023–2027 | Sahibkarlıq subyektlərinin güzəştli maliyyə resurslarına çıxış imkanlarının artırılması məqsədilə təşviqat tədbirlərinin həyata keçirilməsi | Sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi | Sahibkarlıq subyektlərinin iqtisadi və maliyyə göstəricilərinin yaxşılaşması |
| 8.1.6. | Gömrük sərhəd buraxılış məntəqələrində keçidin sürətləndirilməsi və yükötürmə qabiliyyətinin artırılması istiqamətində iş aparılması | DGK | MN, DSX, NMR NK | 2023–2027 | İnfrastrukturun yaradılması üçün layihələndirmə işlərinin aparılması | Gömrük sərhəd buraxılış məntəqələrində keçidin sürətləndirilməsi və yükötürmə qabiliyyətinin artırılmasının təmin edilməsi | Gömrük rejiminin sadələşdirilməsi və idxal-ixrac və tranzit dövriyyəsinin artması |
| **8.2. Prioritet istiqamət 2. Ticarətin inkişafı** | | | | | | | |
| 8.2.1. | Naxçıvan Muxtar Respublikasının bütün ərazisi üçün gömrük rüsum güzəştini (siyahı üzrə Azərbaycanda istehsal edilən mallar istisna olmaqla) nəzərdə tutan xüsusi gömrük rejiminin (zonasının) yaradılması | DGK | NMR NK, İN, MN | 2023–2027 | Hüquqi bazanın formalaşdırılması | Xüsusi gömrük rejiminin (zonasının) fəaliyyətə başlaması | |
| 8.2.2. | Naxçıvan şəhərində rüsumsuz ticarət mağazalarına bərabər güzəştlərin tətbiq olunduğu Ticarət Mərkəzinin yaradılması | NMR NK | DGK, İN, MN | 2023–2027 | Ticarət Mərkəzinin yerləşəcəyi yerin müəyyən edilməsi, hüquqi bazanın formalaşdırılması | Ticarət Mərkəzinin fəaliyyətə başlaması | Əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsi, turistlərin cəlb edilməsi və iqtisadi aktivliyin artması |
| 8.2.3. | Hava yolu ilə Naxçıvan Muxtar Respublikasına səfər edən, Azərbaycan Respublikasının digər bölgələrindən olan fiziki şəxslər üçün idxal gömrük ödənişləri üzrə güzəşt hədlərinin və şərtlərinin müəyyən edilməsi | DGK | İN, NMR NK, MN | 2023–2027 | Hüquqi bazanın formalaşdırılması | Güzəştlərin tətbiqinə başlanılması | |
| 8.2.4. | Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların digər bazarlara ixracını təşviq etmək məqsədilə logistik dəstək verilməsi | İN | RİNN, NMR NK | 2023–2027 | Müvafiq sahədə dəstəkverilməsinə dair təkliflər hazırlanması | Məhsullara daşıma dəstəyinin verilməsi | İxracın həcminin davamlı artması |
| **8.3. Prioritet istiqamət 3. İxracyönlü sənayenin inkişafı** | | | | | | | |
| 8.3.1. | Naxçıvan Muxtar Respublikasında sənaye parkının yaradılması | İN | NMR NK | 2023–2027 | Sənaye parkının yaradılması üçün müvafiq sənədlərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Sənaye parkının fəaliyyətə başlaması | Sənaye sahəsinin inkişafı, yeni iş yerlərinin açılması |
| 8.3.2. | Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlamasının təmin edilməsi | İN | NMR NK | 2023–2027 | İnvestorların cəlb edilməsi | İstehsalın təşkil edilməsi | Sənaye sahəsinin inkişafı və məşğulluğun artması |
| 8.3.3. | Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların ixrac coğrafiyasının şaxələndirilməsi | İN | NMR NK, KTN, AQTA, DGK | 2023–2027 | İstehsal olunan məhsulların vahid reyestrinin və rəqəmsal kataloqunun yaradılması | Hədəf bazarlar üzrə məhsul/bazar matrisinin hazırlanması, çatışmazlıqlarınmüəyyənləşdirilməsi və aradan qaldırılması | Naxçıvan Muxtar Respublikasında ixracın artması və ixrac bazarlarının genişlənməsi |
| 8.3.4. | İxracyönlü potensial sənaye sahələri üzrə layihələrin hazırlanması və layihələrə investisiyaların cəlb edilməsi istiqamətində işaparılması | İN | KTN, EN, ETSN, NMR NK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Potensial sahələrin müəyyənləşdirilməsi, layihələrin hazırlanması və investorların cəlb edilməsi ilə bağlı tədbirlər görülməsi | Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına birbaşa xarici investisiyaların cəlb edilməsi | Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı və yeni iş yerlərinin yaradılması |
| 8.3.5. | İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələrdə Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsullardan istifadənin təşviq edilməsi | İN | NMR NK, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri və digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Mövcud istehsal sahələrinin potensialının qiymətləndirilməsi | İstehsal olunan məhsullardanişğaldan azad edilmiş ərazilərdə istifadə olunması | Məhsul istehsalının artması, infrastrukturun genişlənməsi, məşğulluğun artması |
| **8.4. Prioritet istiqamət 4. Kənd təsərrüfatı məhsulları istehsalının və emalının inkişafı** | | | | | | | |
| 8.4.1. | Bitkiçiliyin, o cümlədən bağçılıq, üzümçülük və bostançılığın inkişaf etdirilməsi | KTN | NMR NK, İN | 2023–2027 | Naxçıvan Muxtar Respublikasında həmin sahələrin mövcud vəziyyətinin və inkişaf imkanlarının diaqnostikası, diaqnostikanın nəticələri əsasında prioritet altsahələr və dəstək tədbirləri barədə təkliflər hazırlanması | Müvafiq sahələrin inkişafı ilə bağlı dəstək tədbirlərinin həyata keçirilməsi | Kənd təsərrüfatında məhsul istehsalının artması |
| 8.4.2. | Heyvandarlığın və arıçılığın inkişaf etdirilməsi | KTN | NMR NK, İN | 2023–2027 | Naxçıvan Muxtar Respublikasında həmin sahələrin mövcud vəziyyətinin və inkişaf imkanlarının diaqnostikası, diaqnostika nəticələri əsasında prioritet altsahələr və dəstək tədbirləri barədə təkliflər hazırlanması | Müvafiq sahələrin inkişafı ilə bağlı dəstək tədbirlərinin həyata keçirilməsi | Kənd təsərrüfatında məhsul istehsalının artması |
| 8.4.3. | Naxçıvan Muxtar Respublikası üçün spesifik və orqanik kənd təsərrüfatı məhsullarının brendləşdirilməsi və təşviqi | NMR NK | KTN, İN | 2023–2027 | Orqanik kənd təsərrüfatı məhsullarının müəyyənləşdirilməsi | Müəyyənləşdirilmiş orqanik məhsulların təbliği, orqanik məhsulların xarici bazarlara ixracının təşviq edilməsi | Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişafı və əhalinin gəlirlərinin artması |
| 8.4.4. | Kənd təsərrüfatı məhsullarının emal və qablaşdırmasahələrinin inkişaf etdirilməsi | NMR NK | İN, KTN | 2023–2027 | Müvafiq emal sahələrinin və sahələrin inkişafı üçün dəstək alətlərinin müəyyənləşdirilməsi | Müvafiq mexanizmlər vasitəsilə müəyyənləşdirilmiş emal sahələrinin inkişaf etdirilməsi üçün dəstək göstərilməsi | Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı, əhalinin məşğulluğunun və gəlirlərinin artması |
| 8.4.5. | Kənd təsərrüfatı istehsal vasitələri ilə təminat səviyyəsinin artırılması | KTN | NMR NK | 2023–2027 | Fermerlərin toxum, ting, yem istehsalı və kənd təsərrüfatı texnikası ilə təminat səviyyəsinin qiymətləndirilməsi | Müvafiq istehsal vasitələrinə əlçatanlığın və təminatın yaxşılaşdırılması | Kənd təsərrüfatında məhsuldarlığın və əhalinin gəlirlərinin artması |
| 8.4.6. | Fermerlərə məsləhət xidmətləri göstərilməsinin təşkili | NMR NK | KTN | 2023–2027 | Fermerlərin müvafiq məsləhət və təlim ehtiyaclarının müəyyənləşdirilməsi | Müəyyənləşdirilmiş ehtiyaclar əsasında məsləhət və təlim xidmətlərinin təşkili | Fermerlərin müvafiq sahələrdə bilik və bacarıqlarının inkişafı, müvafiq sahələrdə məhsul istehsalının artması |
| 8.4.7. | Aqroparkların yaradılması | NMR NK | İN, KTN | 2023–2027 | Müvafiq qanunvericiliyin formalaşdırılması, aqroparklar yaradılacaq ərazilərin müəyyənləşdirilməsi | Aqroparkların fəaliyyətə başlaması | Kənd təsərrüfatı sahəsində məhsul istehsalının və məşğulluğun artması |
| **8.5. Prioritet istiqamət 5. Turizmin inkişafı** | | | | | | | |
| 8.5.1. | Turizm infrastrukturunun yaxşılaşdırılması | NMR NK | DTA | 2023–2027 | Müvafiq sahədə layihə təkliflərinin hazırlanması | Müvafiq infrastrukturların qurulması | Turizm infrastrukturunun inkişafı |
| 8.5.2. | Müxtəlif turizm növlərinin (qış, kənd, eko və s.) inkişaf etdirilməsi və turizm atlasının hazırlanması | NMR NK | DTA | 2023–2027 | Turizm növlərinin inkişafına dair layihələrin hazırlanması | Müvafiq layihələrin həyata keçirilməsi, turizm atlasının hazırlanması | Turizmin inkişafı, xarici və yerli turistlərin sayının artması |
| 8.5.3. | Naxçıvan Muxtar Respublikasının bəzi tarixi memarlıq abidələrinin UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün iş aparılması | MdN | NMR NK | 2023–2027 | Müvafiq siyahıya salınacaq tarixi memarlıq abidələrinin müəyyənləşdirilməsi | Tarixi memarlıq abidələrinin UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması | Naxçıvan Muxtar Respublikasının turizm cəlbediciliyinin artması və tarixi memarlıq abidələrinin beynəlxalq səviyyədə qorunması |
| 8.5.4. | Turizm və rekreasiya zonalarının yaradılması | DTA | NMR NK | 2023–2027 | Turizm və rekreasiya zonaları layihələrinin hazırlanması | Turizm və rekreasiya zonalarının yaradılmasıüçün tədbirlər görülməsi | Turizmin inkişafı, xarici və yerli turistlərin sayının artması |
| **8.6. Prioritet istiqamət 6. Elektrik enerjisi istehsalının və ixracının artırılması** | | | | | | | |
| 8.6.1. | Dövlət–özəl tərəfdaşlığı ilə yeni istilik elektrik stansiyalarının tikintisi | EN | NMR NK | 2023–2027 | Müvafiq elektrik stansiyalarının tikintisinin layihələndirilməsi | Layihələrə uyğun olaraq, yeni elektrik stansiyalarının tikintisi ilə bağlı zəruri işlər görülməsi | Elektrik enerjisi istehsalının artması |
| 8.6.2. | Elektrik stansiyalarının mərhələli olaraq əsaslı təmir edilməsi | EN | NMR NK | 2023–2027 | Əsaslı təmir olunacaq elektrik stansiyalarının seçilməsi | Elektrik stansiyalarında əsaslı təmir işlərinin aparılması | Elektrik təchizatının yaxşılaşması, elektrik enerjisi istehsalının artması |
| 8.6.3. | Mövcud elektrik enerjisi xətlərinin və yarımstansiyaların müasir tələblərə uyğun olaraq yenidən qurulması | NMR NK | EN | 2023–2027 | Müvafiq sahədə layihələrin hazırlanması | Elektrik enerjisi xətlərinin və yarımstansiyaların yenidən qurulması işlərinin aparılması | Elektrik təchizatı infrastrukturunun səmərəliliyinin artması |

*Ardı 11-ci səh.*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR 2023-2027-Cİ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI

*Əvvəli 10-cu səh.*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.6.4. | Su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi | NMR NK | EN | 2023–2027 | Müvafiq su elektrik stansiyalarının tikintisi layihələrinin hazırlanması | Su elektrik stansiyalarının tikintisi ilə bağlı zəruri işlər görülməsi | Elektrik təchizatının yaxşılaşması, elektrik enerjisi istehsalının artması |
| 8.6.5. | Dövlət–özəl tərəfdaşlığı ilə alternativ və bərpa olunan enerji mənbələrinin yaradılmasının davam etdirilməsi | EN | NMR NK | 2023–2027 | Müvafiq sahədə enerji potensialının dəqiqləşdirilməsi, təkliflər hazırlanması və özəl sektora təqdim olunması | Naxçıvan Muxtar Respublikasında günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı layihələrin icrası | "Yaşıl enerji" istehsalının artması |
| 8.6.6. | Xarici ölkələrə birbaşa elektrik enerjisi ixracının həyata keçirilməsi | NMR NK | EN, MN | 2023–2027 | Müvafiq layihənin hazırlanması | Naxçıvan–Türkiyə yüksəkgərginlikli elektrik xətlərinin çəkilməsi | Elektrik enerjisi ixracının artması |
| 8.6.7. | Yeni generasiya güclərinin enerji sisteminə etibarlı inteqrasiyası üçün infrastrukturun qurulması | NMR NK | EN | 2023–2027 | Müvafiq sahədə yeni infrastrukturun qurulmasına dair təkliflər hazırlanması | Təkliflərə uyğun olaraq yeni infrastrukturun qurulması istiqamətində tədbirlərin həyata keçirilməsi | Elektrik təchizatının yaxşılaşması |
| 8.6.8. | Enerji səmərəliliyinin təmin edilməsi ilə bağlı tədbirlər görülməsi | NMR NK | EN | 2023–2027 | Enerji səmərəliliyinin təmin edilməsinə dair layihələr hazırlanması | Enerji sistemini operativ idarə etmək, enerjinin keyfiyyətinə nəzarət və monitorinqlərin aparılması üçün SCADA (nəzarət və məlumatların toplanması sistemi)mərkəzinin yaradılması | Elektrik istehsalı və təchizatı sistemlərində itkilərin davamlı azaldılması |
| 8.6.9. | Elektrik enerjisinin ixracı məqsədilə tezlik tənzimlənməsinin Türkiyə Respublikasının enerji sistemi vasitəsilə aparılması və Naxçıvan Muxtar Respublikasının enerji sisteminin ENTSO-E (Avropa Elektrik Ötürmə Sistemləri Operatorları Assosiasiyası) şəbəkəsinə qoşulması üçün tədbirlər görülməsi | EN | NMR NK | 2023–2027 | ENTSO-E şəbəkəsinə qoşulma üçün imkanların müəyyən edilməsi | ENTSO-E şəbəkəsinə qoşulma üçün tədbirlər görülməsi | Tezlik tənzimlənməsininTürkiyə enerji sistemi vasitəsilə aparılması |
| 8.6.10. | Yeni enerji dəhlizinin Naxçıvan Muxtar Respublikası ərazisindən keçəcək hissəsində müvafiq infrastrukturun yaradılması | NMR NK | EN | 2023–2027 | Tikintisi planlaşdırılan energetika qurğularının müəyyən edilməsi | Energetika qurğularının tikintisi | Elektrik enerjisi ixracının artması |
| **8.7. Prioritet istiqamət 7. İnfrastruktur təminatının inkişafı** | | | | | | | |
| 8.7.1. | Müasir texnologiyaların tətbiq edilməsi ilə telekommunikasiya və poçt xidmətlərinin çeşidinin və keyfiyyətinin artırılması | NMR NK | RİNN | 2023–2027 | Müvafiq sahədə müasir informasiya texnologiyalarının tətbiqinə dair layihələrin hazırlanması | Müvafiq sahədə müasir informasiya texnologiyalarının tətbiqinə dair layihələrin həyata keçirilməsi | Keyfiyyətli telekommunikasiya və poçt xidmətləri ilə təminat səviyyəsinin artırılması |
| 8.7.2. | Mobil rabitənin inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi | RİNN | NMR NK | 2023–2027 | Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən mobil operatorların telekommunikasiya şəbəkələrinin "Mərkəzi Baza Sistemi"nə inteqrasiyası | İstehlakçılara nömrə resurslarının ayrılması və onlardan istifadənin əlçatanlığının artırılması | Mobil rabitə xidmətinin keyfiyyətinin yüksəlməsi |
| 8.7.3. | İnternet xidmətlərinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi | NMR NK | RİNN | 2023–2027 | Şəbəkənin texniki imkanlarının artırılması | Müvafiq şəbəkələrdən istifadənin təşviqi və genişləndirilməsi | Telefon və internet xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və müştəri məmnunluğuna nail olunması |
| 8.7.4. | Fiber-optik magistral şəbəkənin yenilənməsi | NMR NK | RİNN | 2023–2027 | Naxçıvan Muxtar Respublikasında yüksəksürətli internet xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi | Xidmətlərin keyfiyyətinin yüksəldilməsi, dayanıqlığın və xidmətlərin fasiləsiz göstərilməsinin təmin edilməsi | İnternet xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, müştəri məmnunluğuna nail olunması |
| 8.7.5. | Nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi | NMR NK | RİNN | 2023–2027 | Nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi məqsədilə layihə təkliflərinin hazırlanması | Müvafiq sahədə layihələrin həyata keçirilməsi | Nəqliyyat xidmətlərinin inkişaf etdirilməsi, ictimai nəqliyyatın keyfiyyətinin artırılması |
| 8.7.6. | Aşağı büdcəli hava nəqliyyatı şirkətləri tərəfindən Naxçıvan Muxtar Respublikası ilə digər yerli və xarici hava limanları arasında müntəzəm sərnişin və yük daşınmalarının təşkil edilməsi | AZAL | RİNN, İN, NMR NK | 2023–2027 | Potensial aviaşirkətlərin müəyyən olunması ilə bağlı araşdırmalar aparılması, Naxçıvan Hava Limanına uçuşlar etməyə marağı olan aviaşirkətlərlə danışıqlar aparılması | Müqavilələrin bağlanılması və aviaşirkətlərin fəaliyyətə başlaması | Naxçıvan Muxtar Respublikasından hava nəqliyyatı ilə daşımaların sayının artması |
| 8.7.7. | Dəmiryol infrastrukturunun inkişafı | ADY | RİNN, MN, NMR NK | 2023–2027 | Dəmiryol infrastrukturunun yenidən qurulması istiqamətində zəruri hazırlıq işlərinin tamamlanması | Tikinti-quraşdırma işlərinin həyata keçirilməsi | Dəmiryol infrastrukturunun yenidən qurulması ilə təhlükəsiz, sürətli və dayanıqlı daşıma xidmətinin həyata keçirilməsi |
| 8.7.8. | Türkiyə Respublikasından Naxçıvan Muxtar Respublikasına təbii qaz nəqli üçün boru kəmərinin çəkilməsi | SOCAR | EN, NMR NK | 2023–2027 | Layihə sənədlərinin hazırlanması | Təbii qaz təchizatı üçün kəmərin tikintisinin həyata keçirilməsi | Qaz təchizatının dayanıqlığının yaxşılaşdırılması |
| 8.7.9. | Torpaqların su ilə təminatının yaxşılaşdırılması ilə bağlı tədbirlər görülməsi | ADSEA | NMR NK | 2023–2027 | Müvafiq sahədə layihə sənədlərinin hazırlanması | Layihə sənədləri əsasında bərpa və tikinti işlərinin aparılması | Torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi |
| 8.7.10. | Təsərrüfatlarda mövcud ənənəvi suvarmadan mərhələli olaraq mütərəqqi suvarma sistemlərinə keçidin təmin edilməsi | NMR NK | KTN | 2023–2027 | Müasir suvarma sistemlərinin tətbiqinə dair layihələrin hazırlanması | Müasir suvarma sistemlərinin tətbiqinin həyata keçirilməsi | Sudan səmərəli istifadə və su itkilərinin qarşısının alınması |
| 8.7.11. | Rayon mərkəzlərinin və kəndlərin içməli su təminatının artımı ilə bağlı tədbirlər görülməsi | NMR NK | ADSEA | 2023–2027 | Müvafiq sahədə layihələrin hazırlanması | İçməli su təminatının yaxşılaşdırılması ilə bağlı layihələrin həyata keçirilməsi | Əhalinin içməli su ilə təminatının artması |
| **8.8. Prioritet istiqamət 8. Sosial sektorun inkişafı** | | | | | | | |
| 8.8.1. | Əhalinin mənzil alışına əlçatanlığının yaxşılaşdırılması | MB | MİDA, İKZF | 2023–2027 | İpoteka kreditləşməsinin tətbiqi və sosial mənzillərin tikintisinin aparılması ilə bağlı layihənin hazırlanması | İpoteka kreditləşməsinin həyata keçirilməsi, sosial mənzillərin tikintisi | Əhalinin mənzil təminatının yaxşılaşdırılması |
| 8.8.2. | Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin əhatə dairəsinin genişləndirilməsi | NMR NK | ETN | 2023–2027 | Yeni internat məktəbi binasının inşası ilə bağlı layihə sənədlərinin hazırlanması | Yeni internat məktəbi binasının inşası, təchizatı və fəaliyyətinin təşkil edilməsi | Aztəminatlı və xüsusi himayəyə ehtiyacı olan uşaqların təhsil imkanlarının genişləndirilməsi |
| 8.8.3. | Aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş, habelə sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluğunun təmin olunması istiqamətində sosial layihələrin həyata keçirilməsi | NMR NK | ƏƏSMN | 2023–2027 | Müvafiq sahədə mexanizmlər və normativ hüquqi bazaya dair təkliflər hazırlanması və qəbul edilməsi | Müvafiq sahədə tədbirlərin həyata keçirilməsi | Müvafiq şəxslərin sosial xidmətlərlə əhatəliliyinin artması |
| 8.8.4. | Əhalinin asudə vaxtının səmərəli təşkili üçün idman komplekslərinin yaradılması və açıq hava idman qurğularının qurulması | NMR NK | GİN | 2023–2027 | Müvafiq layihələrin hazırlanması | İdman komplekslərinin və qurğularının quraşdırılması | Gənclərin asudə vaxtının səmərəli təşkili |
| 8.8.5. | Özəl təhsil və tibb müəssisələrinin yaradılmasının təşviq edilməsi | NMR NK | ETN, SN | 2023–2027 | Özəl təhsil və tibb müəssisələrinin yaradılması üçün təşviqat tədbirlərinin həyata keçirilməsi | Özəl təhsil və tibb müəssisələrinin fəaliyyətə başlaması | Əhalinin keyfiyyətli təhsil və tibb xidmətlərinə çıxışının yaxşılaşdırılması |
| **8.9. Prioritet istiqamət 9. İnsan kapitalının inkişafı** | | | | | | | |
| 8.9.1. | Peşə təhsilinin inkişaf etdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi | NMR NK | ETN, ƏƏSMN | 2023–2027 | Peşə təhsilinin inkişaf etdirilməsi ilə bağlı layihə təkliflərinin hazırlanması | Müvafiq layihələrin icra edilməsi | Əmək bazarının tələblərinə uyğun peşə təhsilli gənclərin sayının artması |
| 8.9.2. | Ümumtəhsil müəssisələrində təhsilin keyfiyyətinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi | NMR NK | ETN | 2023–2027 | Təhsilin keyfiyyətinin artırılması ilə bağlı layihə təkliflərinin hazırlanması | Müvafiq layihələrin həyata keçirilməsi | Orta təhsilin keyfiyyət göstəricilərinin artması |
| 8.9.3. | Naxçıvan Dövlət Universitetinin nəzdində ingilisdilli orta məktəbin yaradılması | NMR NK | ETN | 2023–2027 | Müvafiq orta məktəbin yaradılması ilə bağlı layihə hazırlanması | İngilisdilli orta məktəbin fəaliyyətə başlaması | Orta təhsilin keyfiyyət göstəricilərinin artması |
| 8.9.4. | Ali təhsil müəssisələrində yeni məzmunlu proqramların (SABAH, ingilisdilli tibb fakültəsi, tibbi tədqiqat klinikası və s.) tətbiq edilməsi | NMR NK | ETN, SN | 2023–2027 | Müvafiq sahədə layihə təkliflərinin hazırlanması | Müvafiq layihələrin həyata keçirilməsi | Ali təhsilin keyfiyyət göstəricilərininyüksəlməsi |
| 8.9.5. | Naxçıvan Dövlət Universiteti ilə xarici ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi, birgə proqramların təşkili | NMR NK | ETN | 2023–2027 | Müvafiq layihə təklifinin hazırlanması və danışıqlar aparılması | Əməkdaşlıq layihələrinin həyata keçirilməsi | Ali təhsilin keyfiyyət göstəricilərininyüksəlməsi |
| 8.9.6. | Gənclərin İnkişaf və Karyera Mərkəzinin yaradılması | GF | NMR NK | 2023–2027 | Müvafiq sahədə təkliflərin hazırlanması | Müasir gənclər məkanının yaradılması | Gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların ideoloji hazırlığı, şəxsi inkişafı istiqamətində fəaliyyətin təşkili |
| 8.9.7. | Gənclərin şəxsi və peşəkar inkişafı üçün tədbirlərin həyata keçirilməsi | GİN | GF, NMR NK | 2023–2027 | Müvafiq sahədə layihə təkliflərinin hazırlanması | Müvafiq layihələrin həyata keçirilməsi | Gənclərin intellektual və yaradıcı potensialının artması və cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakının təmin edilməsi |
| 8.9.8. | Dövlət qulluğundabilik, bacarıq və səriştənin inkişaf etdirilməsiilə bağlı tədbirlərin həyata keçirilməsi | DİA | DİM, NMR NK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Dövlət qulluqçularının bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi üçün təlim modullarının hazırlanması | Müvafiq dövlət orqanlarında (qurumlarında) dövlət qulluqçularının təlimlərə cəlb edilməsi | Dövlət orqanlarında (qurumlarında) qulluq keçən dövlət qulluqçularının bilik, bacarıq və səriştələrinin artması |
| 8.9.9. | Startap layihələrin dəstəklənməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi | RİNN | İN, NMR NK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Müvafiq sahədə layihə təkliflərinin hazırlanması | Müvafiq layihələrin həyata keçirilməsi | Naxçıvan Muxtar Respublikasında startap təfəkkürünün və regionun innovasiyaekosisteminin inkişafı |
| **8.10. Prioritet istiqamət 10. İnstitusional inkişaf** | | | | | | | |
| 8.10.1. | Təhsil sahəsi üzrə dövlət xidmətlərinin inkişaf etdirilməsi | NMR NK | ETN | 2023–2027 | Təhsil müəssisələrində göstərilən xidmətlərin çeşidinin və keyfiyyətinin artırılması ilə bağlı layihə təkliflərinin hazırlanması | Təhsil müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi | Təhsil müəssisələrində xidmətlərin keyfiyyətinin yüksəlməsi |
| 8.10.2. | Mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və mədəniyyət sahəsinin inkişafının təmin edilməsi | NMR NK | MdN, AMEA | 2023–2027 | Mədəniyyət müəssisəsinin fəaliyyətinin optimallaşdırılması və sahənin inkişafı ilə bağlı layihələrin hazırlanması | Müvafiq sahədə layihələrin həyata keçirilməsi | Mədəniyyət müəssisələri tərəfindən əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəlməsi |
| 8.10.3. | Naxçıvan Muxtar Respublikasının dövlət orqanları (qurumları) ilə Azərbaycan Respublikasının dövlət orqanları (qurumları) arasında əməkdaşlığın gücləndirilməsi və müvafiq məlumat mübadiləsinin təmin edilməsi | PA | NK, NMR NK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Müvafiq sahədə layihə təkliflərinin hazırlanması | Müvafiq sahələrdə əməkdaşlığın inkişafı və məlumat mübadiləsinin təmin edilməsi üçün tədbirlər görülməsi | Dövlət xidmətlərinin keyfiyyət səviyyəsinin yüksəlməsi |
| 8.10.4. | Əmək münasibətləri, məşğulluq, sosial müdafiə sahələrinə aid fəaliyyətin təşkilinin və dövlət xidmətlərinin inkişaf etdirilməsi | NMR NK | ƏƏSMN | 2023–2027 | Müvafiq sahədə layihə təkliflərinin hazırlanması | Müvafiq sahədə tədbirlərin həyata keçirilməsi | Müvafiq sahələrdə göstərilən xidmətlərin keyfiyyət səviyyəsinin yüksəlməsi |
| 8.10.5. | Tibb sahəsi üzrə dövlət xidmətlərinin inkişaf etdirilməsi | NMR NK | İTSDA, SN | 2023–2027 | Tibb müəssisələrində xidmətlərin inkişafına dair layihələrin hazırlanması | Tibb müəssisələrində xidmətlərin inkişaf etdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi | Tibb müəssisələrində xidmətlərin keyfiyyət səviyyəsinin yüksəlməsi |
| 8.10.6. | Naxçıvan iqtisadi rayonunun ümumi planının hazırlanması | DŞAK | Digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2025 | Ümumi planın sifariş olunması | İnkişaf istiqamətlərinin müəyyən edilməsi ilə ümumi planın hazırlanması | Ümumi planın təsdiq olunması |
| 8.10.7. | Naxçıvan Muxtar Respublikası şəhərlərinin baş planlarının hazırlanması | DŞAK | NMR NK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Baş planların sifariş olunması | Şəhər torpaqlarından istifadə növlərini müəyyən etməklə baş planların hazırlanması | Baş planların təsdiq olunması |
| 8.10.8. | Kənd təsərrüfatı sahəsinin dəstəklənməsi ilə bağlı fəaliyyətin və dövlət xidmətlərinin inkişaf etdirilməsi | KTN | NMR NK | 2023–2027 | Müvafiq sahədə dəstək mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması | Kənd təsərrüfatı sahəsinin dəstəklənməsi ilə bağlı fəaliyyət və xidmətlərin həyata keçirilməsi | Aqrar istehsalın və emalın iqtisadi göstəricilərdə payının artması |
| 8.10.9. | Mikro, kiçik və orta biznesin dəstəklənməsi istiqamətində fəaliyyətin inkişaf etdirilməsi və dövlət xidmətlərinin təşkil edilməsi | İN | NMR NK | 2023–2027 | "KOB dostu" ofislərinin yaradılması ilə bağlı layihələrin hazırlanması | "KOB dostu" ofislərinin yaradılması və xidmətlərin təşkili | Sahibkarların müvafiq dəstək xidmətlərinə əlçatanlığının yaxşılaşdırılması |
| 8.10.10. | Sahibkarlıq subyektləritərəfindənvergi sahəsində könüllü əməletmə səviyyəsininartırılması | İN | NMR NK | 2023–2027 | Naxçıvan şəhərində vergi ödəyicilərinə xidmət mərkəzinin yaradılması | Digər şəhər və rayonlarda vergi ödəyicilərinə xidmət mərkəzlərinin yaradılması | Sahibkarlara xidmət səviyyəsinin yüksəldilməsinə nail olmaqla sahibkarlar tərəfindən könüllü əməletmə səviyyəsinin yüksəlməsi |
| 8.10.11. | Dövlət əmlakının idarə edilməsi sahəsində fəaliyyətin və xidmətlərin inkişaf etdirilməsi | İN | NMR NK | 2023–2027 | Dövlət əmlakının idarəedilməsi sahəsində müvafiq fəaliyyətvə xidmətlərin inkişaf etdirilməsi ilə bağlı layihələrin hazırlanması | Dövlət əmlakının idarə edilməsi sahəsində müvafiq fəaliyyətin icrası və xidmətlərin təşkil edilməsi | Müvafiq sahədə dövlət xidmətlərinin keyfiyyət səviyyəsinin yüksəlməsi |
| 8.10.12. | Dövlət qulluğuna qəbul və inzibati dövlət qulluğu vəzifələrinin tutulmasınınmərkəzləşdirilmiş qaydada həyata keçirilməsi | NMR NK | NK, DİM, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2023–2027 | Qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanması və təsdiq edilməsi | Naxçıvan Muxtar Respublikası ərazisində dövlət qulluğuna qəbul və inzibati vəzifələrin tutulması üzrə vahid yanaşmanın tətbiq edilməsi | Dövlət qulluğuna qəbulda şəffaflığın artması |
| 8.10.13. | Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) xidmətlərinin rəqəmsallaşdırılması istiqamətində tədbirlər görülməsi | RİNN | NMR NK | 2023–2027 | Naxçıvan Muxtar Respublikasında elektron xidmətlərdən istifadənin asanlaşdırılması | Naxçıvan Muxtar Respublikasında elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi | Elektron xidmətlərdə rəqəmsal həllərin tətbiqinin şaxələndirilməsi |
| 8. 10.14. | Texniki yardım və qrant layihələrinin Naxçıvan Muxtar Respublikasına cəlb edilməsi | İN | NMR NK, aidiyyəti qurumlar | 2023–2027 | Müvafiq donor təşkilatlarla danışıqlar aparılması və layihələrin müəyyənləşdirilməsi | Texniki yardım və qrant layihələrinin icra edilməsi | Beynəlxalq təcrübələrin tətbiqi ilə sosial-iqtisadi sahələrdə inkişafa nail olunması |
| **8.11. Prioritet istiqamət 11. Ətraf mühitin mühafizəsinin gücləndirilməsi** | | | | | | | |
| 8.11.1. | Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatlarından istifadə potensialının artırılması | NMR NK | ETSN, İN, aidiyyəti qurumlar | 2023–2027 | Potensial xammal ehtiyatlarının müəyyən edilməsi və təbii sərvətlərin iqtisadi dövriyyəyə cəlbi məqsədilə təkliflər hazırlanması | Müvafiq sahədə layihələrin icra edilməsi | Naxçıvan Muxtar Respublikasının təbii resurslarındansəmərəli istifadənin təmin edilməsi |
| 8.11.2. | Meşəsalma və meşəbərpa tədbirlərinin görülməsi | NMR NK | ETSN | 2023–2027 | Meşəsalma və meşəbərpa işləri aparılacaq ərazilərin müəyyənləşdirilməsi | Meşəsalma və meşəbərpa işlərinin aparılması | Meşə fondu torpaqlarında meşə ilə örtülü sahələrin artması |
| 8.11.3. | Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin (minik avtomobilləri, avtobuslar və s.) dövriyyəsinin stimullaşdırılması | NK | RİNN, NMR NK, İN, DGK | 2023–2027 | Elektrik mühərrikli və hibrid nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması məqsədilə vergi-gömrük güzəştlərinin tətbiqi | Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrindən (minik avtomobilləri, avtobuslar və s.) istifadənin artırılması | Ekoloji vəziyyətin yaxşılaşması |
| 8.11.4. | Biomüxtəlifliyin qorunması ilə bağlı tədbirlərin həyata keçirilməsi | NMR NK | ETSN | 2023–2027 | Müvafiq sahədə layihə təkliflərinin hazırlanması | Biomüxtəlifliyin qorunması ilə bağlı tədbirlərin həyata keçirilməsi | Biomüxtəlifliyin qorunması |
| 8.11.5. | Sudan qənaətli və səmərəli istifadə ilə bağlı maarifləndirmə tədbirlərinin görülməsi | NMR NK | KTN, ADSEA | 2023–2027 | Müvafiq sahədə həyata keçiriləcək layihələrlə bağlı təkliflər hazırlanması | İçməli sudan qənaətlə istifadə edilməsi ilə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Əhalinin sudan qənaətlə istifadə ilə bağlı məlumatlılıq səviyyəsinin artması |
| 8.11.6. | Bərk məişət tullantılarının idarə olunması ilə bağlı işlər görülməsi | ETSN | Təmiz Şəhər" ASC, NMR NK | 2023–2027 | Bərk məişət tullantılarının idarə olunmasına dair layihə təkliflərinin hazırlanması | Bərk məişət tullantılarının idarə olunması tədbirlərinin həyata keçirilməsi | Bərk məişət tullantılarının idarə olunmasınıntəkmilləşdirilməsi və əhatə dairəsinin genişlənməsi |

### AKRONİMLƏR VƏ İXTİSARLAR

ADSEA - Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi
ADY - "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti
AMEA - Azərbaycan Milli Elmlər Akademiyası
AQTA - Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi
ASK - Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası
AZAL - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti
DGK - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
DİA - Dövlət İdarəçilik Akademiyası
DİM - Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi
DSX - Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti
DŞAK - Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
DTA - Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
EN - Azərbaycan Respublikasının Energetika Nazirliyi
ETN - Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
ETSN - Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi
ƏƏSMN - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
GF - Azərbaycan Respublikasının Gənclər Fondu
GİN - Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
İKZF - Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu
İN - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
İTSDA - Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi
KTN - Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
MB - Azərbaycan Respublikasının Mərkəzi Bankı
MdN - Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi
MİDA - Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi
MN - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
NK - Azərbaycan Respublikasının Nazirlər Kabineti
NMR NK - Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti
PA - Azərbaycan Respublikası Prezidentinin Administrasiyası
RİNN - Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
SN - Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi
SOCAR - Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti
"Təmiz Şəhər" ASC - "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti
VXSİDA - Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi

# REGİONLAR

## Ölkədə taxıl biçininə hazırlıq işləri tam başa çatıb

### Biçin prosesinə 2 minədək kombayn cəlb olunacaq




**Azərbaycanda taxıl biçininə hazırlıq işləri başa çatıb. Bu il ölkə ərazisində 1 058 398,9 hektar sahədə taxıl əkilib ki, bunun 658 383,7 hektarı buğda, 400 015,2 hektarı isə arpa sahəsidir.**

Kənd Təsərrüfatı Nazirliyindən bildiriblər ki, taxıl biçini prosesinin idarə olunması məqsədilə Kənd Təsərrüfatı Nazirliyində və Dövlət Aqrar İnkişaf Mərkəzlərində qərargahlar yaradılıb. Biçinin optimal müddətdə başa çatdırılması, məhsulun vaxtında və itkisiz yığılması üçün nazirliyin prosesdə iştirak edən qurumlarının fəaliyyətləri qərargah tərəfindən koordinasiya olunur, taxıl biçininin gedişatı gündəlik olaraq nəzarətdə saxlanılır və operativ zəruri tədbirlər həyata keçirilir.

"Aqroservis" Açıq Səhmdar Cəmiyyəti tərəfindən biçinlə bağlı hazırlıqlar yekunlaşıb. Hazırlıq ərəfəsində bütün rayonlar üzrə biçinə cəlb ediləcək mövcud kombaynlara texniki baxış keçirilib, nasaz vəziyyətdə olan texnikalarda təmir, sazlama işləri həyata keçirilib. Hazırlıqların ilkin mərhələsində cari ildə taxıl biçininin itkisiz və mütəşəkkil həyata keçirilməsi məqsədilə kombaynları idarə edəcək mexanizatorlara ödənişsiz təlimlər keçirilib. Cari ildə müxtəlif markalı kombaynlar üzrə ümumilikdə, 283 mexanizator təlimlərdə iştirak edib. Təlimlərdə yüksək nəticə əldə edən mexanizatorlar sertifikat ilə təmin ediliblər.

Həmçinin, biçin zamanı dislokasiya planına nəzarət edilməsi üçün kombaynlar GPS nəzarət sistemi ilə təchiz edilib. Bu innovativ nəzarət sistemi biçin zamanı operativliyin təmin edilməsi, biçin prosesinə və dislokasiya planına nəzarət edilməsi və şəffaf idarə etmə mexanizminin qurulmasına imkan yaradır.

Hər il olduğu kimi bu il də kənd və qəsəbələrdə biçin prosesi növbəlilik əsasında həyata keçiriləcək. Növbəliliyin yaradılmasına icra nümayəndəlikləri və bələdiyyələr tərəfindən dəstək göstəriləcək, biçinə və növbəlilik sisteminə nəzarətin təmin olunması isə Dövlət Aqrar İnkişaf Mərkəzləri (DAİM) tərəfindən həyata keçiriləcək.

Bu il taxıl biçini prosesinə 2 minədək taxılbiçən kombaynın cəlb olunması nəzərdə tutulur. Bunlardan 670 kombayn "Aqroservis" ASC-nin balansında olan kombaynlardır.

Hazırda respublikanın 24 rayonunda arpa biçini davam edir. Biçin prosesinə 532 kombayn cəlb olunub. Kombaynlardan 304 ədədi fiziki və hüquqi şəxslərə, 228 ədədi isə "Aqroservis" ASC-yə məxsusdur. İyunun 2-dək respublikanın 24 rayonunda 21 min hektar arpa sahəsi biçilib, sahələrdən 48 min tondan çox məhsul yığılıb.

*"Azərbaycan"*

## Ağsaqqalların tövsiyələri dinlənilmişdir



**Ağstafada rayon ağsaqqalları ilə görüş keçirilmişdir. Səməd Vurğun adına Mədəniyyət və İstirahət Parkında təşkil olunmuş görüşdə ağsaqqallarla birlikdə ziyalılar və ictimaiyyət nümayəndələri iştirak etmişlər.**

Görüş Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır. Sonra rayon icra hakimiyyətinin başçısı Seymur Orucov çıxış edərək diqqətə çatdırmışdır ki, Ulu Öndərin qurucusu və memarı olduğu müasir Azərbaycanda ağsaqqallar daim yüksək hörmət və nüfuz sahibi olmuşlar: "Bu gün də hər bir yeniyetmə və gəncin vətənpərvərlik, milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə hörmət ruhunda tərbiyə olunmasında onların müstəsna xidmətləri var. Prezident İlham Əliyev də hər zaman ağsaqqallara yüksək dəyər verir və onların hərtərəfli qayğıkeşliklə əhatə olunmalarına diqqətlə yanaşır.

Çıxış edən ağsaqqallar gənclərin dövlətə, xalqa sədaqət ruhunda, zərərli təsirlərdən uzaq və sağlam əsaslar üzərində tərbiyə olunmasında hər zaman dövlət səviyyəsində böyük dəstək verildiyini diqqətə çatdırmışlar. Onlar ölkəmizdə hökm sürən ictimai-siyasi sabitlik, əmin-amanlıq, günbəgün artan iqtisadi gücümüz sayəsində işğaldan azad olunmuş ərazilərimizdə nəhəng infrastruktur layihələrinin reallaşdırılması, əhalinin sosial-rifah halının yaxşılaşması istiqamətində görülən işlərdən razılıqlarını bildirmişlər.

Sonra Ağstafa rayonunda abadlıq-quruculuq, sosial-iqtisadi, ictimai, mədəni və digər sahələrdə icra olunan layihələr müzakirə edilmiş, bu istiqamətdə ağsaqqalların tövsiyələri və təklifləri dinlənilmişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Lənkəran-Astara iqtisadi rayonunun inkişafı üzrə hazırlanmış sənədlər təqdim edilib

**Avropa İttifaqı tərəfindən maliyyələşdirilən, İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin benefisiarı olduğu "Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi" texniki yardım layihəsi çərçivəsində görülən işlər müzakirə edilib.**

Avropa İttifaqı (Aİ) tərəfindən maliyyələşdirilən, İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin benefisiarı olduğu "Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi" texniki yardım layihəsi çərçivəsində Lerik rayonu üzrə hazırlanan inkişaf planı təqdim olunub.

Bununla bağlı keçirilən tədbirdə iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov qeyd edib ki, ölkəmizdə regionların tarazlı inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindəndir, bu məqsədlə həyata keçirilən sosial-iqtisadi inkişaf dövlət proqramları rayonlarda işgüzar mühitin davamlı yaxşılaşmasında, sosial rifahın yüksəlməsində xüsusi əhəmiyyət kəsb edir: "Azərbaycanda qeyri-neft iqtisadiyyatının inkişafı, özəl sektorun dəstəklənməsi üçün müxtəlif alətlər tətbiq olunur. Bu baxımdan, beynəlxalq təşkilatlarla, xüsusilə Avropa İttifaqı ilə müxtəlif proqram və layihələr çərçivəsində əməkdaşlığa xüsusi diqqət yetirilir. 2021-ci ilin 1 sentyabrından icrasına başlanılan "Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi" texniki yardım layihəsinin regionların sosial-iqtisadi inkişafına töhfəsi ilə bağlı gözləntilərin böyük olduğunu qeyd edən nazir müavini layihə çərçivəsində hazırlanmış sənədlər barədə rəy və təkliflərini layihə komandasına bildirərək layihənin icrası istiqamətində işlərin sürətləndirilməsi və nəzarətin gücləndirilməsini tövsiyə edib.

Aİ-nin ölkəmizdəki nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko birgə layihələr üzrə dövlət qurumları ilə əməkdaşlığın genişləndirilməsinin, o cümlədən "Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi" layihəsinin önəmini vurğulayıb. Bildirilib ki, layihə üzrə Yol Xəritəsinə müvafiq olaraq Lerikin 2023-2028-ci illər üçün inkişaf planı, rayonda kənd təsərrüfatı, aqroturizm və ekoturizmin inkişafına dair sənədlər hazırlanıb.

Tədbir çərçivəsində Lerikin inkişaf planı və buna dair müvafiq sənədlərin təqdimatı olub, sənədlərlə bağlı aidiyyəti qurumların iştirakı ilə geniş tərkibli müzakirələr aparılıb.

## Regionda fəaliyyət göstərsə də, xarici bazarlarda yaxşı tanınır



**Qazax rayonunda 2000-ci ildən fəaliyyət göstərən "Saloğlu" mebel fabriki bu gün nəinki Azərbaycanda, hətta ölkə hüdudlarından kənarda da tanınır.**

Fabrik qərb bölgəsinin həm də ən böyük rəqabətqabiliyyətli müəssisələrindən sayılır. 23 yaşlı "Saloğlu" yerli mebel istehsalı sahəsində öz sözünü deməklə yanaşı, xarici bazarlarda "Made in Azerbaijan" brendini layiqincə təmsil edir.

Prezident İlham Əliyev fabrikdə iki dəfə - 2004 və 2016-cı illərdə olmuş, kollektivə tövsiyə və tapşırıqlar vermişdir. Bu tövsiyələrdən biri yeni iş yerlərinin yaradılması olmuşdur. Prezidentin tövsiyəsinə uyğun 2500-ə yaxın yeni iş yerinin açılması istiqamətində işlərə başlayan fabrik yeni bir istehsal sahəsinin tikintisini reallaşdırmışdır. Belə ki, 2016-cı ildə dövlət başçısının təməlini qoyduğu "Venzana" layihəsinin tikintisinə başlanmışdır. Qeyd edək ki, "Venzana" layihəsi təkcə böyük bir fabrikin ərsəyə gəlməsi demək deyil, eyni zamanda bölgədə işsizliyin aradan qaldırılmasında həyata keçirilən ən uğurlu layihələrdən biridir. Gələcəkdə fəaliyyət göstərəcək yeni müəssisədə 500 nəfər üçün vakant iş yerinin açılması nəzərdə tutulur.

Onu da bildirək ki, ölkədə ən müasir mebel istehsalçılarından olan bu müəssisənin fəaliyyəti bir çox şirkətlərin maraq dairəsindədir. Həmin şirkətlər fabrikə tez-tez nümayəndələr göndərməklə əməkdaşlıq əlaqələri qurulmasına təşəbbüs göstərirlər. Bu günlər ADA Universitetinin ABŞ-dəki mərkəzinin prezidenti Qalib Məmməd və universitetin əməkdaşları fabrikdə istehsal prosesi ilə yaxından tanış olmuşlar. "Saloğlu" mebel fabrikinin təsisçisi Tacəddin Mustafayev istehsal olunan mebellər, istehsal prosesi, istifadə olunan avadanlıqlar barədə ətraflı məlumat verərək diqqətə çatdırmışdır ki, yeni inşa edilən fabrik fəaliyyətə başladıqdan sonra ölkəmizdə mebel idxalından asılılıq tamamilə azalacaqdır.

Hər iki fabriklə yaxından tanış olan Qalib Məmməd burada istehsal olunan mebellərin, istifadə edilən materialların keyfiyyətini yüksək qiymətləndirmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Astara idmançıları daha bir beynəlxalq turnirdə fərqlənmişlər

**Astara Rayon İcra Hakimiyyətində budo döyüş növləri üzrə açıq beynəlxalq çempionatda qalib gəlmiş astaralı idmançılarla görüş olmuşdur.**

Görüşdə Savat Federasiyasının nəzdində fəaliyyət göstərən "Astara Aslan" Əlbəyaxa Döyüş İdman Klubunun direktoru, III dan qara kəmər ustası Zamin Baxşıyev bildirmişdir ki, may ayının 25-29-da Dünya Budo Döyüş Növləri Federasiyasının Bakıda keçirilən Budo Döyüş Növləri üzrə Açıq Beynəlxalq Çempionatında Astara rayon komandası iştirak etmiş və yüksək nəticə göstərmişdir: "Azərbaycan, Türkiyə, Pakistan, Özbəkistan, İraq, Tacikistan, Qırğızıstan, Türkmənistandan 300-dək idmançıların mübarizə apardığı açıq beynəlxalq çempionatda astaralı idmançılar 4 qızıl və 3 gümüş medal qazanmışlar".



Sonra qalib idmançılar yarış təəssüratlarından danışmış və dəstəyə görə rayon rəhbərliyinə minnətdarlıq etmişlər. Astara RİH-in başçısı Qəzənfər Ağayev idmançıları beynəlxalq yarışda qazandıqları qələbə münasibətilə təbrik edərək xoş arzularını bildirmiş, hədiyyələrlə mükafatlandırmışdır.

***S.CAVADOV,***
***"Azərbaycan"***

## İmişlidə Araz çayının sahili tullantılardan təmizlənib

**Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə əlaqədar İmişli rayonunda iməcilik təşkil olunub. Araz çayının İmişlidən keçən hissəsində sahil ərazi tullantılardan təmizlənib.**

İməcilik Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İmişli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə gerçəkləşib. AZƏRTAC xəbər verir ki, "Plastik çirklənməyə qalib gəl: Ekosistemin bərpası" şüarına uyğun olaraq Araz çayının İmişli rayonu ərazisindən keçən hissəsində təşkil olunan iməciliyə 300-dən çox insan qoşulub. Sahil boyunca çayın kənarlarındakı plastik əşyalar və digər tullantılar yığılıb.



◆ **Bu barədə düşünək**

## Ət niyə bahalaşır

### Bunun obyektiv və subyektiv səbəbləri var

**Ət alan ortayaşlı kişi qəssaba müraciətlə: "A bala, bu ətin qiyməti niyə belə artır" - deyə soruşur. Qəssab gözünü tərəzidən çəkmədən: "Əmican, inanın ki, bu bizdən asılı deyil", - deyir və sonra da əlavə edir ki, biz də zəhməthaqqı kimi bir manat üstünə qoyub satırıq:**

- Hələ onu demirəm ki, maşın tutub, kənd-kənd, oba-oba gəzib heyvan axtarırıq. İstəyirik, ucuz alıb ucuz sataq ki, müştərilər də bizdən narazı qalmasınlar. Bəzən heyvan aldığımız adamlarla yarım saat, bəlkə də daha çox danışmalı, vaxt sərf etməli oluruq. Əvəzində o da deyir ki, yem bahalaşıb, yonca kipinin birini 5-6 manata alıram, üstə gəl buna arpa çəkilmişi verirəm. Hələ zəhmətini çəkməyi, digər xidmətləri, qayğıları demirəm. Görürsən düz deyir.



Apardığımız müşahidələrdən həm də bu qənaətə gəldik ki, hər kəs öz işi ilə məşğul olsa, yaxşıdır. Şəhərdə yaşayaraq kənddən xəbəri olmayanın heyvandarlıq, habelə kənd təsərrüfatının ayrı-ayrı sahələri ilə məşğul olması kəndliyə, məhsul bolluğuna, rəqabətə yalnız ziyan vurur. Həmin şəxslər yaxın adamlarının, qohumlarının adına Dövlət Ehtiyat Fondundan min hektarlarla sahələr alır, külli miqdarda kreditlər götürür, fermalar tikir, xarici ölkələrdən cins mal-qara, çoxlu sayda müxtəlif adda texnikalar alırlar. Bəziləri hətta kənardan mütəxəssislər dəvət edib onlara yüksək maaş verirlər. Təsərrüfatlarında müəyyən qədər işçilər də saxlayırlar. İlk baxışdan bunlar təqdirəlayiqdir. Lakin zaman keçdikcə görürsən bütün bu canfəşanlıq inhisarçılığa, bazarda qiyməti diktə etməyə hesablanıb ki, bunun da xeyrindən çox ziyanı olur.

Salyan rayonunun Kürqaraqaşlı kəndində "Nur Gün" şirkətinin heyvandarlıq kompleksi, Cəlilabad rayonu ərazisindəki "Günəşli" aqroparkı fəaliyyətini dayandırmışdır. Amma həmin təsərrüfatlar fəaliyyət göstərdikləri dövrdə təkcə özlərinə deyil, kəndli fermerlərin öz pay torpaqlarından yüksək məhsul götürmələrinə əngəl törətmişlər. Ələ keçirdikləri min hektarlarla torpaq sahələri çox yox, 15-20 il bundan əvvəl qoyunçuluq üçün örüş olmuşdur. Otlaq sahələrinin kəskin azalması üzündən bir çox fermer qoyunçuluqla, heyvandarlıqla məşğul olmaqdan uzaqlaşmaq məcburiyyətində qalmışdır.

Məlumdur ki, heyvandarlıqda yem bazası mühüm şərtdir. Mal-qaranın sağlam, gümrah olması bilavasitə otlaqdan asılıdır. Belə bir məsəl də var: "İnəyin südü ağzındadır". Bunu ətə də aid etmək olar. Yem problemi isə getdikcə kəskinləşir. Qeyd etdiyimiz və etmədiyimiz səbəblərdən yonca kütləsi kəskin şəkildə azalır. Əslində, fermer onu əkib-becərməkdə maraqlı olmalıdır. Əvvəllər kəndli hasilə gətirdiyi yaşıl yoncanın lazımi qədərini öz mal-qarası üçün tədarük edir, qalanını satırdı. Yəqin çoxlarının yadındadır - çox yox, bir neçə il öncə maşınlar Bakının kəndlərinə, dağlıq rayonlara gecə-gündüz yem daşıyırdı. İndi isə belə bir mənzərə ilə qarşılaşmaq demək olar mümkün deyil. Çünki su qıtlığı yaranandan sonra yonca yetişdirmək imkanı aşağı düşüb. Yonca su tələb edən bitkidir, onu hər biçəndən sonra, yəni ildə ən azı dörd dəfə suvarmaq lazım gəlir.

Kənd təsərrüfatı təbiətlə əlaqədar sahədir. Payız, qış, yaz yağışlı-yağmurlu, qarlı keçəndə payızda əkilən taxılın, çöllərdə ot-alaf torpaqdan baş qaldırıb çıxmasına təbii şərait yaranır, bitkilər yazın günəşi ilə böyüyüb boy atır. Belə halda bolluq yaranır. Həm zəmilər yüksək məhsul verir, həm də mal-qara üçün bol yem əmələ gəlir. Əfsuslar olsun ki, artıq bir neçə ildir yağıntılar da azalmışdır və bu səbəbdən təbii yem bazası yaranmır. Lerik, Yardımlı rayonlarından öz qoyun-keçilərini Biləsuvar və Neftçala rayonlarına qışlamaya gətirən fermerlər bu il mart ayının əvvəllərində yığışıb dağlara qayıtmışlar.

İqlim dəyişikliyi təkcə bizim ölkədə deyil, dünyada gedən prosesdir. Odur ki, heyvandarlıqla məşğul olan fermerlər öz işlərini bunları nəzərə alaraq qurmalıdır. Əlaqədar mərkəzi və yerli icra orqanları isə bu mühüm məsələnin həllində onların yanında olmalıdır. Belə olarsa, əhali də qiyməti gündən-günə bahalaşan ətə kənardan baxıb ah çəkməz.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Taksi xidməti sahəsindəki özbaşınalıqların həlli zamanı gəlib

Böyük şəhərlərdə müxtəlif problemlər olur və yollarda yaranan tıxaclar onlardan ən kəskini, ən başağrıdıcısıdır. Bu üzdən insanlar mənzilbaşına tez çatmaq üçün ictimai nəqliyyatdan daha çox pulundan keçib taksi xidmətindən istifadə etməyə məcbur olurlar. Fikirləşirlər ki, bu həm rahatlıqdır, həm də mənzilbaşına vaxtında çatmaqdır.







Hazırda Bakıda müxtəlif taksi şirkətləri fəaliyyət göstərir. Şirkətlərin çoxluğu taksi xidmətlərinin keyfiyyətli, qiymət baxımından sərfəli olmasına müsbət təsir göstərməli idi. Qiymət məsələsinə keçməzdən əvvəl xidmət barədə bir neçə cümlə. Son dövrlər baş verən avtomobil qəzalarında taksilərin yol qaydalarını kobud şəkildə pozması barədə xəbərlər artmaqdadır. Bu isə o deməkdir ki, taksi sürücülərinin daha çox müştəriyə xidmət göstərib, daha çox pul qazanmaq hərisliyi insanların həyatlarını təhlükəyə atır. İkinci bir problem. Müştəriləri, xüsusilə qadınları ən çox rahatsız edən məsələ taksi sürücülərinin etik davranışlarıdır. Dəfələrlə taksi sürücüləri tərəfindən qadınlara əxlaqsız təkliflərin olunması barədə informasiyalar yayılıb. Bu azmış kimi, bir çox taksi sürücülərinin narkoman və ya narkokuryer olmaları da dəfələrlə sübut olunmuş faktdır. Bütün bu özbaşınalıqların bir səbəbi var: o da taksi xidmətləri şirkətlərinin kiminlə gəldi müqavilə bağlamalarıdır. Çünki həmin şirkətlər öz üzərinə heç bir məsuliyyət götürmədən yalnız pul qazanmaq barədə düşünürlər.

Bu sahədə baş alıb gedən nöqsanlara və narazılıqlara rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev də münasibət bildirib. Deyib ki, taksi xidmətləri sahəsində, həqiqətən, çatışmazlıqlar mövcuddur: "Taksi sürücüləri, xüsusilə də qlobal aqreqatorlarla çalışan sürücülər ağır və uzun iş saatları əvəzində qazanclarının az olmasından şikayətlənirlər. Öz növbəsində sərnişinlər də xidmət keyfiyyətinin aşağı olmasından, kobud və qeyri-etik davranışlardan narazılıq edirlər. Taksi xidməti göstərən avtomobillərdə bir çox hallarda gigiyenik normalara riayət olunmur. Bütün bunlar problemlərin yalnız üzdə görünən hissəsidir".

Bu yerdə qeyd edək ki, mövcud problemləri dərindən öyrənmək və müvafiq həll yolları təklif etmək məqsədilə nazirlik məsləhətçi şirkətlərin də iştirakı ilə araşdırma həyata keçirib. Araşdırma zamanı neqativ hallar ortaya çıxıb. Məsələn, statistikaya görə, Bakıda hər 1000 nəfərə düşən taksi sayı oxşar şəhərlərlə müqayisədə 4-5 dəfə çoxdur. Bu, şəhərdə tıxacların yaranmasına təsir etməklə yanaşı, neqativ ekoloji nəticələrə də gətirib çıxarır. Amma taksilərin tıxaca və ekoloji vəziyyətə təsiri yalnız saylarının çoxluğu ilə məhdudlaşmır. Bu, həm də gündəlik səyahətlərin sayı ilə bağlıdır. Belə ki, fərdi maşınlar gündə ortalama 2-2,5 səfər edirsə, taksi fəaliyyəti həyata keçirən avtomobil 20-dən çox səfər edir. Bu baxımdan 10 min taksi şəhərdə 100 min fərdi maşın effektini yaradır.

Nazir belə vəziyyətin yaranma səbəbini tənzimlənmədəki boşluqlarla əlaqələndirib. Bildirib ki, bu, sahədə aqreqatorlar arasında qeyri-sağlam rəqabətə və bunun nəticəsində xidmət keyfiyyətinin xeyli aşağı düşməsinə gətirib çıxarıb. Bununla yanaşı, araşdırmalarımız onu da göstərir ki, taksilərin sayının normadan çox olması həm də ictimai nəqliyyatdan, o cümlədən metro və avtobuslardan sərnişin axınına səbəb olub. Məsələn, 2022-ci ildə metrodan istifadə edən sərnişinlərin sayı pandemiyadan əvvəlki 2019-cu illə müqayisədə 12 faiz aşağı düşüb. Analoji vəziyyəti avtobus gedişlərində də görmək olar. Təkcə Bakı şəhərində avtobusla daşınan sərnişinlərin sayı qeyd edilən dövrdə 35 faiz azalıb".

Nazir onu da vurğulayıb ki, qanunvericilikdə olan boşluqlardan istifadə edən xarici şirkətlərin fəaliyyətində ciddi pozuntular var: "Qlobal şirkətlərin Azərbaycanda fəaliyyətə başlaması müsbət haldır - o vaxta qədər ki, bu şirkətlər ölkəmizin qanunlarına, vətəndaşlarımızın hüquqlarına hörmətlə yanaşır. Məlumdur ki, Azərbaycanda bütün sahələrdə olduğu kimi, nəqliyyat sahəsində də xidmətlərin elektronlaşdırılması müsbət qarşılanır. Bu baxımdan həmin şirkətlərin ölkəmizdə fəaliyyətə başlaması bazarda rəqabətin yaranması, müştərilərə təqdim olunan xidmətlərin elektronlaşdırılması yüksək qiymətləndirilə bilər".

Lakin qanunvericilikdəki boşluq sayəsində zaman keçdikcə taksi xidmətləri sahəsində müxtəlif problemlər yarandı. Bu sahədə qlobal aqreqator şirkətlər olan "Bolt", "Uber", "Yango"da həmin problemlərin böyüməsi başladı. Pis odur ki, adıçəkilən şirkətlər hələ də qanunvericilikdəki boşluqlardan istifadə edərək istər sərnişinlərin, istərsə də sürücülərin narazılığına səbəb olan neqativ halların yaranmasına şərait yaradır. Bu şirkətlərin sürücülərlə əmək müqavilələri bağlamaması, sürücülərin bəzən 14-16 saat sükan arxasında olması qarşılığında gəlirlərinin çox aşağı olması kimi neqativ hallar hələ də davam edir. Eyni zamanda şirkətlər vətəndaşların fərdi məlumatlarının mühafizəsinə dair mövcud qanunvericilik normalarını da kobud şəkildə pozurlar.

Xatırladaq ki, bu sahədə sahibkarlığa münbit şərait yaratmaq məqsədilə 2015-ci ildən etibarən avtomobil nəqliyyatı ilə kommersiya məqsədli daşımaların liberallaşdırılması barədə qərar qəbul edilib. Qərardan sonra avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına lisenziya alınması tələbi ləğv olunub. Bu isə o deməkdir ki, hazırda taksi fəaliyyəti göstərmək üçün xüsusi icazə tələb edilmir. Yəni həm taksi parkları, həm də aqreqator şirkətlərə münasibətdə hər hansı bir tələb qoyulmur, sürücüyə və nəqliyyat vasitəsinə qanunvericilikdə olan minimal tələblər isə yerinə yetirilmir.

Beləliklə, taksi xidmətinin liberallaşdırılması ilə bağlı qəbul edilən qərar nəticədə xidmətə mənfi təsir göstərib. Statistikaya əsasən, ölkəmizdə xidmət göstərən taksilərin 40 faizdən çoxunun yaşı 15-dən yuxarıdır. Parkın 20 faizdən çoxunun yaşı isə 20-dən çoxdur. Bu, ölkəmiz üçün istər ekoloji tələblərin pozulması, istərsə də təhlükəsizlik baxımından qəbulolunmaz risklərdir. Bütün bunlarsa o nəticəyə gətirir ki, taksi xidməti sahəsində yaranan özbaşınalıqların həllinin zamanı gəlib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# YARAT Müasir İncəsənət Mərkəzində "Cənnət gözləyə bilər" adlı fərdi sərgi açılacaq

İyunun 8-də YARAT Müasir İncəsənət Mərkəzində Azərbaycan rəssamı Aida Mahmudovanın "Cənnət gözləyə bilər" adlı fərdi sərgisi açılacaq.

AZƏRTAC xəbər verir ki, rəssamın "Cənnət gözləyə bilər" sərgisinin mərkəzində yaratdığı mənzərə reallığı ilk baxışda fərdi və anlaşılması çətin görünsə də, "mən"in patologiyasını tənqid edir. Bir tərəfdən, həyat bütün anatomik reallığı ilə qarşımızda dayanır, bəzi hallarda isə həyat adi mənzərədən daha çox məna kəsb edir. Ancaq həyatı mənzərədən ayırmağa cəhd etmək də bizi bir növ yadlaşmaya aparacaq. Bütün həyat, şəxsi və ya ictimai tarix bir mənzərədə və coğrafiyada baş verir və yaddaşımızı hər zaman canlandıran bir məkan var. Varlığımızın bütün imkanlarını kəşf etmək üçün incəsənətə və sosial elmlərə müraciət etməliyik. İncəsənətin ümumbəşəri dəyərləri olsa da, unutmamalıyıq ki, bizim ədəbi-vizual kontekstimiz sırf lokal xarakter daşıyır. Növbəti məqam önəmlidir: İnsanın özünü ən dərindən hiss etdiyi həqiqət bizi ümumbəşəri bir reallığa aparan bədii reallıqdır. Burada rəssam Aida Mahmudova bizi "mənlik klaustrofobiyasından" xilas etmək üçün bir növ mənzərəyə, bu mənzərənin reallığına aparır.

Rəssam coğrafiyanın sivilizasiyanın mühüm ölçüsü olduğunu və bu coğrafiya daxilində insanlarla əlaqə saxlamağın mümkünlüyünü bildirir. Sərginin mərkəzində yerləşən iki böyük rəsm bizə coğrafiyadan, onun müxtəlifliyindən və əhəmiyyətindən xəbər verir, həmçinin onun gözəlliyinə və dəhşətinə diqqəti cəlb edir. Başlanğıc və sonun simvolu olan bu rəsmlərdə keçmiş və gələcəyə dair ipucları da var. Əsrimizin fraqmentar strukturu ilə ahəngdə olan rəsmlər orqanizmin bütün təbii dövründən (doğum, həyat, ölüm) sonra ilkin nöqtəsinə qayıtmasını qeyd edir.

A.Mahmudova dünyanı bəşəriyyətə baxaraq təsvir edərkən özü vasitəsilə bizim ortaq təcrübəmizi də təsdiqləyir. Bu, rəssamın çağırışıdır. İncəsənətin gücü ağlımıza, əsəblərimizə, xatirələrimizə, duyğularımıza, nəhayət, ruhumuza xitab və təsir edir. O, dünyadakı varlığımızı, öz vücudundan götürdüyü tərsinə (neqativ) formalar və onların boşluqda tutduqları həcmlər vasitəsilə ifadə edir, həmçinin tavandan asdığı kətan və səth əsərləri ilə ümidi çatdırır. Bu mənzərələrdə biz həm xatirələrimizi, həm də gələcəyimizin ipuclarını görə bilərik. Rəssam əsərlərində incəsənətin köməyi ilə maddi və mənəvi şərə qarşı mübarizəmizi, keçmişin, bu günün və gələcəyin ideallarını çatdıra biləcəyimizi bəyan edir. A.Mahmudova bizə sənətin ümumbəşəri əhəmiyyətini və qüdrətini göstərir, belə ki, o, öz əsərləri ilə insanlara onların həyatını, tarixini xatırladır.

İncəsənət artıq dünyanı göründüyü kimi təsvir etmək, ölçmək və təhlil etməklə məhdudlaşmır. Rəssam hesab edir ki, coğrafiya və yaddaş naturalist şəkildə təqdim oluna bilməyəcək qədər mücərrəddir. Aida Mahmudovanın əsərləri incəsənətin dünyanın yenilənməsinə töhfə verdiyini ifadə etsə də, o, müasir zaman və məkanın etibarsız, introvert olduğunu qeyd edir. Buna görə də dünya kətanların kənarlarında açıq bir kompozisiya kimi təsvir edilib. Onun əsərləri tamaşaçılar üçün kəşf və özünüifadə vasitəsi ola bilər; o, daha çox səmimiyyətə və yaradıcılığa çağırır.

Özünün cəsarətli və yenilikçi hərəkəti ilə A.Mahmudova bizə bəşəriyyətin lazımi bacarıq və alətlərlə sərhədləri aşa biləcəyini göstərir. Nəticədə sərgi fiziki və konseptual sərhədləri keçməyə çalışır. Bu sərhədləri aşmayınca humanist coğrafiyamız olmayacaq. Əsərlərə yaxından nəzər salsaq və cəsarət etsək, bunun necə baş verə biləcəyini anlamaq üçün bizə əhəmiyyətli ipucları verəcək.

Qeyd edək ki, Aida Mahmudovanın "Cənnət gözləyə bilər" adlı fərdi sərgisi iyunun 8-dən oktyabrın 22-dək davam edəcək.



# Bəzi yerlərdə yağış yağacaq

Azərbaycanda iyunun 6-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 23-28° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 762 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 26-31° isti, dağlarda gecə 7-12°, gündüz 13-18°, bəzi yerlərdə 20-23° isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz. Lakin gecə və səhər dağlıq ərazilərdə, gündüz əksər rayonlarda yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 13-18°, gündüz 27-32° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 13-18°, bəzi yerlərdə 23° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzurda Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 13-18°, bəzi yerlərdə 20-25° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 23-28° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-19°, gündüz 20-25° isti, dağlarda gecə 9-14°, gündüz 14-17° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq.

Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 26-31° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 19-22°, gündüz 26-31° isti, dağlarda gecə 15-19° isti, gündüz 22-27° isti olacaq.

# YARAT-da "Yeddinci tənhalıq" adlı qrup sərgisi təqdim olunacaq

İyunun 8-də YARAT Müasir İncəsənət Mərkəzində "Yeddinci tənhalıq" adlı qrup sərgisi açılacaq.

YARAT-dan AZƏRTAC-a verilən məlumata görə, ekspozisiya YARAT-ın sifarişi ilə hazırlanan, həmçinin son illərdə yaradılmış Hüseyn Haqverdiyevin, Tərlan Qorçunun, Orxan Hüseynovun, Ramal Kazımın, Novruz Məmmədovun, Fərəc Rəhmanovun, Eltac Zeynalovun, İsmayıl Səfərəlinin və Nadir Eminovun əsərlərini bir araya gətirir.

Sərgi alman filosofu F.Nitşenin fəlsəfə əsərlərində irəli sürdüyü "Yeddinci tənhalıq" sirli anlayışına əsaslanaraq, sosial kontekstdə müasir uzaqlaşma, yadlaşma, varlıq və əbədi qayıdış kimi fundamental dəyərləri əlaqələndirməyə çalışır.

Tempi yüksək olan çağdaş həyatımızda insanların çoxluğuna baxmayaraq, onların arasında olan sıx təmaslar ünsiyyət imkanlarını genişləndirmir. Sosial-psixoloji stereotiplərin, zövqlərin, qiymətləndirmənin, davranış və qavrayış formalarının "konveyer istehsalı" individual fərqliliklərin xüsusiyyətlərini məhv edərək, faktiki olaraq şəxsiyyətin parçalanmasına gətirib çıxarır. Aydın məsələdir ki, müasir cəmiyyətdə "Yeddinci tənhalığ"a çatmaq üçün tərki-dünya olmaq müəyyən sosial kontekstlə də bağlıdır. Bu anlamda tənhalıq fiziki deyil, cəmiyyətdən mücərrədləşərək mənəvi olmasını da nəzərdə tutur. Bunların fonunda şüurlu şəkildə tənhalığa üz tutan individlərin sirli "Yeddinci tənhalıq" axtarışında olması sərginin əsas leytmotivini təşkil edir.

Sərgi "tənhalıq" məfhumunun ilkin təzahüründən "Yeddinci tənhalıq" deyilən daha yetkin və çoxsaylı metamorfozlara uğramış durumdan bəhs edir. Bu durum dərkedilmiş seçim olaraq azadlıq, "mənə" aparan yol, varlıq kimi anlayışlarla bağlıdır. Tənhalığı özünə əsas istiqamət kimi işarələyərək, həmçinin fövqəlinsana aparan fərdi, şəxsi təcrübə və müşahidələri işıqlandıran sərgi, həm də bu yolun tərkib hissəsinə çevrilmiş məqamları da vurğulayır. Azadlıq, dəyərlər sistemi, məqsəd və ümidlər, haqq və güc, itaət, instinktlər və s. Bu tənhalıq şəxsi mənsubiyyəti araşdıraraq onun digər sosial mühitlərdən üstünlüyünü diqqətə çatdırır.

Qeyd edək ki, "Yeddinci tənhalıq" adlı qrup sərgisi iyunun 8-dən oktyabrın 22-dək davam edəcək.

# Revanşistlərin ümidləri yenə puç oldu

## Keçmiş hərbi xunta Paşinyanın Türkiyə səfərini gözdən salmağa çalışdı

"Hayastan" fraksiyası və Rusiyayönümlü müxalifət Paşinyanın Türkiyə səfərini gözdən salmaq üçün bir sıra təxribatçı çıxışlar etdilər. Lakin ümumi erməni cəmiyyəti Paşinyanın bu səfərini sakit qarşıladı. Bu da onu göstərir ki, sadə xalq artıq siyasi çəkişmələrdən və böyük güclərin əlində oyuncağa çevrilməkdən bezib. İndi hər şey Paşinyanın atacağı növbəti addımdan asılıdır.

Ekspertlərə görə, Türkiyə ilə Hayastan arasında münasibətlərin normallaşması Bakı-İrəvan danışıqlarına da müsbət təsir edəcək. Erməni politoloq Albert Mnasakanyan bununla bağlı deyib ki, Türkiyə ilə müntəzəm əlaqələr varsa, Azərbaycanla birbaşa danışmaq olar: "Bizim vəzifəmiz Türkiyə ilə birbaşa danışmaq olmalıdır. Bizim əvəzimizə Türkiyə ilə başqası danışsa, ucuz razılığa gələcək".

Erməni iqtisadçı Manvel Levonyan isə bildirir ki, Hayastanın dərinləşən sosial böhranı fonunda Türkiyədən iqtisadi asılılıq artır.

Baş verənlər hazırda erməni revanşist qüvvələr tərəfindən ciddi narahatlıqla qarşılanır. Ancaq "4rd.am" portalı yazır ki, müxalifət Hayastandan çox öz maraqlarını güddüyündən narahatlıq keçirir. Qeyd edilir ki, müxaliflər qorxu içindədirlər. Elə bu səbəbdən müxalifət mətbuatı "Erməni cəmiyyəti üçün şok"; "Nikol Türkiyə Prezidentinin qəbuluna getdi", "Hakimiyyət Ankaranın göstərişlərini yerinə yetirir" deyə qışqırır: "Biz iqtisadçı deyilik ki, Hayastan-Türkiyə sərhədinin açılmasının iqtisadi faydalarını tam qeyd edək. Baxmayaraq ki, ötən əsrin 90-cı illərinin ağır nəqliyyat və enerji blokadasının dəhşətini yaşamış hər bir Hayastan vətəndaşı başa düşür ki, ölkə iqtisadiyyatı boğulur və ona "təmiz hava" lazımdır. Onu içinə çəkmək isə - kiminsə xoşuna gəlməsə də, bunu istəməsə də - ancaq Hayastan-Türkiyə və Hayastan-Azərbaycan münasibətlərinin normallaşması şərti ilə mümkündür. Heç kim bizi türklərlə dost olmağa məcbur etmir. Amma iqtisadi cəhətdən biz sırf erməni maraqlarından çıxış edərək əməkdaşlıq etməliyik".

Bildirilir ki, bir müddət əvvəl baş nazir Paşinyanın Hayastan-Türkiyə münasibətlərinin normallaşması, sərhədlərin açılmasının ölkə iqtisadiyyatına müsbət təsir edəcəyi ilə bağlı fikirlər söyləməsi ilə razılaşmamaq çətindir. Yəni burada heç bir illüziya yoxdur, sadəcə, vəziyyətin obyektiv qavranılması var, blokada aradan qaldırılmadan iqtisadiyyat canlandırıla bilməz. Mövcud hakimiyyəti milli maraqlara xəyanətdə günahlandıran radikal müxaliflər Paşinyanın indi etməyə çalışdıqlarını yaxın keçmişdə necə özlərinin etməyə çalışdıqlarını unudurlar. Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın fəal iştirak etdiyi bədnam "Sürix protokolları" və "futbol diplomatiyası"nı heç kim yaddan çıxarmayıb.

Hesab edilir ki, revanşistlərin cəhdləri postmüharibə dönəmində keçirdikləri mitinqlər kimi iflasa uğrayacaq.

Bütün bunların fonunda Hayastanda sosial-iqtisadi vəziyyətin təhlili aydın şəkildə göstərir ki, ölkədə inflyasiya böyük sürətlə dərinləşdiyi halda əhalinin maddi gəlirlərində hansısa artım yoxdur. Yaranan fərq nisbəti insanların durumunun daha da ağırlaşmasına, onların ifrat yoxsulluq həddində yaşamasına səbəb olmaqdadır. Rəsmi dairələr də inflyasiya prosesinin nəzarətdən çıxdığını, vəziyyətin ağırlaşdığını etiraf edirlər.

Hayastanda hazırda işsizlik böhranı da yaşanır. Ölkədə təkcə gənclərin 42 faizi işsizdir. Qeyd olunur ki, həkimlər, tibb bacıları, mühəndislər, müəllimlər, digər peşə və sənət adamları arasında işsizlik hallarına daha çox rast gəlinir. Daha bir maraqlı məqam isə işsizlərin arasında qadınların sayının getdikcə artmasıdır. Hesab edilir ki, Hayastanda işsizlər arasında kişilərin azlıq təşkil etməsi təəccüb doğurmamalıdır. Çünki kişilərin əksəriyyəti öz ailəsini dolandırmaq məqsədilə ölkəni tərk edərək Rusiyaya və digər ölkələrə üz tutub. Xarici ölkələrə gedənlərin sayı bir milyonu ötüb. Belə halda artıq iflic vəziyyətində olan Hayastan iqtisadiyyatının rəqabətə davamlılıq reytinqi aşağı düşməkdədir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 18 dekabr (Çərşənbə günü) tarixli 67-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Çaharşənbə, 14 rəbiüləvvəl sənə 1337.
18 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalətın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Daxiliyyə nazirinin qətnaməsi**

Nömrə - 10

10 kanuni-əvvəl 1334

Mən, Azərbaycan Cümhuriyyətinin Daxiliyyə naziri, "Znamya truda" qəzetəsinin 146, 147 və 149-cu nömrələrində İvan Kornişinin və Məlikbabaxanovun dərc edilmiş idarəyə məktublarını aşkara surətdə yalan şayiələr nəşr edici, milliyyət düşmənçiliyi qaldıra biləcək və hökumət hərəkatı və binagüzarlıqları [sərəncamları] haqqında əsilsiz xəbərlər şaye edici [yayıcı] ədd [hesab] edib, 1918-ci il iyun ayının 19-da hökumət qanunlarına müvafiq verilmiş olan icbari qərardadların ikinci qisminin "A", "B" və "J" maddələrinə görə "Znamya truda" qəzetəsi müdiri L. Umanskinin üç min rublə cərimə edilməsini, cərimə verilmədiyi təqdirdə iki ay həbs edilməsini qərara aldım.

*Daxiliyyə naziri: B. Cavanşir*

**Kağız Təqsim Edici [Paylayıcı] Şura-dan**

Hər cür kağız, karton, zərf (paket) təqsim edici Şura, firmalara və bu işdə maraqlı olanlara xəbər verir ki, bu elan xəbər verildiyi gündən üç günün müddətinə qədər 2-ci nömrə forma ilə kağız, karton və zərf hərəkatı haqqında Şura bürosuna məlumat verməlidirlər. Göstərilən məlumatı verməyənlər cərimə ediləcəklərdir.

Bundan əlavə, birinci nömrə forma ilə məlumat verməli olan şəxslər və firmalar Şuraya məlumdur. İndiyə qədər bu tövr məlumat verməyənlər bu sənəsi kanuni-əvvəlin (dekabrın) 22-sinə qədər məlumat verməyə məcbur edilirlər.

1-ci və 2-ci forma ilə məlumat verilmədiyi təqdirdə, müqəssirlər qanuni məsuliyyətə cəlb edilib, malları kəşf edildiyi zaman Şuranın təsvibi [razılığı] ilə həcz [müsadirə] dəxi ediləcəkdir.

1-ci və 2-ci formaların blankını Şura bürosunda almaq olar. Starı polis küçəsində, nömrə 22 ("Kyummene" Ti-carət və Səhmdarlar Şirkəti kantora-sında)

*Şura sədri: Abbasəli bəy Makinski*
*Katib: V. Q. Levinski*

**Azərbaycan Maarif Nəzarətində**

Nömrə - 203

11 kanuni-əvvəl 1334

Zaqatala ali-ibtidai məktəbinin müəllimi Ter-Mıkırtıçyans və Anastasiya Qoşoba mənsəblərindən və həmişəlik xidmətdən kənar edilirlər. Birincisi qulluğa gəlmədiyindən bu sənəsi eylülün (sentyabr) birindən və ikincisi isə məzkur [adı çəkilən] məktəb milliləşdirildiyindən təşrini-saninin (noyabr) 4-ündən.

Nömrə 204

Bakı Üçüncü Ünas gimnaziyasına türk lisanı müəlliməsi Qəribsoltan Məlikov bu il təşrini-saninin 30-dan Bakı İkinci Ünas gimnaziyasına təyin edilir.

12 kanuni-əvvəl 1334

Nömrə 206

V.Z.Yanişevski Bakı Realnı məktəbində müvəqqətən coğrafiya tədrisinə buraxılır.

Nömrə 207

Bakıda Dördüncü Zükur [oğlanlar] gimnaziyasının müəllimi V.A.Sokolova, Bakı Ticarət məktəbində alman lisanı tədrisinə buraxılır.

Nömrə 208

Bakı Mariinski Ünas [qızlar] gimnaziyasının müəllim və müəllimələri: Y. M. Kaprinskaya, A. A. Novitskaya, A. V. Pavlova, A. D. Şbakova, V. V. Kandelaki, Y. M. Dudina, S. Ə. Şeyxzadə, A. B. Malxasyans, K. M. Ter-Tumasyans, S. E. Balaşova, M. K. Petrova, M. İ. Gülcaninova vəqti-müəyyəndə [müəyyən edilmiş vaxtda] öz vəzifələrini ifa etməyə gəlmədiklərindən, bu sənəsi təşrini-əvvəlin [oktyabrın] 21-dən xidmətlərindən həmişəlik kənar edilirlər.

Nömrə 209

Kövkəbxanım Rzayev Bakı Müqəddəs Nina məktəbinin (milliləşmiş) hazırlıq şöbəsinə müəllimə təyin edilir.

*Maarif Naziri: N. Yusifbəyov*

## BAKI, 18 KANUNİ-ƏVVƏL
## [DEKABR]

Bir neçə vaxtdan bəridir ki, şəhərimizdə fəaliyyət göstərən "Demokratlar müşavirəsində" axırıncı iclasların gedişindən məlum olduğu üzrə, ehtimal ki, etilaf [uzlaşma] üçün ümumi bir dil tapılmışdır. "Demokratlar müşavirəsinin" mütəşəbbisləri [təşəbbüsçüləri] qeyri-müsəlman sosialist firqələri olmuşlarsa da, onda "Müsavat", "İttihad", "Hümmət" və Müsəlman Sosialistləri Bloku dəxi iştirak edirlərdi.

Azərbaycanın istiqlaliyyətini, Azərbaycan türk və islamlarının müqəddəratını, Hökumətini, Parlamanı etiraf [qəbul] etməyə meyl göstərməyən firqələr ilə bizim firqələrimiz əcəba nə səbəbə görə münasibatda bulunub, mübadilə və təateyi-əfkara [fikir mübadiləsinə] yol verirlərdi?

Bu səbəbə ki, müsəlman demokrat firqələri, demokrat və sosialist namını daşıyan öz əcnəbi vətəndaşlarının Azərbaycan demokratiyası xüsusunda yanlış bir nəzərdə və onların hüquq və müqəddəratı məsələsində həmin yanlış nəzərdən nəşət edən [irəli gələn] ziddiyyətdə bulunmalarını müvəqqəti bir keyfiyyət ədd [hesab] edərək, bu xüsusda mübadileyi-əfkarın cərəyanı ilə aralığa bir saziş salınar deyə, münasibatdan [əlaqədən] çəkinməyirdilər. Filhəqiqə [doğrudan da]: "Demokratlar müşavirəsi" istinad etdiyi firqə – ki, rus ictimaiyyuni-inqilabiyyunlarından [sosialist inqilabçılarından] ibarətdir – və onun məsləkdaşları əvvəllərdə Bakıya başqa fikirlər və əməllərlə [niyyətlərlə] gəlmişdilər. Azərbaycan istiqlaliyyətinin quruca bir adı olduğunu və Müttəfiqlərin vürudu [gəlişi] ilə həmin quru ad daha artıq qalammayacağını və Azərbaycan Hökuməti əvəzinə əzalarının [üzvlərinin] əksər qismi ictimaiyyuni-inqilabiyyunlardan mütəşəkkil "Qafqaz və Mavərayi-Bəhri-Xəzər İttifaqı" namını [adını] daşıyan bir hökumət nəsb olunmasını [qurulmasını] yəqin [dəqiq, mütləq] ədd edən firqələr və onların ətrafına yığılan ənasir [ünsürlər], əvvəllərdə istiqlaliyyətimizə və hökumətimizə qarşı bir taqım sui-hərəkat göstərib, Azərbaycan dövlətinin adını belə eşitmək istəməyirlərdi. Bunlar dəxi rus kadetləri və padşahpərəstləri ilə ağız-ağıza verib, "Vahid Rusiya" deyə qışqırırlardı. Müşavirələrinə dəvət olunmuş bizim firqələr onlara "Vahid Rusiya şüarını əsas olmaq üzrə biz etiraf ediriz, lakin həmin şüar dövrəsində Rusiyanın birliyinə çalışan və nüfuz sahibi olan bir Rusiya hökuməti varmıdır?" sualını verdikdə: "Bəli var" deyə Qafqazla heç bir rabitədə bulunmağa müqtədir olmayan uzaq Ufa Hökumətini göstərirdilər. Lakin bir qədər vaxt keçdi. "Ufa hökumətinin iqamətini [qərargahını, mərkəzini] Ufadan Sibiryaya, Omsk şəhərinə nəql etdiyi anlaşıldı. Bir vaxt keçdikdən sonra "Ümumrusiya Hökuməti" ləqəbi[nin] İdil çayı səvahilindən [sahillərindən] Don tərəfinə köçməyə meyl etməsi aşkar oldu. "Vahid Rusiya"nı düzəltmək niyyətində olan məhafil [dairələr] gözlərini eserlərdən döndərib Denikinlərə, Nikolay Nikolayeviçlərə tikdilər. Ufa yalan oldu, Yekaterinodar doğru. Rusiya inqilabi-kəbirinin [Böyük Rusiya inqilabının] bərəkəti sayəsində alınan siyasi və vətəndaş hüququnun mühafizə edilməsi tərəfdarı olan bütün demokratlar məhafili [demokrat dairələr] işin nə yerə yönəldiyini anladılar. Gördülər ki, "bolşevizmlə müharibə" şüarı bəhanəsilə ortalıqda görünən fəal qüvvələr "Könüllülər ordusu" başçıları, Milyukovlar və bütün əski rus bürokratiyası əl-ələ verib, əski çarizmin təcdidi-həyatına [bərpasına] çalışırlar. Və indidən öz məqsədlərini məxfi tutmağa təhəmmül [səbr] etməyib, demokratiya ziddinə getməklə sosializm əsaslarını bilmərrə aradan qaldırmaq istəyirlər.

Bu isə bütün sosialistləri və demokratları gözüaçıq olmağa vadar etdi. Bütün sosialist və demokratlar gördülər ki, "Vahid Rusiya"nı ehya edən [dirildən] qüvvə dalınca gedərlərsə, ol vəqt öz əlləri ilə özlərinə quyu qazmaq kimi olarlar. Onun üçündür ki, "Vahid Rusiya" şüarına bir qədər ehtiyatla baxmaq məcburiyyətində bulundular.

Digər tərəfdən, Bakıda olan sosialist və demokrat firqələri, Azərbaycan türk və islamları arasında cərəyan edən amal və əfkarı, məsləyi və əsasları dürüst təhqiq etdikdə, bunların heç birində ümum demokratiya mənafeyinə zidd olan bir maddə belə görüldüyü yoxdur. Nəinki yalnız bir demokratik əsaslara, hətta "Vahid", lakin "Demokratik Rusiya" şüarına dəxi bir müxalifət müşahidə edilməyir. Yalnız Azərbaycan türk və islamlarının səy və təlaşı öz hüquqi-bəşəriyyə və milliyyələrini [bəşəri və milli hüquqlarını] müdafiə və mühafizədən ibarət olub, heç bir dövlətin, heç bir millətin əleyhinə qəlblərində xüsumət və ədavət [kin və düşmənçilik] bəsləməyirlər. İstədikləri, asudə olub hamı millətlərlə bəradəranə [qardaşca] bir tərzdə yaşamaqdır. Əgər gələcək "Vahid Rusiya" böylə bir qardaşlıq əsasını qəbul edəcəksə, onu da rədd etməyəcəkdir. Azərbaycan türk və islamları Azərbaycanın istiqlaliyyətini elan etməkdə başqa millətlərə hakim olmaq niyyətində olmamışlardır. Bu vardır ki, öz həyat və məişətlərini mühafizə etmək istəmişlərdir.

Həyat müdafiəsi isə, təbii, haqqa təcavüz surətində ədd [hesab] ediləmməz. Azərbaycan, Rusiyada hökmfərma olan [hökm sürən] hərc-mərc afətindən özünü mühafizə etmək üçün başda bir idarə seçmək işinə hamı ənasiri [bütün ünsürləri] dəvət edir. Burası müsəlman məmləkətidir deyə, qeyri-müsəlman millətlərin haqqlarına təcavüz edilməyir. Bizim sədaqət və səmimiyyətimizi görüb və etiraf edib, bizimlə əl-ələ verməli idilər.

Hal-hazırda bolşevizmin tüğyanı ilə sağ firqələrin iştahası arasında qalan demokratiyanın ittifaq və ittihadı [birliyi] ən mühüm siyasi məsələlərdəndir. Əgər demokratiya bu gün ittihad və ittifaq etməzsə, ya bolşevizm və ya padşahpərəstlər qurbanı ola biləcəkləri əğləb [qüvvətli] ehtimaldandır.

Bu həqiqət, görünür ki, Bakı demokratları üçün dəxi aşkar olmuşdur, ona binaəndir [görədir] ki, Rusiya mərkəzində möhkəm bir hökumət əmələ gəlincə, Rusiyadan ayrılmış başqa millətlərin müqəddəratını etiraf [qəbul] etmək əsası üzrə, arada bir saziş və etilaf [razılıq] hüsula gəlməkdədir.

Əlbəttə, biz rus demokratiyası ilə "müsəlmanpərəst" görünən bəzi rus monarxistlərinə təfavüt qoyarız və biz heç vaxt onunla əlahiddə iş görmək niyyətində olmamışız. Lakin keçirdiyimiz şərait fövqəladə olduğundan, biri-birimizdən bir qədər uzaq düşmüşdük. İndi isə, əgər Bakı demokratları sidqiyyət [doğruluq, sədaqət] və səmimiyyətlə bizə əl uzadıb da məmləkətimizin rifah və səadəti və bütün əhalinin bilafərqi-dinü qövmiyyət [dini və milli fərq olmadan] mənafeyi üçün çalışarlarsa, biz onları eyni səmimiyyətlə qarşılarız.

Hər halda bu yolda hüsula gələn etilaf və sazişi təbrik və bunun qəti və səmimiliyini arzu ediriz.

## AZƏRBAYCAN
## MƏCLİSİ-MƏBUSANINDA

**Məxaric smetası**

Tərtibat və Ləvazim Komissiyası, Məclisi-Məbusanın üçüncü iclasında Parlamanın 1920-ci il yanvar ayınadək məxaric smetasını iclasa təqdim etmişdi. Smeta bu qərarla tərtib verilmişdir:

Dəftərxana müdiri ayda - 2500 manat
Onun müavini ayda - 2000 manat
Şöbə müdirləri (2) hərəsi ayda - 2000 manat
Parlaman sədri katibinə ayda - 2000 manat
Kargüzarlara (5) hərəsi ayda - 1400 manat
Dilmanclar (2) hərəsi ayda - 1400 manat
Mühasib ayda - 1500 manat
Veznədar [Kassir] ayda - 1200 manat
Müqəyyidlər [qeydiyyat məmurları] (2) hərəsi ayda - 1000 manat
Dəftərxana xidmətçilərinə (5) ayda - 750 manat
Stenoqraf rusca (4) ayda - 1200 manat
Stenoqraf türkcə (6) ayda - 1200 manat
Katib rusca ayda - 1200 manat
Katib türkcə ayda - 1500 manat
Reminqtonçu [makinaçı] (2) ayda - 750 manat
Kvestor [təsərrüfat müdiri] ayda - 1200 manat
Onun müavinləri (2) ayda - 1200 manat
Ləvazım müdiri ayda - 1000 manat
Xidmətçilər ayda - 550 manat
Telefonçu (2) ayda - 550 manat
Cümlətan yekunu ayda - 55.750 manat
İldə 669.000 manat

* * *

Bundan əlavə, dəftərxana məsarifi [xərcləri] üçün
100.000 manat
Vəqti-müəyyənədən artıq çalışanlara - 15.000 manat
Fövqəladə məxaric yol pulu - 30.000 manat
Xidmətçilərə bəxşiş - 61.675 manat
Cümlətanı - 206.675 manat

* * *

Şurayi-Milli əzasına [üzvlərinə] ma-aş gündə - 100 manat hesabıyla 17 günün mükafatı - 74.800 manat

Parlaman əzasına gündə - 100 manat

Parlaman əzasına ezam və sairə - 100.000 manat

Hər sessiya ibtida [başlanğıcında] və sonunda Parlaman əzasına yol xərci - 120.000 manat

Parlaman sədrinə nümayəndəlik əcri [mükafatı, maaşı] olaraq ildə - 30.000 manat

Onun iki müavininə ildə - 36.000 manat

1918-ci il təşrini-sanisinin [noyabrı-nın] 15-dən - 1919-cu il kanuni-sani-sinin [yanvarının] 1-dək 13 ay yarım müddətində ümumiyyətlə

* * *

Parlamanın məxarici - 4.942.000 manat

Smeta əhəmiyyətsiz təbəddülat [dəyişiklik] ilə qəbul edilmişdir.

## TELEQRAF XƏBƏRLƏRİ

* "Eveninq standart" qəzetəsi xəbər verir ki, Lloyd Corc, Sülh Konfransında Yevropa dövlətlərinin icbari mükəlləfiyyəti-əsgəriyyənin [hərbi mükəlləfiyyətin] ləğv olunması razılığına nail olmasa da, bu tövr mükəlləfiyyəti-əsgəriyyənin İngiltərədə ləğvini təkid edəcəkdir.

* Brest-Litovsk sülh əqdnaməsi mövcibincə [sazişinə əsasən] almanların ruslardan aldıqları 320 milyon frank qızıl Parisə gətirilib Fransa Dövlət Bankına verilmişdir.

* Petroqraddan Berlin təriqi [yolu] ilə verilən teleqrafda deyilir ki, Rus Şura Hökuməti "Avrora" zirehlisinə birinci zərurət zamanında üzməyə hazır olmaq əmrini vermişdir. Təhlükə zamanında Şura üzvləri bu gəmidən istifadə edib bitərəf limana gedəcək-lərdir.

* Vaşinqtondan xəbər verirlər ki, Amerikanın 1920-ci ildə tamam olacaq Dəniz Qüvvəsi Proqramı bu surətdə elan edilmişdir: 350 sualtı qayıqlarını təxribedici gəmi, 112 qaraqol gəmisi, 40 sualtı qayığı, 50 mina buraxan gəmi, 25 yedək gəmisi, 5 drednot və 350 minanos [torpedo gəmisi].

* Kiyevdən Kopenhaqa verilən teleqrafda deyilir ki: Könüllü ordu nəz-dində olan Xüsusi Müşavirə üzvlərindən ibarət Yekaterinodarda Ümumrusiya Hökuməti təşkil edilmişdir. Sazonov bu hökumətin Xariciyyə naziridir. Bu hökumətin məqsədi federasiya əsasında "Vahid Rusiya" bərpa edib bolşevikləri Ukranyadan qovmaqdır.

* Xarbindən xəbər verirlər ki, Rusiyanın böhranlı əhvalı münasibəti ilə general Kolçakın müvəqqət diktator təyin edilməsi Omskda qərara alınmışdır.

* İndiyə qədər Müttəfiqlərə 87 sualtı qayığı təslim edilmişdir. Bu sualtı qayıqlarından bir neçəsi ən böyük sualtı zirehlisidir. Bunlardan birinin uzunluğu 650 funtdur (7 funt bir sajendir). Qayıq xidmətçilərinin ədədi 91 nəfərdir. Digər birisi 5 düymlü topla təchiz edilib, hətta buz döndərən maşinaya belə malikdir.

* İngiltərə teleqraflarının verdikləri xəbərlərə görə, Berlin əhvalı gəldikcə ağırlaşmaqdadır. Hökumət, əsgərlərin qışlalardan [kazarmalardan] çıxmasını qadağan etmişdir. Libknext firqəsi ümumi fəhlələr tətilini təkid etməkdədir. Bu firqə bir çox pulemyot və qeyri ləvazimati-hərbiyyəyə malikdir. Sosial-Demokrat Əksəriyyət Firqəsi, "Spartak" komitəsinin bərhəm edilməsi [dağıdılması] ilə Libknextin həbs olunmasını tələb edici bir ultimatumla hökumətə müraciət etmək niyyətindədir.

* İngiltərə Baş vəziri [Baş naziri] söylədiyi nitqində torpaq məsələsindən bəhslə demiş ki: Əhali, ələlxüsus [xüsusilə] ehtiyat saldatları və maryaklar [matroslar], torpaq işlərinə məşğul olmalıdırlar. Bundan ötrü də hökumət ziraət kursları təşkil etməlidir. İstehsalat genişlənməlidir. İstehsalatın azalması irtica bərabəridir. Lakin siz şəxsi xüsusiyyəti zəbt etməməlisiniz. Bu bolşevizmin azmış yollarındandır.

Baş vəzir, Hökumət idarəsinin qaydaya salınması lüzumiyyətindən bəhslə demiş ki: İngiltərədə inqilabçı ünsürlər vardır. Bunlar yaratmaq istəməyib, ancaq hərc-mərcliyə çalışmaqdadırlar. Rusiya bolşevikləri bütün Yevropada hərc-mərclik təşviqatına məşğuldurlar. Biz, İngiltərədə bu tövr təşviqat aparılmasına mümaniət göstərməliyiz [mane olmalıyız].

* Vaşinqtondan verilən rəsmi xəbərə görə, Amerika tələfatı bu qərar üzrədir: 53169 əsgər ölüb, 177625 nəfər yaralanmış və 3323 nəfər əsir və xəbərsiz itmişdir.

## XALQ MƏKTƏBLƏRİ
## MÜDİRLƏRİNİN YIĞINCAĞI

**- 2 -**

Qəbul etməli şeylər çox-çoxdur, lakin bu dəfə öylələrini təklif etməli ki, həm müəllimə məşğələ və həm də Azərbaycana xidmət [edən] bir şey olsun. Mənə qalarsa, bu dəfə bu aşağıdakıları təklif edərdim:

1) Lüğət tədarükü: Bu gün sırf [saf] türkcəni dinləmək üçün, dəhat [kənd yerləri] və tərəkəmə arasına getməlidir. Bunların arasında öylə qiymətli türk kəlmələri qalmışdır ki, onlar ədəbiyyat dairəsində çoxdan itib-batmışdır. İştə millətin böylə "dürri-giranbəha"larını [qiymətli incilərini] yığıb hifz etmək lazım gəlir. Bu, bir ağır vəzifədir ki, öhdəsindən bir-iki-üç şəxs gələ bilməz, bəlkə tamam məktəblər müəllimləri bu dairədə çalışarlarsa, bir şey hasil olar. İştə bu vəzifəni əziz müəllimlərimiz öhdələrinə alsınlar: ziraət, ticarət, siyasət, maldarlıq, bağbanlıq və meşəlik sair ətrafında işlənilən ləfz və ibarələri əhalidən eşidərkən, xüsusi dəftərçələrə, tamam bəyanatı ilə bərabər qeyd etsinlər və hər ilin axırında bu minval ilə yığılmış məlumatı müdirlərinə təqdim etsinlər. Bunlar da bu işləri təhqiq edib, tamam məlumatı Maarif idarəsinə, yaxud Üləma Əncüməninə (Академия Наук) göndərsinlər. Bu minval ilə on beş-iyirmi sənənin ərzində o qədər məlumat cəm olar ki, axırda sırf türkcə bir lüğət, bir qamus nəşrinə şüru etmək [başlamaq] olar. Maarif Vəzarətinin [Nazirliyinin] hümmətilə müəllimlərə məxsus bir jurnal yaradılarsa, bu yığılacaq məlumat da həmin jurnalda qitə-qitə [hissə-hissə] dərc olunar. Rus qamusçusu Dal həmin qərarla mükəmməl bir rus lüğəti yapmışdırlar.

2) Tarix tədarükü: Bugünkü Azərbaycan, vaxtilə neçə xanlıqlardan ibarət idi. İndiyədək bu xanlıqlara dair mətbuatda heç bir şey görünmədi. Lakin camaat arasından öylələri vardır ki, həmin xanlıqlar asarından [əsərlərindən] bir çox şey yazmışdır, yaxud zehnən hifz etmişdir. İştə bu məlumat, göstərilən təriqlə [üsulla] yığılarsa, vaxtıyla Azərbaycan tarixinə də şüru olunar. Qafqazda məruf [bilinən] xanlıqlar bunlardır: Gəncə, Qarabağ, Şəki, Şirvan, Bakı, İrəvan, Naxçıvan, Talış və sair xanlıqlar, ağalıqlar (Qazax), sultanlıqlar (Zaqatal) və qeyriləri. Bu xanlıqların hamısından məlumat yığılarsa, vaxtıyla Vətən tarixi tərtib verilər. Müəllimlər arasında bir çox tarix maraqlıları vardır ki, bu məsələ onlara həvalə olunarsa, canı-dillə işə başlarlar.

3) Coğrafiya tədarükü: Dağların, yamacların, aranların, yaylaqların, qışlaqların, ovaların, çayların, yolların, şəhərlərin, kəndlərin və qəsəbəçələrin adları, mövqeyi-coğrafiyyələri [coğrafi mövqeləri] (tul və ərz) [coğrafi uzunluq və enlikləri], tarixi və coğrafi mənaları öyrənilsin və həmin təriqlə cəm olsun, ta ki vaxtıyla Azərbaycan coğrafiyası və mükəmməl xəritəsi ortalığa çıxsın.

4) Nəbatat, heyvanat, mə'dəniyyat [mədənlər], asari-ətiqə [qədim əsərlər] və sair fənlər tədarükü: Azərbaycan nəbatatını öyrənmək üçün (ələlxüsus nüsxəbəndlikdə [dərman müalicəsində, əczaçılıqda] və kimyada işlənilən nəbatat) sadəcə bir üsul vardır ki, həmin nəbatatın birər nüsxəsini qurudaraq, kağız arasında saxlayırlar, altında da bu nəbatın ismi, xasiyyəti, məkanı, mənfəəti yaxud zərəri qeyd olunur. İştə maraqlılar üçün böyük bir meydan açılır: buyursunlar vətənin otlarını, çiçəklərini yığsınlar; adları əhali arasında mərufdursa [bilinirsə], altında yazsınlar. Adları məlum deyilsə, yazmasınlar: bunların adlarını Bakıda yaxud İstanbulda nəbatiyyun üləması [botanika alimləri] kəşf və qeyd edərlər. Bu üsula ruslar "gerbari" (Гербарий) deyirlər. Bu üsulla vətənin nəbatatı öyrənilər və vaxtıyla mükəmməl bir nəbatat xəritəsi (Ботанический атлас) hüsula gələr.

Heyvanata gəldikdə – heyvanların, quşların, balıqların nəvasını [müqəvvasını] (Чучела), həşəratı sancaqlarda, ilan-çiyanı da şüşədə spirto içində məhfuz [qorunmuş olaraq] saxlamalıdır. Bunların da vaxtıyla xəritələri (Зоологический атлас) tərtib verilər.

Mə'dəniyyata [mədənlərə, faydalı qazıntılara] gəldikdə – bunların təbii nüsxələri və asari-ətiqənin də əksləri [fotoşəkilləri] gərək yığılsın. Qədim pullar, əslihə [silahlar] və libaslar yenə bu qərarla cəm olunarsa, faydadan xali [faydadan məhrum, faydasız] deyil.

İştə, bu minval ilə yığılmış məlumatı və maddələri saxlamaq və vaxtında istifadə etmək üçün hər nazirin təhti-nəzarətində [nəzarəti altında] birər müzəxana [muzey] açmaq lazımdır. Bu müzəxanalar Bakıda, Gəncədə, Şuşada, Şəkidə, Şamaxıda, Qubada, Salyanda, Gorusda və Lənkəranda gərək açılsın. Bu müzəxanalardan bəzi şeylərin birər nüsxələri Bakıdakı mərkəz müzəxanaya elmi istifadələr üçün köçürülər, qalanları da əhalinin və həvəslilərin tədqiq və müayinəsi üçün həmin müzəxanalarda məhfuz qalar [qorunub saxlanılar].

5) Elmi müayinələr: Müəllimlərə suallı dəftərlər paylansın ki, həmin suallara cavab yazaraq müdirlərə qaytarsınlar. Həmin dəftərlərə qeyd olunacaq suallardan bir neçəsini burada söyləyəlim:

1) Can və mal təhriri-nüfusu [sayının qeydiyyatı] (Статистика);

2) Əhalinin mənbeyi-məişəti [dolanışıq mənbəyi] (ziraət, maldarlıq, ticarət, mədənçilik, pambıq və barama kimi işlər);

3) Köçəri quşların gəlmək və getmək zamanı; birinci şaxtanın zamanı, qarın vaxtı, ildə neçə gün yağış, qar və xoş hava olur? Nə vədə çaylar daşır və nə vədə yatır? Çayların coşğun zamanında əhaliyə mənfəəti və zərəri;

4) Müsri [yoluxucu] naxoşluqlar, nəbatat və heyvanat mərəzləri və onların "türkəçarə" müalicələri;

5) Pirlər, ocaqlar və bəzi yerlərdə ağaca, daşa olan etiqadlar; dəblər, adətlər...

6) Camaat arasında intişar tapmış [yayılmış] nəqllər (nağıllar), timsallar [təmsillər], yanıltmaclar, boyatılar [bayatılar] və saz aşıqlarının deyişmələri. Bunları müfəssələn yazmalıdır.

Bu işləri dürüst yapmaq üçün bir çox yerlərdə, məsələn Ağdamda, Bərdədə, Qazaxda, Zaqatalada, Ağdaşda, Göyçayda, Cəbrayılda və Muğanda birər müayinəxanalar (Метеорологическая станция) təsis etmək lazım gəlir. Müayinəxanaların karastıları [cihazları] çox olarsa, qonşu kəndlərin də müəllimləri istifadə edə bilərlər.

İştə bu işləri əncama gətirmək üçün, qabaqca hazırlıqlar kursları açmalıdır, ta ki, orada müəllimlər məsələlərin fənn və üsulunu öyrənərək, yerlərində də icraya başlasınlar. Bu barədə müəllimlərə bir çox rəhbərlər, düsturüləməllər [təlimatnamələr], xəritələr, planlar, fotoqrafiya makinaları, atlaslar və sairləri lazımdır ki, lüzumiyyəti olduqca, gərək dərdəst olunsun [əl altında olsun].

Bu təkliflər təzə bir şey deyil, köhnə hökumət də bunlarla məşğul olurdu; lakin ayrı bir nöqteyi-nəzərlə. Bu gün bizim məqsədimiz: özümüzü, yerlərimizi, sularımızı və mayəhtacımızı [ehtiyacımız olan hər şeyi] öyrənməkdir; elmə və fənnə xidmət göstərməkdir.

İştə meydani-fəaliyyət həvəslilər üçün açıqdır; milləti-hakimə olmaq məqsədində bulunan cavanlarımız meydana gəlsinlər, istedadlarını da göstərsinlər.

*Fərhad Ağazadə*

## MAARİF MÜFƏTTİŞLƏRİNİN
## YIĞINCAĞINA DAİR

Keçirdiyimiz dövr, maziyə [keçmişə] nisbətən fövqəladə tarixi bir dövr olduğu kimi, cavan Azərbaycan Hökumətimizin Maarif Nəzarəti tərəfindən ilk qədəm olaraq dəvət və tərtib edilən Maarif Müfəttişlərinin Əvvəlinci Yığıncağı (nədvəsi) [müşavirəsi] dəxi tarixi bir vaqe olmalıdır.

Cəhalət sayəsində əsrlərdən bəri mədəni əqvam [qövmlər] arasında çürük bir əza [orqan] kimi görünərək, hakim ikən məhkum və hüquqən məhrum olan millətimiz, onların istehza və nifrətinə belə məruz qalmışdır. Axırıncı acı təcrübələr bizə isbat etdi ki, vətənimizin abad və tərəqqisi, millətimizin səadət və müqəddəratı, ələlxüsus [xüsusən] dinimizin şərəf və bəqası [əbədiliyi], həyati-ictimaiyyəyə və siyasətə biganə qalaraq müdam [daim] təsbeh və dua etməklə deyil, ancaq təqazayi-zamanəyə [zamanənin tələbinə] görə vətən və milləti sevərək, onun şan və hüququ uğrunda fədakar və qəyur [çalışqan] bir qələm ordusu hazırlamaqla ola bilər. Zənn edirəm, bu aləmşümul [bütün dünyanı əhatə edən] müharibənin bəxş etdiyi təxribat və tələfatdan bizar olmuş aləmi-bəşər, bir daha o cəhənnəmnümun [cəhənnəmi xatırladan] toplar, o nizəli tüfənglər ilə yox, ancaq ülum və maarif silahı olan "qələm" ilə müsəlləh olacaqlar [silahlanacaqlar]...

İştə həmin ordunu mükəmməl surətdə müsəlləh edib, bilfeil [əməli surətdə] meydani-mübarizəyə çıxarmaqla, həqir olan millətimizi özünə layiq şan-şərəflə yaşatmaq vəzifəsi, məzkur [adı çəkilən] ordunun koman-danı hesabında olub bu gün nədvədə olan məkatib [məktəblər] və maarif müfəttişləri [müdirləri] olsalar gərəkdir.

Sabiq Rusiya Hökumətinin maarif müfəttişləri hər biri öz nahiyəsindəki məktəbləri üçün müxtəlif proqram tərtib etdiklərindən, onlardakı üsul və tədris kitabları dəxi müxtəlif idi.

Ona görə, idarəcə maarif müfəttişlərinin və tərbiyəcə məktəblərin yek-digəri [bir-biri] ilə lazımi qədər rabitəsi olmadığı üçün, ibtidai məktəbi ikmal edib şəhadətnamə almış bir şagird nə qədər müstəid [istedadlı] olsa belə, rüşdiyyə məktəbinə [orta məktəbə] ya qəbul olunmayırdı, yaxud qəbul olunarsa, üsul və proqramca çox əziyyətlər çəkirdi.

Bir millətin istiqbal və səadətinə xidmət edəcək ülum [elmlər] və tərbiyə heç vaxt müxtəlif əndazədə ola bilməz; bərəks [əksinə], gələcək nəslimizin əxlaqi-ruhiyyə və hissiyyati-vətənpərvəranəsi millətin qayə və amalına erişəcək doğru bir təriq [yol; üsul] üzrə olmalıdır.

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 18 dekabr (Çərşənbə günü) tarixli 67-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Bu vəchlə, övladi-vətən daha mək-təbdə ikən üstadi-əzəm [böyük üstad], cənnətməkan, mərhum İsmayıl bəyin tövsiyə etdiyi "Dildə bir, fikirdə bir və işdə birlik" şüarını öyrənməlidir. İştə ülum və tərbiyə haqqında bu mühüm nöqtəni nəzərə alaraq, ümumi bir dil, bir proqram və bir üsul tərtib etmək və bu surətlə məkatib [məktəblər] və müfəttişlər arasında sıxı bir irtibat [rabitə, əlaqə] əmələ gətirmək üçün Maarif Nəzarətinin dəvət etmiş bu nədvəsi şayani-təqdirdir [təqdirə layiqdir].

Zənn edəriz, bu nədvədə də qərar olunan məsaili-mühimmə [mühüm məsələlər], nə qədər ağır və baha otursa da, xəstənin şəfayab olması [şəfa tapması] üçün bir təbibi-haziq [təcrübəli həkim] tərəfindən yazılmış nüsxə [resept]ədd [hesab] edərək, bilatəxir [gecikmədən] hökumətimiz icra edəcək...

Yığıncağın əvvəlinci iclası kanuni-əvvəlin [dekabrın] 12-sində möhtərəm Həmid bəy Şahtaxtlının təhti-sədarətində açılıb, Maarif Nəzarətinə müfəttiş əfəndilər tərəfindən təqdim olunmuş gələcək 1919-cu sənənin məsarif [xərclər] layihələri smetası müzakirə olundu; fəqət, məkatibi-ibtidaiyyələrin [ibtidai məktəblərin] cümləsi bir məsarif üzrə olmaqla, millət övladının tərbiyəsi uğrunda ömrünü sərf edən zəh-mətkeş müəllim əfəndilərin ehtiyaci-hazirəyə [hazırkı ehtiyaclara] görə onların təmini-maaşları üçün ümumi bir smetanın tərtibi mətlub olduğundan [tələb edildiyindən], məsələnin həll və qərarı gələcək iclasa qaldı.

2-3-üncü iclasda əşədd [ən çox] ehtiyacımız olan tədris kitablarının növü və nəşri barədə həmin məclisə təqdim olunan kitabların qəbul olub-olmadığı barədə müfəttiş əfəndilərin mütaliə [qiymətləndirmələri] və mübadileyi-əfkarı [fikir mübadiləsi], ələlxüsus, bu vaxta qədər ibtidai məktəblərdə müşahidə olunan nöqsanın rəfi [aradan qaldırılması] və lüzum görülən islahatın tərtibatı haqqında müzakirə olundu. Gələcək nömrədə bu xüsuslardakı nədvənin qərarını bəyan edəriz.

*İslam bəy Qəbulov*

### MÖVLUDİ-NƏBİ

Rəbiüləvvəlin 12-də Məclisi-Məbusan binası salonunda "Səadət" cəmiyyətinin təşəbbüsü ilə Mövludi-Nəbi görüş məclisi təyin olunmuşdu. Məclisi yeni təyin olunan Şeyxülislam Axund Ağa Ağaəlizadə həzrətləri açdılar. Bəliğ [bəlağətli] bir xütbeyi-ərəbidən [ərəbcə xütbədən] sonra səlis və sadə bir tərzdə ifadə eylədiyi uzun nitqində hazirunu [iştirakçıları] ittihada [birliyə], ittifaqa, Azərbaycan Hökumətini təqviyəyə [gücləndirməyə, dəstəkləməyə] dəvət eylədi və zimnən [dolayı olaraq] bütün dinlərin insanları ayırmaq üçün deyil, birləşdirmək üçün gəldiyini zikr edərək "Bizi nə hüdudi-şahan [şahların sərhədləri], nə ixtilafiəlsinə [dil müxtəlifliyi], nə İncil və nə də Quran ayırammaz" məzmununda olan türki [türk dilində] bir şeirlə əsrin hakimi olan insaniyyətpərvəranə fikrə tərcüman oldu.

Axund Ağa həzrətlərindən sonra Şeyx Qəni cənabları istiqlalın bir mövhibeyi-üzma [böyük bir ehsan, nemət] olduğunu bəyanla, Azərbaycan Cümhuriyyəti rüəsası [başçıları] ilə hökumət ricalına [hökumət adamlarına] xeyir-dua eylədi.

Bədəhu [sonra] Ağaoğlu Əhməd bəy cənabları acı danışacağını müqəd-dimətən [başlanğıcdan etibarən] zikr eyləyərək, hüzzara [orada olanlara] acı məzəmmətlər və pədəranə [ata kimi] nəsihətlər etdi: "Bundan on il əvvəl sizdən ayrıldım, dönərkən sizi on il də geri gördüm" dedi. "Dilimizi unutmuşsunuz, adətlərimizi dəyişmişsiniz, tamamilə başqa bir hala və qəlibə girmişsiniz. Eyvah, sizlərə bu hal ilə istiqlal qazanmaq bir əmri-məhaldır [çətin bir işdir]. Dilsiz millət olmaz, millətsiz istiqlal! Fəqət bununla bərabər istiqbalınız [gələcəyiniz] var. Siz Asiyanın Belçikası ola bilərsiniz. Yalnız yetişir ki, parəpərəst [pul düşkünü] olmayasınız! Hökumətinizə ehtiram ediniz. Hökumətiniz, Parlamanınız vəzifələrini saxlayınız, o zaman nailiməram [məqsədinizə nail] olarsınız."

Sonra Hacı Zeynalabidin Tağıyev cənabları kəndilərinə məxsus olan səda ilə nitqə başladı. Hökumətdən şikayət eylədi. Fabrikasının malını qoymayırlar ki, özü satsın. Ondan beş manata alırlar, sonra kənarda 17 manata satırlar. "Bu bina bilirsiniz ki, nə binadır? Qızlarımız gərək oxusun, halbuki, Hökumət buranı mənim əlimdən aldı. İdarə yapdı," deyə tənqidatda bulundu.

Daha sonra rus keşişlərindən Kravçenko səlis və bəliğ bir nitqilə hazirunu qardaşlığa dəvət eylədi.

Nəhayət, Şeyxülislam həzrətləri duayi-xətm [bağlanış duası] tilavət edərək [oxuyaraq], məclisə intəha verildi.

### MÜSƏLMAN XANIMLARININ NƏZƏR-DİQQƏTİNƏ

Düşənbə [bazar ertəsi] rəbiüləvvəl ayının 12-inci günü peyğəmbərimiz həzrəti Məhəmməd sələvatullahi əleyhi vəsəlləmin ruzi-təvəllüdü [doğum günü] cəhətincə Mövludİ-Nəbi bayra-mı idi. Bu müqəddəs gün bizim üçün nə böyük bayram, nə səadətli bir gün olduğunu deməyi artıq bilirəm. Keçən ildə keçirdiyimiz dəhşətli və müsibətli günlər və o müsibətlərdən gördüyümüz və aldığımız yaralar o qədər təzədir ki, hənüz o cəhətə millətimizin gördüyü fəlakətlər bir çox zaman ürəklərimizin açılmamasına bais olacaqdır. Yəqindir ki, bu yövmi-məsudu [xoşbəxt günü] keçən illər misalınca şadiyanə və təntənəli keçirməyə mənən iqtidarımız yox idi. Ancaq bunu ərz etmək lazım gəlir ki, bu gündə bir yerə cəm olmaqla həm peyğəmbərizişanımızın [şanlı peyğəmbərimizin] ruhi-mübarəkini [mübarək ruhunu] şad eyləriz, həm də bacılarımız bir-birimizin halından xəbərdar olar. Dərdi danışdıqca az olar misalınca hər bir insan bir-birinin dərdinə şərik olanda bir növ dərdləri yüngülləşər və bəlkə də çarə tapılar. Zatən bir-birilə toplaşıb görüşməklə fikirlər törəyib meydana çıxar. Bu müqəddəs günü bir də yad etmək niyyəti ilə Bakı Müsəlman Ünas [Qadınlar] Cəmiyyəti bir yerə cəm olmaqla bərabər, ümum Bakı müslimələrini [müsəlman qadınlarını] bu məclisə dəvət edir. Əlbəttə, bu il də hər ildəki kimi, nə çalğı, nə teatr və tamaşası, nə qeyri şey olmayacaqdır. Ancaq cəmiyyətin fikri və məqsədi məhz bu mübarək gündə bir yerə toplaşmaqla həmdərd və həmfikir olmaqdır.

Sevgili vətənimiz Azərbaycanın paytaxtı olan Bakıda biz dəxi gərək bir yerə cəm olub, bir-birlərimizlə görüşməklə bərabər bu əziz günləri yad edək. "Qara günün ömrü az olar." İnşallah, gələcəkdə vətənimizdə hürr yaşadığımız zamanda böylə müqəddəs günü böyük bir şadyanalıqla yad edəriz və bütün millətimizin məsudiyyətini Xüdayi-Rəbbülmənnandan [mərhəməti və ehsanı çox olan Allahdan] istirham edəriz.

Binaileyh [ona görə], həmin pənc-şənbə [cümə axşamı] günü rəbiüləvvəl ayının 15-ində (dekabrın 19-cu günü) Persidski küçədə vaqe Ağa Murtuza Muxtarovun evində Mövludi-Nəbi ayinini yad etmək üzrə düzələcək məclisə Bakı Müsəlman Ünas Cəmiyyəti müsəlman xanımlarının o məclisə təşrif gətirmələrini təmənna edir və biz dəxi o məclisə getməklə gərək özümüz iftixar edək.

*F. xanım S.*

### BAKI XƏBƏRLƏRİ

* Maarif Nəzarətinin əmri mövcibincə [əmrinə əsasən], Bakıdakı Ticarət məktəbi cənbində [nəzdində] müsəlman çocuqları üçün tədrisatı türk lisanında aparılacaq hazırlıq sinifləri açılacaqdır.

* Kanuni-əvvəlin [dekabrın] 8-ində saat 4 radələrindən Realnı məktəbində 30-cu dairə ev təşkilatının intixabatı [seçkisi] vaqe olmuşdur [baş tutmuşdur]. 339 vəsiqə pişnihad [təqdim] edilmişdi. Sədarətə Lopatinski, katib-liyə Poqosyan intixab edilmişdi [seçilmişdi]. İntixab, Amerika üsulu ilə olmuşdur. Dairə ev komitəsinə 20 üzv, 10 nəfər namizəd intixab edilmişdir.

3-cü dairədən Mərkəzi Ev Komitəsinə bunlar seçilmişlər:

1) Əlibala Rzayev; 2) İvest; 3) Rza bəy Sultanov; 4) Dadaş Əliyev.

Namizədlər: 1) Mir Hüseyn Tağı-yev; 2) Hüseynbala Məhəmmədov; 3) Xəlil Hüseynov; 4) Dava vəkili Abbas Dadaşov.

**Ərzaq işləri**

* Tağıyev fabrikasından alıb ətraf kəndlər camaatı arasında hər nəfərə 4 arşın və arşını 5 manat şərtilə olaraq paylamaq üçün Novxanı kəndi vəkili Xudaverdi Rza oğlu və Kərbəlayi Əşrəf Baba oğluna 7800 arşın; Digah kəndi vəkili Məzahir Əbdüləzim oğluna 5046 arşın; Corat kəndi vəkili Məşhədi Abbasəli Hacı Nəcəfəli oğlu və Həsən Hacı Xaliq oğluna 7720 arşın; Binə kəndi vəkili Əbdülsəlam Babayevə 2708 arşın; Güzdək kəndi vəkili Ağaverdi Əliəkbər oğlu və Həmid Novruzəli oğluna 3696 arşın bezə Ərzaq Nəzarəti icazənamələr verdi.

* Ənzəlidən Bakıya 12000 put düyü gətirib satmaq üçün Ərzaq Nəzarəti V. S. Çxeidzeyə icazənamə verdi.

* Gürcüstandan Azərbaycana 2000 put qənd gətirib sərbəst satmaq üçün Ərzaq Nəzarəti Əliabbas Babayevə və dörd vaqon da Əliabbas Sultanov gətirməsinə icazənamə verdi.

* Kanuni-əvvəlin [dekabrın] 15-ində dəmiryol ilə Bakıya daxil olan ərzaq və mal:

Arpa - 1448 put;
Odun - 5500 put.
Kanuni-əvvəlin 16-ında:
Buğda - 1905 put;
Un - 124 put;
Kartof - 25 put;
Arpa - 1372 put;
Odun - 2000 put.

### AZƏRBAYCANDA

**Andranikin məktubu**

"Horizon" qəzetəsində Andranikin bir məktubu dərc edilmişdir. Bu məktub, Qarabağda Andranikin və Daşnaksutyun firqəsinin təqib etdikləri məqsədi aydınlaşdırdığından, tərcüməsini qarelərimizə [oxucularımıza] təqdim ediriz. Andranik yazır ki:

Qafqaziya erməniləri[nin] faciənak [faciəvi] qara günlərində, o zaman ki, Türkiyə ilə Ermənistan Cümhuriyyəti arasında sülh əqd edildi, mən özümün və qoşunumun Ermənistan daxilində yaşamamızı lüzumsuz və qeyri-mümkün ədd [hesab] edərək dağlar, dərələr və biyabanlar təriqi [yolu] ilə müttəfiq İngiltərə qoşununa qoşulmağa getdim. Bu ümidlə ki, onun köməyi ilə Türkiyə Ermənistanının son parçasını müdafiə edək, fəqət talehim müvəffəqiyyət etmədi və Naxçıvan ətrafındakı müsadimədən [toqquşmadan] sonra tarixi Qarabağ dağlarına keçdim ki, hürriyyətpərvər və qeyri-mətbu [boyun əyməz] ruhumuzu başqalarının alçaq hakimiyyəti altına verməyim. Şimdi üç aydan ziyadədir ki, Qarabağın dağlarında, dərələrindəyiz. Mənim dəstəm Qarabağa girən zaman çox ağır günlər idi, qoşunlarım nizamsız, saldatlarım yorğun və pərişan, qaçqınlar zəif və qorxmuş idilər. Boynuma almalıyam ki, bu bədbəxtlik mənzərəsini gördükdə, bütün müharibə müddətində heç bir təcavüz görməyib qurban vermiş olan yerli əhali bizə qarşı soyuqqanlılıq, rəğbətsizlik və hətta bəzən ədavət ibraz etdilər [düşmənçilik göstərdilər]. Böylə münasibatdan dolayı qoşunum bir az da əksildi. Qaçqınlar aylarla açıq havada, dərələrdə ac qalırdırlar; hələ də yerləşdirilməmişlərdir. Sisyan və Zəngəzur uyezdinin 8000 evdən ibarət əhalisi 12-14 min qaçqını yerləşdirə bilmədi. Öylə bir təşkilat yoxmudur ki, bu bədbəxtlərə müavinət [kömək] etsin?

Zəngəzur uyezd əhalisi tərəfindən etimad və müavinət görməyərək qoşunumun çoxu Qarabağdan getdi. Mənimlə ancaq bir az saldat qaldı. Mən isə heç vəchlə Ermənistan Cümhuriyyətinə getməməyi qərarlaşdırdım. Bu zaman idi ki, vəziyyətin ciddiliyini hamıdan əvvəl anlamış olan Sisyan nümayəndələri sentyabrın 4-ündə vüqu bulmuş olan mahal syezd[ində] xahiş eylədi ki, mən Sisyanda qalıb müdafiə üçün məhəlli [yerli] təşkilat yapım. O vaxt dəhşətli günlər idi, qüvvələnmiş düşmən, Batum əhdnaməsinə [sazişinə] istinadla Sisyan və Zəngəzur mahalları əhalisindən Azərbaycana tabe olaraq silahlarını vermələrini tələb və əks surətdə ciddi tədabir ittixazı ilə [ciddi tədbirlər görməklə] təhdid edirdi. Bəlkə böylə təhdidlər, nəhayət bir nəticə verməyəcəklərdi də fəqət heç ümid və istinadgahı olmayan əhali bəzi yerlərdə, məsələn, Gümrü ətrafında və Gorusda düşmənin tələbinə əməl və Azərbaycan təbəiyyətini [vətəndaşlığını] qəbul etməyə razı olurdu. Lakin mənim qəti müqabiləm [müqavimətim] sayəsində böylə xahişlərə əməl edilməyib, Sisyan mahalı tabe olmamağa və axıradək mübarizə etməyə qərar verdi. 20 yaşından 30 yaşınadək cavanlara səfərbərlik elan edilərək dəstələr təşkil olundu və Sisyan hüdudunda səngərləri tutdular. Təhlükənin ciddiyyətini anlayaraq Sisyandan sonra Zəngəzur və Qapan [Qafan] mahalları dəxi mübarizəyə qərar verərək, 20 yaşından 50 yaşınadək ümum kişilər səfərbərlik halına gətirildilər. Bu surətlə Zəngəzur, Qapan və Sisyan mahallarının dəstələri mənim qoşunum və Şuşa və Gəncə alayları saldatları böyük bir qüvvə təşkil etdilər. Sisyan, Zəngəzur və Qapan sıxı surətdə əlaqədar olduqdan sonra, türklərin təhti-hakimiyyətinə [hakimiyyəti altına] düşmüş olan tarixi Qarabağı bunlarla birləşdirmək məsələsi qalırdı. Şuşa şəhəri süqutla tərk-silah edilmişdisə də, ətraf kəndlər tabe olmayaraq, səbrsizliklə bizim vürudumuzu [gəlişimizi] gözləyirlər. Bu vəchlə mənim və saldatlarımın burada olmamız və buranın səfərbərliyi sayəsində Zəngəzur, Sisyan və Qapan mahalları bu vaxtadək hələ türklərə ya Azərbaycana tabe olmamışlardır. Halbuki, Ermənistan Cümhuriyyəti nəinki kömək etmək istəməyirdi, hətta bizimlə münasibata girişmək istəməyərək, əhaliyə tövsiyə edirdi silahlarını təslim etsinlər və qorxulu bir adam olmaq üzrə Andraniki içlərindən kənar edib müsəlləh müsadiməyə [silahlı toqquşmaya] səbəbiyyət verməsinlər.

Hər halda Qarabağ məsələsinin həllində fürsəti fövtə verməməlidir. Zəngəzur, Sisyan və Qapan məsələləri artıq həll edilmişdir. Ümidvaram ki, Şuşa haqqındakı qərardadımıza da yaxın zamanda əməl edəyim.

*Andranik*
*27 noyabr 1918*

**General Tomson və Andranik**

Qarabağdan "K. Slovo" qazetəsinə xəbər verirlər ki, bu günlərdə Şuşaya ingilis heyəti gələrək orada qalmış olan 200 türk əsgərinin şəhərdən çıxması barəsində binagüzarlıq etmiş [təşəbbüs etmiş, sərəncam vermiş] və Andraniklə görüşmək üçün Zabixə [Zabuxa] getmişdir. Heyət, Andranikə general Tomson tərəfindən bir mək-tub vermişdir. Məktubda guya general Tomson bütün Qarabağın mühafizəsini Andranikə tapşırırmış. Bu günlərdə Andranikin öz dəstəsi ilə Şuşaya vürudu [gəlişi] gözlənirmiş. Şuşa ətrafında Sokrat bəy Məlikşahnəzərov 6000 nəfərlik bir əsgər dəstəsi düzəlt-miş imiş, Qarabağda sakitlik imiş.

**Şəkidən**

Bizə yazırlar:

Gəncə valisi[nin] Daxiliyyə Nəzarəti naminə verdiyi məlumata nəzərən, Nuxuda ərzaq ucuzlaşmış imiş. Bu əhvalat hörmətli "Azərbaycan" qəzetəsinin 13 təşrini-sani [noyabr] 38-ci nömrəsində dərc edilmişdi. Zənniacizanəmizə görə işbu məlumatı Gəncə valisi həzrətləri iki ay bundan əqdəm [qabaq] vermiş.

Bu halda, Şəkinin hal və övzası [vəziyyəti] çox müşkül və ağır bir haldadır. Barama ipək fabrikaları ilə məşhur Şəkidə 80-90 fabrikalar cümləsi işləmədiyindən on mindən ziyadə fəhlə işsizdirlər. Bir tərəfdən əmrazi-sariyyə [yoluxucu xəstəliklər] gündə yüz nəfərdən ziyadə tələf etməkdə, o biri tərəfdən ərzaq və mühümmatın gündən-gündən bahalanması füqərayi-kasibənin ah-naləsini ərşə çıxarmaqdadır. Xalça, palaz, mis tas satılıb ərzağa verildiyi kimi namuslu, ismətli həmşirələrimizin [bacılarımızın] əlbisələri, gor kəfənləri satılmaqdadır. Çox ailələr var ki, var-yoxunu satıb, bitirib sailliyə [dilənçiliyə] əl uzadıb, bununla da keçinəmmədiyindən acından həlak olanlar da az deyil. Buğda unu 100 manat, arpa unu 60-70 manat, kömürün putu 50 manat, qənd 40 manat, çay gir-vənkəsi 150 manat, ət 4 manat 50 qəpik. Şəki kimi dağlar və meşələrlə məşhur bir şəhərdə odun tapılmayır. Füqərayi-kasibənin bir qismi qırılıb, bir qismi xəstədir, bir qismi də acdır, dağa getməyə taqəti yoxdur. Bu fəlakətlərin qarşısı alınmazsa, Şəki əhli böyük fəlakətlərə düçar olacağı aşkardır. Keçən sənələrdə hər məhəllədə cəmiyyətlər təşkil olunub, füqərayi-kasibənin mühümmati-ləvazimini ucuz fiyat ilə verirdilər, hökumət də yardım edirdi. Şimdiki halda nə hökumətdən və nə zənginlərimizdən heç bir yardım olmadığı kimi, xatirə belə gətirən yoxdur.

Köylülərin [kəndlilərin] geyəcəkləri yoxsa, yeyəcəkləri kafidir, zənn edirəm. Şəhər əhli isə hər bir gediş-gəlişdən kənarda qaldığından, ticarət kəsilmişdir. Şəkinin gözə çarpan [tərəfi] ipək baraması alveri ilə zavodların işləməyi idi. Beş sənədir ki, hər nə qədər mal varsa, cümləsi müştərisiz qalmaqdadır. Bu da Marsel-Moskva yolları bağlı olduğundandır.

Mülkədarlarımızın da məhsulatını rəncbərlər tamam verməyirlər. Tacirlərimiz o halda, mülkədarlarımız da bu gündə. Tacirlərimiz də fəna halda olduğundan Şəki əhlinin biçarəganı [biçarələri] dörd gözlə hökumətimizdən imdad bəkləyir, yardım tələb edir. Gündə yüz nəfər xəstəlikdən insan tələf olursa, nisfi [yarısı] aclıqdan həlak olmaqdadır. Hökumətdən doktor, davacat [dava-dərman], çit, bez, bu kimi zəruri əlzəm olan şeylərin heç birini istəməyib, yalnız yeyəcək ərzaq istəyirlər. Bu da xaricdən gəlib yetişincə tab gətirə bilməyən aclar, gözlərini tikmişlər Şəki mahalından toplanmış üşr anbarlarına. Rica edirlər, mərhəmətli hökumətimizdən, həmin anbarlarda olan buğdalardan əsgərə yetərlik qədərində götürüləndən sonra fəzləsini [qalanını] əhvən [ən aşağı] qiymətlə satıb, parasını beytülmala [dövlət xəzinəsinə] cəm etsinlər.

Allah etməsin, böylə olmasa, Şəkinin əhvalı qayət dərəcədə fəna olacaqdır. Şəkinin başqa dərdləri də çoxdur, hissəmə düşəni mən yazdım.

*Mustafa Bədəlzadə*

### GÜRCÜSTANDA

**Hərbiyyə Nazirinin əmri**

Gürcüstan Hərbiyyə naziri əmr vermişdir ki, bundan sonra Cümhurriyyət qoşunları hərəkatı barəsində qazetələrdə heç bir xəbər dərc edilməsin. Hərbiyyə Nəzarətindən nəşət edəcək [Hərbi Nazirlik çıxışlı] xəbərlərin dərcinə mümaniət [maneə] yoxdur.

**Gürcüstandakı Erməni Milli Komitəsi və Sanain ixtilafı**

Kanuni-əvvəlin [dekabrın] 10-unda Erməni Milli Komitəsinin Sanain ixtilafına aid fövqəladə bir iclası vaqe olmuşdur. Bu barədə Yezrikyan məruzə oxumuşdur. Məruzəni istima etdikdən [dinlədikdən] sonra iclas qət etmişdir ki: 1) Gürcüstan Hökuməti Sanainə Daxiliyyə naziri müavini Maxaradzenin təhti-idarəsində [rəhbərliyi altında] heyət göndərdiyi üçün Milli Komitə də bir heyət göndərsin. Heyətin işi bundan ibarət olmalıdır: 2) Məhəllində [yerində] ixtilafla aşina olub bərtərəf edilməsinə [aradan qaldırılmasına] çalışmalı; 3) Gürcüstanla Ermənistan miyanındakı [arasındakı] sərhəd məsələsini həll etmək üçün lazımi tədbirlər ittixaz etmək [tədbirlər görmək]. Heyətə bunlar intixab edilmişlər: Ağciyan, Yerzikyan, Tumanyan, Doluxanov.

Bunlar Sanainə 11 kanuni-əvvəldə [dekabrda] azim olmuşlar [yola düşmüşlər].

**L. Bıç Gürcüstan haqqında**

Kuban Nahiyə Radasının sədri, Rada iclasında sabiq sədrlərinin hal-hazırda muxtariyyətli hökumət təşkili üçün artıq müşkülat olduğu nöqteyi-nəzərini tənqidlə, bu etirazların əsassız olduğunu bəyan edib demişdir ki, artıq iqtisadi səbəblər qüvvəsi olaraq ayrı-ayrı olan Cənub hökumət təşkilatları böyük bir qüvvə ilə birləşməyə çalışırlar. Rada üzvü Filimonov Gürcüstanın Qırmızı ordu əsgərləri ilə könüllüləri təhdid etməsi haqqında söylədiyi bəyanatı əsilsizdir. Gürcüstanın öz ordusu vardır və Gürcüstan ordusu Qırmızı ordu əsgərləri ilə şiddətli mübarizədə bulunub, onlarla heç bir əlaqəsi yoxdur. Hərgah Gürcüstan Hərbiyyə naziri Giorqadze Bakı şəhərinin türklər tərəfindən alınması arzusunda bulunmuşsa da, o da ancaq Bakı şəhərinin bolşeviklər əlində olub, orada anarşi hökmfərma olmasından [hökm sürməsindən] irəli gəlmişdir. Giorqadze türklərin Bakı şəhərini alıb, orada asayiş bərpa edəcəklərinə ümidvar idi.

L. Bıç nitqinə davam edərək deyir ki, mən bu cüziyyatdan [xırdalıqlardan] bəhs etməyəcəyəm; çünki bunlar sağlam bir fikir vücuda gətirməyib, mütəqabil [qarşılıqlı] etimadsızlıq törətməkdədir. Bizimlə Gürcüstan və Ukrayna arasında bir-birinə zidd mənafe yoxdur. Bizim bir müvazi [paralel] yolumuz vardır. Biz ən əvvəlcə bolşeviklərlə mübarizədə bulunmaq üçün ittifaq yapmalıyız. Burada doğru söylədilər ki, bolşevizm məğlub olmayana qədər rus hökumətini düzəltmək mümkün olmayacaqdır. Bizim qonşularımız da bu barədə bizim kimi maraqlıdırlar. İttifaq yapmaq üçün biz bütün qüvvələrimizi sərf etməliyiz.

Sonra Bıç Soçi nahiyəsi üstündə Gürcüstanla Könüllü ordu arasında çıxan ixtilafdan müfəssəl surətdə bəhs edib demişdir ki, gürcülər özləri də Soçinin onlar tərəfindən işğal edilməsini müvəqqəti hesab edirlər. Bu məsələdə sazişə nail olmaq asandır.

### ERMƏNİSTANDA

Tiflisdəki Erməni Milli Komitəsi, kanuni-əvvəlin [dekabrın] 12-sində Allahverdidən böylə bir teleqram almışdır:

Heyət, salamat Allahverdiyə gəlib çatdı. Axvat mövqifindən [stansiyasından], ətraf kəndlərdən nümayəndələr çağırılmışdır ki, əhval barəsində məlumat alınsın. Hadisat, məhəlli xasiyyəti havidir [hadisələr yerli xarakterlidir]. Anqi, Ozmobar, Ardoy və başqa ixtilaflı kəndlərlə əlaqəni düzəltməkdən ötrü heyət lazımi binagüzarlıqda bulunmuşdur [təşəbbüs göstərmişdir]. Biz ümid ediriz ki, məsələ sülhlə həll ediləcəkdir. Ermənistan hökuməti heyəti də general Mdiviani ilə yolun xarab olmasından naşi Qobereddə qalmışlar. Bunlar da öz tərəflərindən işə iştirak edirlər. Biz bunlarla əlaqəni düzəltmək üçün təşəbbüsatda bulunacağız.

*Yerzikyan, Doluxanov,*
*Tumanyan*

**Eydi-mövludi-nəbi münasibətilə**

Həmin rəbiüləvvəl ayının 15-ində pəncşənbə [cümə axşamı] günü Ağa Murtuza Muxtarovun mülkündə, gündüz saat 12-də Bakı Ünas Müsəlman Cəmiyyəti-Xeyriyyəsi tərəfindən müsəlman xanımları üçün eydi-mövludi-nəbi münasibətilə ziyafət məclisi təyin edilmişdir. Xüsusi dəvətnamələr heç kimə göndərilməyəcəkdir. İanələr kamali-təşəkkür ilə qəbul edilir.

**Xəzər müstəhlikin ittifaqı "Kooperasiya"nın kitabxana şöbəsi**

Türkcə ədəbiyyat, tarix, coğrafiya, sənaye və kooperatsiyaya dair və həmçinin çocuqlara məxsus kitablar, məktəb kitabları, jurnal alır. Arzu edənlər Parapetdə "Azərbaycan" qəzetəsi kantorunda Əliəkbər Heydərzadəyə müraciət etməlidirlər. Telefon: 6-91.

*b/24 3 – 2*

Xalq Səhiyyəsi naziri həzrətlərinin əmrinə mütabiq ümum aptek mağazası sahiblərinə elan olunur ki, bunlar bu il 31 dekabr 1918 tarixinə kimi Tibbiyyə və Sihhiyyə şöbəsinə aşağıdakı məlumatı pişnihad [təqdim] etməlidirlər.

1) Mağazanın sahibi, müdiri və mağazada işləyən əşxas [şəxslər] barəsində və bunların dərəceyi-elmini.

2) Nə vaxt və kimin müsaidəsi ilə mağaza açılmışdır.

3) Mağazanın məkanı.

4) Zəhərli və tünd ədəvat ilə alver etməyə icazə varmı?

*Tibbiyyə və Sihhiyyə Şöbəsi müdiri:*
*İ. Punko*
*b/22 3 – 3*

**Doktor**
**Hacı Fəthullah Ağaəlizadə**

Böyüklərin və uşaqların daxili mərəzlərinə müalicə edir. Xəstələri qəbul edir hər gün səhər saat 8-dən 10-adək və ax-şam saat 4-dən 7-yədək Şamaxı küçəsində, 14 nömrəli evdə.

Telefon nömrəsi 19-27.

*289*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Doktor**
**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Diş həkimi B. L. Levin**

Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni diş qayırır. Tsitsyanovski caddə nömrə 7, Qubernskinin küncündə.

Qəbul edir: 9-dan 2-yə kimi; 4-dən 7-yə kimi.

*280*

**Qoldqor-Fradkinin**
**Diş müalicəxanası**

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

*2607 12 – 1*

**Arvad diş həkimi**
**A. P. Matsiyevskaya**

Naxoşları qəbul edir. Nikolayevski caddədə ev nömrə 33, Krasilnikovun evi. Telefon nömrə 45-90.

Qəbul edir saat 10-dan 2-yə kimi, 5-dən 7-yə kimi.

*283*

**Qabil diş qayıran**
**Mirzə Xəlil Canıbəyzadə**

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, "İslamiyyə"nin sağ tərəfində ev nömrə 55.

*295*

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün saat 9-1-ədək, saat 4-7-yədək. Telefon 5-30. Adres: Parapet, Kolyubakinski küçədə nömrə 39. "Azərbaycan" qəzetə idarəsinin yanında.

*237*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Burada leyli [gecə] yatacaqlarıyla qadın cərrahiyyə xəstaxanası mövcuddur.

*209*

**Mama M. K. Şerman**

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə.

Telefon 24-62

**Müdir və baş mühərrir:**
**Ceyhun bəy Hacıbəyli**

### TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Qismi-rəsmi***

"10 kanuni-əvvəl 1334": Burada il, rumi tarixlə göstərilmişdir; miladi tarixlə 10 dekabr 1918-ci ilə uyğundur.

"11 kanuni-əvvəl 1334": Burada il, rumi tarixlə göstərilmişdir; miladi tarixlə 11 dekabr 1918-ci ilə uyğundur.

"12 kanuni-əvvəl 1334": Burada il, rumi tarixlə göstərilmişdir; miladi tarixlə 12 dekabr 1918-ci ilə uyğundur.

***Teleqraf xəbərləri***

"Drednot": hərbi dəniz donanmalarında XX əsrin əvvəllərindən etibarən istifadə edilməyə başlanan, güclü artilleriya silahlarına malik zirehli gəmi (drednout).

"İngiltərə Baş vəziri...": Söhbət Lloyd Corcdan gedir.

***Xalq məktəbləri müdirlərinin yığıncağı***

"1) Lüğət tədarükü": Bundan sonrakı maddələr ("Tarix tədarükü", "Coğ-rafiya tədarükü" və s.) 2-dən başlayaraq nömrələndiyi halda, qəzetdə bu maddə nömrələnməmişdir.

***Maarif müfəttişlərinin yığıncağına dair***

"Bu vəchlə, övladi-vətən daha məktəbdə ikən üstadi-əzəm, cənnət-məkan, mərhum İsmayıl bəyin tövsiyə etdiyi...": Krım tatarlarının ictimai-siyasi xadimi Qaspıralı İsmayıl bəy nəzərdə tutulur.

***Mövludi-Nəbi***

"«Bizi nə hüdudi-şahan [şahların sərhədləri], nə ixtilafiəlsinə [dil müxtəlifliyi], nə İncil və nə də Quran ayı-rammaz» məzmununda olan türki [türk dilində] bir şeirlə...": Əli bəy Hüseynzadənin "Sizlərsiniz ey qövmi-Macar, bizlərə ixvan / Mümkünmü ayırsın bizi İncil ilə Quran?" misralarının da olduğu məşhur şeiri nəzərdə tutulur.

***Azərbaycanda: Şəkidən***

"Üşr": kənd təsərrüfatı məhsullarından onda bir miqdarında alınan vergi.

***Gürcüstanda***

"Gürcüstan Hərbiyyə naziri...": söhbət Qriqol Giorqadzedən gedir.

# "AzerGold" QSC və "Regional İnkişaf" İctimai Birliyinin təşkilatçılığı ilə Daşkəsən rayonunda ekoloji tədbirlər həyata keçirilib

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) və "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) təşkilatçılığı ilə 5 İyun - Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününə həsr olunmuş "Təbiəti qoruyaq, plastik tullantılara yox deyək!" devizi altında ekoloji aksiya və təlim keçirilib.




"AzerGold" QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə, aksiya çərçivəsində səhmdar cəmiyyətin əməkdaşları RİİB-in könüllüləri ilə birgə Gəncə-Daşkəsən iqtisadi rayonunun ən böyük su hövzələrindən biri olan Qoşqarçayın Daşkəsən rayonunun Quşçu kəndindən keçən hissəsində təmizlik işləri həyata keçiriblər.

Aksiya iştirakçıları tərəfindən çayın sahilləri boyu, təqribən 2 hektara yaxın meşə ərazisi plastik, polietilen, metal, şüşə, kağız, karton və digər tərkibli tullantılardan təmizlənib. Yığılmış tullantılar çeşidlənərək təkrar emala yönəldilib.

Aksiyanın əsas məqsədi Qoşqarçayın sahillərinin tullantılardan təmizlənməsi, xüsusilə atılan məişət tullantılarının su hövzəsinin bioresurslarına vurduğu zərərlərlə bağlı ictimaiyyətin maarifləndirilməsidir. Bu xüsusda "AzerGold" QSC və RİİB-in mütəxəssisləri tərəfindən ekoloji maarifləndirmə təlimi də keçirilib. Təlim çərçivəsində təkrar emalın təşviq edilməsi, ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması, tullantılara ikinci həyat verməklə təbiətin mühafizəsinə və ekoloji balansın saxlanılmasına töhfə verilməsi istiqamətində məruzələr dinlənilib.

Qeyd edək ki, 1972-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən dünya əhalisinin diqqətinin ekoloji problemlərə yönəldilməsi məqsədilə təsis edilən Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü bu il "Plastik çirklənmənin həlli yolları" mövzusuna həsr edilib. Hər il bu əlamətdar gün ərəfəsində "AzerGold" QSC "Regional İnkişaf" İctimai Birliyinin və digər tərəfdaş qurumların dəstəyi ilə ətraf mühitin və bioloji müxtəlifliyin qorunmasına töhfə verilməsi üçün tədbirlər həyata keçirir.


*Təkrar*

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC
## *açıq tender elan edir*

**LOT- 1.** Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən Dendrologiya parkının yenidənqurma və abadlıq işlərinin davam etdirilməsinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: (012) 496-52-05.

**LOT 1 - 3000,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi tender zərfinin açıldığı gündən sonra azı 70 bank günü təşkil etməlidir;*
- *tender təklifinin 1 faizi həcmində bank təminatı;*
- *tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;*
- *müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı: 5 faiz;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *mənfəət vergisinin bəyannaməsi (2022-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq edilməlidir. Təsdiq məktubu elektron qaydada əldə edildikdə notarial təsdiqli təqdim edilməlidir);*
- *maliyyə vəziyyəti haqqında hesabat, mənfəət və zərər haqqında hesabat, kapitalda dəyişiklik haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat (2022-ci ili əhatə etməli və hesabatlar müstəqil auditor tərəfindən təsdiq edilməlidir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçı oxşar təyinatlı və analoji işlər sahəsində azı 3 milyon manat həcmində müqavilələr və təhvil-təslim aktları təqdim etməlidir;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *iddiaçının texniki imkanları barədə məlumat (əsas şərtlər toplusuna əsasən);*
- *müvafiq kadr imkanları barədə məlumat (əsas şərtlər toplusuna əsasən);*
- *sahibkarlıq subyektinin meyarını müəyyən edən sənəd;*
- *müvafiq fəaliyyət sahəsini həyata keçirmək üçün lisenziya (əlavələri ilə birlikdə);*
- *İSO 14001 (2015).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Tender komissiyasına yazılı şəkildə ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri **05 iyul 2023-cü il saat 17:00-a** və tender təkliflərini və tender təkliflərinin təminatlarını möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına **17 iyul 2023-cü il saat 17:00-a** qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **18 iyul 2023-cü il saat 10:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
## İXİ-nin YMBD sahəsinə yanğınsöndürmə avadanlıqlarının satın alınması məqsədilə
## *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 13 iyun 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
## ASCO-nun struktur idarələrinə tələb olunan məişət avadanlıqlarının satın alınması məqsədilə
## *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 iyun 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1176**

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*
## *abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Həssas əhali qruplarından olan şəxslərin asudə vaxtının davamlı təşkili məqsədilə təşəbbüslərin həyata keçirilməsi" adlı
## *müsabiqə keçirir*

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" Biznes Mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 20 iyun 2023-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqə 21 iyun 2023-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**
**Əlaqə telefonu: (012) 525-41-30 (daxili: 5033)**

***Müsabiqə komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC tərəfindən "Bakı memarlığı fotorəsmlərdə və açıqcalarda" adlı kitabın çap etdirilməsi üçün malların, işlərin və xidmətlərin satın alınması üzrə keçiriləcək təkliflər sorğusu üçün sənədlərin qəbulu vaxtı iddiaçının müraciəti əsasında 06.06.2023-cü il saat 17:00 tarixindən 19.06.2023-cü il saat 17:00 tarixinədək uzadılmışdır. Zərflərin açılış tarixi 20.06.2023-cü il saat 10:00 tarixinə dəyişdirilmişdir.

***Tender komissiyası***








## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədova anası

**ZƏHRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədova anası

**ZƏHRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədova anası

**ZƏHRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədova anası

**ZƏHRA İSA QIZI MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5772**
**Sifariş 1429**

**Qiyməti 40 qəpik**